1837-ci ildə Quba üsyanı başlananda əniğli Qadir Əziz oğlu böyük bir dəstə yaradıb Hacı Məhəmmədə yaxından kömək göstərmişdir.

1920-ci ilin sentyabrın 2-də əniğlilər bolşevik hökumətinin əksinə birləşib Sablinin və Roqalevin rəhbərlik etdikləri polkları darmadağın etdilər. Belə faktlar kəndin döyüşkən təbiətli adamları haqqında aydın təsəvvür yaradır.

Monumentallığı və özünəməxsusluğu ilə diqqəti cəlb edən Əniğ məscidi kəndin mərkəzində, onun nisbətən qədim ərazisində, hündür təpədə inşa olunmuşdur. Mehrabın üstündəki divara ərəb hərfləri ilə həkk olunmuş yazıda məscidin Şeyx Abumüslümün vəsaiti ilə 10 il ərzində, 1911-1921-ci illərdə (1329-1339) inşa edildiyi göstərilir.

Əniğ şeirə, poeziyaya vurğun insanların vətənidir. XVII əsrdə yaşayıb-yaratmış Əniğli Abdulun şeirləri burada dillər əzbəri olmuşdur. Onlardan bəziləri indiki dövrə gəlib çatmışdır. 2004-cü ildə 80 yaşında vəfat etmiş xalq şeir nümunələrinin gözəl bilicisi Hafizat Bağış qızı Sadirova Əniğli Abdulun onlarca şerini əzbərdən deyərdi. O, bu sətirlərin müəllifinə şair haqqında bəzi məlumatlar da vermişdir.





ХЬИЛ

Вичин тIвар хьел тайифадин тIварцIихъ галаз алакъалу тир и хьуруьхъ 3 агъзур йисалай виниз тарихар ава. И фикирдал Азербайжандин археологар 1976-йисуз хуьре тухвай археологиядин кIвалахрилай кьулухъ атана.

Ясабрин пелелай Хьилерин хуьруьз вил вегьейла, лугьуз тежедай хьтин иервили рамда вун. Дагъларин цIиргьини элкъуьрна юкьва тунвай и тамаривни багъларив гекъигиз жедай затIни жагъич ваз. Кьвал-кьвала хкаж хьанвай Шалбуз дагъ, Базардуьзуь, Шагъ дагъ, ТIурфан дагъ, Яру дагъ, Буба дагъ и саягъда цIиргьина аваз санани аквач ваз.

Хуьруьн топонимри адан тарихдин чара-чара девиррин гьава, гьакIни лезги чIалан тIям хвенва. Кемсуьл - куьгьне хуьр алай чка я. Хуьруьн виридалайни кьакьан чкадал Пелен хуьр ала. Аниз Сиртни лугьуда хьиливийри. Дабуц - хуьруьн юкь я. Тулаб - Хьилеринни ГуьндуьзкIеледин арада авай дуьзенлухдин тIвар я. Хьиляй Ясабдал физвай пел Цапун пел хьиз сейли я. Юнусан банд, ЧIанатI, Булахд кIам, Йитек, ПIирлид кек, Ртар кIам, Пашад кIам, Дух тукIурди, Гамишар тукIурди, Манафан багъ, Гьажид чка, Регьуьн кIам хьтин чкаяр тIебиатдин гуьлуьшан чилерал экIя хьанва.

Хьилерин хуьр гьар са кардал пуд жуьреда тафаватлу жезва. Хьиливияр хайи чил кIани ксар я, женгчи руьгь квайбур я, тай авачир устIарар я. “Сувал” тама бине кутур къадим хуьруьн пуд пад къа-

HİL

Adı qədim hel tayfasının adı ilə bağlı olan Hil kəndinin tarixi 3 min ildən çoxdur. Azərbaycan arxeoloqları bu fikri kənddə 1976-cı ildə apardıqları arxeoloji qazıntılardan sonra bir daha təsdiq etmişlər.

Yasab təpəsindən Hilə nəzər yetirəndə təsvirəgəlməz gözəl bir mənzərə açılır. Dağ silsilələrinin dövrəyə aldığı, meşələrin və bağların arasında qərar tutmuş bu kəndin tamaşasından doymaq olmur. Yan-yana düzülmüş dağların - Şalbuzdağın, Bazardüzünün, Şahdağın, Tufandağın, Yarudağın və Babadağın bu cür nizamla düzülüşünü başqa yerdə çətin seyr edərsən.

Maraqlıdır ki, qədim zamanlardan hel tayfasının adını qorumuş hillilər hər sahədə üç cür seçilirlər. Onlar vətənə bağlı adamlardır, üsyankar ruha malikdirlər və əvəzsiz sənətkardırlar.

Suval meşəsində məskən salmış qədim kəndin dörd tərəfi qayalar idi. İndiki kənd “Şahnəzər təpəsi", “Semiz təpəsi” və “Musa təpəsi” adlı üç təpədə yerləşir. Onun IX-X əsrlərdə dağılmış üç kəndin - Kəmsül, Cənnət və Səfiqulu kəndlərinin əhalisi tərəfindən salındığını deyirlər. Kənddə üç məşhur pir var: Qarabuba, Murad və Rutar. Burada qədim qəbiristanlıqlar da üçdür. Onların yaşı 3 min ildən çoxdur.

Qusarlı alim, tarix elmləri doktoru Abidulla Orucov və Qubanın Xucbala kəndindən olan məşhur arxeoloq Cabbar Xəlilov 1977-ci ildə çap olunmuş “Azərbay-

ябар тир. Гилан хуьр “Шагьнезеран пел”, “Семизан пел” ва “Мусад пел” лугьудай пуд пелел ала. Ам IX-X виш йисара чкIай пуд хуьруьн - Кемсуьл, Женнет ва Сефикъулидхуьруьн агьалийри кутурди я лугьузва. Хуьре пуд пИир ава: Къарабуба, Мурад ва Рутар пИирер. Хьилерин сурарни пуд я. Къадим сурарихъ 3 агьзур йисан тарихар ава.

КцIарви алим Абидулла Оружова ва машгьур археолог Жаббар Халилова 1977-йисуз “Азербайжан ССР-дин Илимрин Академиядин хабарар” журналдин 1-нумрада чапдай акъудай, “КцIар райондин Хьилерин хуьряй жагьай бязи археологиядин амукьайрин гьакъиндай” тIвар ганвай макъалада, гьакIни Ж.Халилова Къ.Къошкъарлыдихъ ва Р.Аразовадихъ галаз санал 1991-йисуз урус чIалалди басмадай акъудай “Кефер-рагьэкъечIдай Азербайжандин археологиядин амукьаяр” ктабда къейд авунвайвал, къадим хуьруьхъ пуд агьзур йисан тарих ава.

Гьа икI, тарихдинни археологиядин делилар асасдиз къачуртIа, Хьил Къафкъаздин къадим хуьрерикай сад я лугьуз жеда. Ина лезгийрин хьел тайифадин агьалияр яшамиш жезвай ва гуьгъуьнлай хуьруьз гарг тайифадин са шумуд хизанни куьч хьанай. Хьилерин тухумрин арада гаргарин тухум исятдани дуьшуьш жезва.

Пуд къагьриманди хуьруьн тIвар вириниз сейли авунай: VIII асирда пагьливан Шувула, XVIII асирда Абдуллагьа ва XIX асирда Яралиди. Юкьван виш йисарин араб тарихчийри малумат гузвайвал, лезги чилерал Билисандин пачагь Арбисалай алатайла, тамарин юкьва, кьакьан пелел экIя хьанвай Хьилерин хуьруьн гьаким Шувула мислимриз генани пара басрухар ганай.

Ибн Асам ал-Куфиди хьиливияр ва къунши хуьрерин арабрин аксина женг чIугвазвай агьалияр тамарин асланрив гекъигнай. Кьве йисуз Шувул кьиле аваз арабрин хура акъвазай лезги кIеретIри чапхунчийрихъ галаз эхирдал кьван женг чIугунай ва и хьиливи кьегьал къагьриманвилелди гьелек хьанай. Ам рекьидалди арабривай хуьруьз гьахьиз хьаначир.

1741-йисан зулуз Надир шагьди Муьшкуьрдин лезгийрал вегьена, абуруз дуван кьунай. Ада есирда кьур 2 агьзур кьван лезгияр Гавдишандиз гьанай. Шагьдиз муьшкуьрвияр Хьилерин тамара авай лезги кIеретрихъ галаз дяведиз ракъуриз кIан хьанай. Лезгиди лезгидихъ галаз ккIун хев тавурла, Надир шагьди садбур тарагьаждай куднай, садбурун вилер акъуднай, садбурун гьилер атIанай. Шагьдин

can SSR Elmlər Akademiyasının xəbərləri"nin birinci sayında çap etdirdikləri “Qusar rayonunun Hil kəndindən tapılmış bəzi arxeoloji nümunələr haqqında” adlı məqalədə, eləcə də C.Xəlilovun, Q.Qoşqarlının, R.Arazovanın 1991-ci ildə rus dilində nəşr etdirdikləri “Şimal-Şərqi Azərbaycanın arxeoloji nümunələri” kitabında qədim kəndin 3 min illik tarixi olduğunu qeyd etmişlər. Bu məlumatlar Hilin Qafqazın qədim kəndlərindən olduğunu deməyə əsas verir. Burada ləzgilərin qədim hel tayfasının əhalisi yaşayırdı və sonralar bura qarq tayfasından da bir neçə ailə köçmüşdür. Kəndin nəsilləri arasında qarqarların xələflərinə indi də rast gəlinir.

Üç qəhrəman bu kəndin adını hər yerdə məşhur etdi: VIII əsrdə pəhləvan Şuvul, XVII əsrdə Abdullah, XIX əsrdə Yarəli.

Orta əsr ərəb tarixçilərinin verdikləri məlumatlara görə, Bilisan şahı Arbisdən sonra Hil kəndinin hakimi Şuvul müslümlərə qarşı mübarizədə böyük qəhrəmanlıq göstərmişdir. İbn Asam əl-Kufi ərəblərin əksinə mübarizə aparan əhalini meşələr aslanına bənzətmişdir. Yalnız iki il ərəblərə qarşı mübarizə aparmış Şuvul qəhrəmanlıqla həlak olduqdan sonra ərəblər kəndə daxil ola bilmişlər.

1741-ci ilin payızında Nadir şah Müşkür ləzgilərinə hücum edib onlara divan tutur. O, əsir aldığı 2 min ləzgini Gavdişana gətirir. Şah onları Hil meşələrində gizlənmiş ləzgi dəstələrinə qarşı döyüşə göndərmək istəyir. Bundan imtina edən ləzgiləri o, dar ağacından asdırır, bəzilərinin gözlərini çıxartdırır, əllərini kəsdirir. Şahın bu zülmünə cavab olaraq məşhur pəhləvan Müşkür Sərfinatın və hilli Abdullahın dəstələri fars qoşunlarının üstünə şığıyır. Üç gün davam edən həmin döyüşdə iranlılar xeyli itki verərək, geri çəkilməyə məcbur olurlar.

1837-ci ilin Quba üsyanı zamanı böyük qəhrəmanlıqlar göstərən hilli Yarəli rusların qoşunundan bir dəfə 200, bir dəfə isə 68 kazakı əsir alır. Həmin ilin sentyabrın 5-də Quba qalasına girən və rus əsgərlərinə qarşı döyüşən Yarəli ilə birgə onun oğlu Rəcəb və hilli Yunus da böyük qəhrəmanlıqlar göstərir.

Üsyankar ruhu ilə seçilən hillilər 1915-1916-cı illərdə Quba qəzasında ilk olaraq vaxtilə çarın onlardan aldıqları torpaqları geri alırlar. Sonra isə onlar hökumətə xərac verməkdən imtina edirlər. Rus çarının əlaltıları 300 kazakın köməyi ilə hilliləri ram etmək istəyir. Lakin Əlisultanın rəhbərliyi altında hillilər kazakları kənddən qovurlar.

3 böyük sənətkar nəinki Hilin, eləcə də bütün ləz-

и зулумдиз жаваб яз машгъур пагъливан Муьшкуьр Серфинатан ва хьиливи Абдуллагьан кIеретIри фарс кьушунрал вегьенай. Пуд юкъуз кьиле фейи ягъ-ягъунра иранвияр гзаф телеф хьанай ва гьавиляй Надир шагьди вичин кьушун кьулухъ чIугунай.

1837-йисан Къубадин бунтарин вахтунда хьиливи Яралиди чIехи къагьриманвилер къалурнай. Гьа йисан 5-сентябрдиз Ярали Къуба кIеледиз гьахьнай ва урус аскеррин аксина къати женг чIугунай. И женгера адан хва Режеб ва хьиливи Юнусни кьегьалвилелди тафаватлу хьанай.

И женгчи руьгь хьиливийри гуьгъуьнин йисарани хвена. 1915-1916-йисара абуру сифте яз Къуба уездда пачагьдин хазинадин чилер къахчуна. Ахпа хьиливийри гьукуматдиз харжар гудач лагьана. Урус пачагьдин гьилибанриз 300 казакдин куьмекдалди хьиливияр муьтIуьгъариз кIан хьана. Амма Алисултана регьбервал гайи хьиливийри казакар хуьряй чукурна.

Пуд чIехи сеняткарди лезги халкьдин медениятдик зурба пай кутунай. VII-VIII виш йисариз талукь "Алупан улуб"да кхьенвайвал, машгъур устIар хьиливи Илебиса муьшкуьрви Кирилахъ, куьреви Шарланахъ, шамахиви Мифлилахъ галаз санал Шамахи кIеле, Шекидин Кели кIеле, Кьвепеле ва Къум кIелеяр эцигнай. Хьилерин устIарар исятдани сейли я. Ина гьар са кас жезмай кьван вичин кIвал вичи эцигиз алахъда.

XVIII асирда яшамиш хьайи хьиливи Мегьер кIарасдал нехишар атIудай устIар хьиз сейли тир. А девирда Дагъустандин гьакимри чпин имаратриз безекар гун патал адаз эвердай. XX асирда маса хьиливи сеняткарди, вич Ленинан ва Зегьметдин Яру Пайдах орденриз лайихлу хьайи, Азербайжанда вичин 120 йисан юбилей къейд авур машгъур гамарин устIар Зибейда Микаилан руш Шейдаевади чи халичачивилин сенят вири дуьньядиз чирнай. З.Шейдаевади лезги халичайрин муьжуьд цIийи чешне арадал гьанай.

Алимри къейд ийизвайвал, халичаярни сумагар хразвай устIаррин макан тир Хьиле 200 йис инлай вилик агъадихъ галай чешнейрин халичаярни сумагар хразвай: "Хьилер", "Пуд фурар", "Ругуд фур", "Иридар", "Муьжуьдар", "Лезги гьед", "Бубуяр", "Къацар", "Яргунар", "Алпандин фурар", "Рагар", "Яру нав", "Гьетер", "Цацар цуьк", "Хьелер", "Эквер", "Вурвар" ва мсб. Хьиливийри арадал гьанвай чешнейрин арада "Хьилер", "Хьелер", "КIусар", "Лекьенар", "КIурукIар" ва масабур авай.

gilərin mədəniyyətini yüksəklərə qaldırdı. VII-VIII əsrlərə aid "Alupan ulub"da ("Alupun kitabı"nda) yazıldığı kimi məşhur hilli usta İlebis, müşkürlü Kiril, Küre vilayətinin sakini Şarlan, şamaxılı Miflillə birlikdə Şamaxı qalasını, Şəkinin Keli qalasını, Qəbələ və Qum qalalarını tikmişdir.

Hilli ustalar bu gün də məşhurdur. Kənddə əlindən ustalıq gəlməyən adam tapılmaz və öz evini hər kəs özü tikir. XVIII əsrdə yaşamış hilli Məhər taxta üzərində naxışlar açan sənətkar kimi məşhur idi. Həmin dövrdə Dağıstan hakimləri öz imarətlərinə bəzək vermək üçün Məhəri çağırardılar.

XX əsrdə başqa bir hilli sənətkar, Lenin ordeninə və Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüş, anadan olmasının 120 illik yubileyi Azərbaycanda təntənə ilə qeyd olunmuş məşhur xalça ustası Zibeydə Mikayıl qızı Şeydayeva xalçaçılıq sənətini bütün dünyaya tanıtdı. Bu qadın ləzgi xalçalarının səkkiz yeni çeşnisini yaratmışdır.

Alimlərin qeyd etdikləri kimi, xalça və sumaq toxuyan ustaların məskəni olan Hildə 200 il bundan əvvəl aşağıdakı xalça və sumaq çeşniləri toxunurdu: "Xiler", "Pud furar", "Ruqud fur", "İridar", "Müjüdar", "Lezqi ğed", "Bubuyar", "Qasar", "Yarqunar", "Alpandin furar", "Raqar", "Yaru nav", "Ğeter", "Tsatsar tsük", "Xeler", "Öker", "Vurvar". Hillilərin yaratdıqları çeşnilər arasında "Xiler", "Xeler", "Kusar", "Lekenar", "Kurukar" və başqaları var idi.

Üç dövr hillilərin tarixinə Qusarın kəndlərinin mərkəzi kimi düşmüşdür: XV-XVII əsrlər, XIX əsr və



Хьиливийрин кIвалер *Hillilərin evləri*

Пуд девир хьиливийрин тарихда КцIарин хуьрерин меркез хьиз амукьна: XV- XVII виш йисар, XIX асир ва советрин девирдин сифте вахтар. Сифте яз районни и хуьре тешкил хьанай. Советрин девирди кьил кутур вахтунда, 1920-йисан мартдин эхирра Нариман Нариманов 27 аскерни галаз Хьилиз атанай. Ина ам Аладаш дуьзда Яру кьушундин вилик пад кьуна, большевикрин аскерар Азербайжандиз ахъайзавачир Муьгъуьбали эфендидихъни Гьатем агъа ЧIакIарвидиъ галаз гуьруьшмиш хьанай. Абурун арада хьайи икьрардилай гуьгъуьниз лезги къачагъри женгинилай гьил къачунай. Вад юкъуз Хьиле мугьманвиле хьайи Нариман Нариманова лезгийрин кьегьалвилериз, абурун меденият-дизни мугьманрал рикI хьуниз чIехи къимет ганай.

И хуьряй шумудни са алимар акъатнава. Машгьур алим, математикадин илимрин доктор, профессор Керим Керимов, химиядин илимрин доктор, профессор Мейведдин Гьажиев, химиядин илимрин доктор Гьажагъа Эмиркъулиев, математикадин илимрин доктор Эгьмедбег Мегьамедов, илимрин кандидатар Лачин Лачинов, Бенямеддин Давудов, Шафиддин Герейханов, Мегьди Балаев, Рафикъ Салагьов, Магьир Мустафаев ва масабур хьиливийрин дамах я.

Гьил тIвар-ван авай агъсакъалрин макан я. Ина вичин са гафуналди йисарин мидяяр дуст хъувур, хуьруьнбуру икрам авур Аскеран Дух хьтин ксар яшамиш хьанай. Хьиливийрихъ кьетIен са къилих ава: хуьруьхъ ялай, хийирлу крарихъ гелкъвей ксар абуру рикIелай алуддач. Абурукай садни 120 йис инлай вилик яшамиш хьайи Иляс тир. Ада Шагъ яйлахдиз фин патал КцIар вацIал муьгъ эцигнай. А муьгъ кцIарвийрин меце исятдани "Илясан муьгъ" хьиз ама. XX виш йисан сифте кьилера 40 рипе къуьл маса гана, гьадан пулуник пелен хуьруьз рехъ чIугур Ясин Мегьамедханован тIварни элди фад-фад рикIел хкида. Къедалди а рекьиз "Ясинан рехъ" лугьузва.

50-йисара хуьруьз яд гьун патал чIехи алахъунар авур кьве касдикайни вири гьуьрметдивди рахада. Ибур хуьруьн колхоздин седри хьайи Магьмуд Гьажиев ва партком Муьлкихан Эдилов я. Элдихъ рикI кайи Магьмуд Гьажиеван тIвар фад-фад рикIел хкида хьиливийри. Гьар чеб кIевера акIайла агъ алададариз, "Магьмуд кIандай" лугьуда.

Sovet dövrünün ilk illəri. İlk dəfə rayon da bu kənddə təşkil olunmuşdur.

1920-ci ilin martın sonlarında Nəriman Nərimanov 27 əsgərlə birlikdə Hilə gəlir. Burada o, Aladaş düzündə Qırmızı Ordunun qarşısını kəsib bolşevikləri Azərbaycana buraxmayan Möhübəli əfəndi və Hatəm ağa Cağarvi ilə görüşür. Onların arasında bağlanmış müqavilədən sonra ləzgi qaçaqları mübarizədən əl çəkirlər. Beş gün Hildə qonaq qalan Nəriman Nərimanov ləzgilərin qəhrəmanlığına, adətlərinə və mədəniyyətinə böyük qiymət verir.

Hil alimlər kəndi kimi də məşhurdur. Buradan riyaziyyat elmləri doktoru, professor Kərim Kərimov, kimya elmləri doktoru, professor Meyvəddin Hacıyev, kimya elmləri doktoru Hacağa Əmirquliyev, riyaziyyat elmləri doktoru Əhmədbəy Məhəmmədov, elmlər namizədləri Laçın Laçınov, Benyaməddin Davudov, Şafiddin Gərəyxanov, Mehdi Balayev, Rafiq Salahov, Mahir Mustafayev və başqaları çıxmışdır. Hil həmçinin bir neçə rayona rəhbərlik etmiş Müslüm Murtuzayevin vətənidir.

Kənddəki məscid binasının 100 yaşı tamam olub. Yüzbaşı Mite Qayınbəyovun rəhbərliyi altında kənd camaatının iməcilik yolu ilə 1908-ci ildə inşasına başladığı məscidin tikintisi 1912-ci ildə başa çatmışdır. Bir vaxtlar birinci mərtəbəsində 300 nəfər dindarın eyni vaxtda ibadət etdikləri, yuxarı mərtəbəsi qadınlar üçün ayrılmış bu yaraşıqlı məscidin tikintisində ləzgi memarlığı üslubundan geniş istifadə olunmuşdur.

Hillilər bir zamanlar bir sözü ilə qan düşmənlərini barışdırmaq istedadına malik Askeran Dux, kəndə gələn qonaqları öz evində qarşılamadan yola salmayan Şirin Hacıverdiyev kimi adamların adlarını hörmətlə çəkir. XX əsrin əvvəllərində 40 ripe (ləzgilərin çəki vahidi olan bir ripe 40 kiloqrama bərabərdir) buğdasını satıb, onun pulu ilə kəndə yol çəkdirmiş Yasin Məhəmmədxanovun adı da xalqın yaddaşında yaşayır. Onun çəkdiyi yol bu günə qədər "Yasinan rex" ("Yasinin yolu") adlanır.

Ötən əsrin 50-ci illərində kəndə su çəkdirmiş kolxoz sədri Mahmud Hacıyev və partkom Mülkixan Adilovun da adlarını hamı hörmətlə çəkir. Hər dəfə çətinə, dara düşəndə hillilər Mahmud Hacıyevi - doğma kəndi və onun camaatı üçün əlindən gələni etmiş ziyalını "İndi Mahmud olaydı" deyə xatırlayırlar.



МАНКЪУЛИДХУЬР

Археологиядин амукьайри гилан Манкъулидхуьруьн чилерал къадим хуьрер хьайиди субутзава. I ва II Гавдишан пелера гьеле чи эрадал къведалди хуьрер кутунай.

Азербайжандин алимрикай Ж.Халилова, Къ.Къошкъарлыди ва Р.Аразовади Гавдишанпелера тухвай ахтармишунрай аквазвайвал, Манкъулидхуьруьвай 3-4 километр яргъа тир I ва II Гавдишан пелера лезгийри гьеле чи эрадал къведалди хуьрер кутунай. III Гавдишанпел гилан Къалажух хуьруьз мукьва я ва гьанани дегь чlавара яшайишдин макан авай.

I Гавдишанпелен археологиядин амукьайрилай малум жезвайвал, и хуьруьн агъалияр фад-фад чапхунчийрин аксина женг чlугваз мажбур хьанай. И пелелай Дагъустандин, гьакlни Къуба ва Хачмаз районрин чилер хъсандиз аквазва. Гьавиляй Гавдишанпел лагьайла чкадин агъалийри гьа и пел фикирда кьун дуьшуьшдин кар туш.

Хуьруьвай 3 километр яргъа тир II Гавдишан пел дуьзенлухда экlя хьанва. Ина чи эрадал къведалди сад лагьай агъзур йисан юкьвара хуьр кутунай. Тlебиатдин ва чапхунчийрин басрухар себеб яз хуьруьн агъалийри чпин чка са шумудра дегишарнай. Дегь чlавара абурун чlехи бубайри Эчlехуьруьнни Чlехи Муругърин арада, кьакьан пелел хуьр кутунай. И хуьруьн къадим амукьаяр исятдани ама.

İMAMQULUKƏND

Arxeoloji qazıntılar indiki kəndin ərazisində qədim dövrlərdə yaşayış məskəninin olduğunu sübut edir. I və II Gavdişan təpələrində hələ eramızdan əvvəl kəndlər salınmışdır.

Azərbaycan alimlərindən C.Xəlilovun, Q.Qoşqarlının və R.Arazovanın Gavdişan təpələrində apardığı axtarışlardan göründüyü kimi, İmamqulukəndin 3-4 kilometrliyində yerləşən I və II Gavdişan təpələrində ləzgilər hələ eramızdan əvvəl kəndlər salmışlar. İndiki Qalacıq kəndi yaxınlığındakı III Gavdişan təpəsi də qədimlərdə yaşayış məskəni olmuşdur.

I Gavdişan təpəsində aşkar olunmuş arxeoloji tapıntılardan göründüyü kimi, həmin kəndin əhalisi tez-tez yadellilərin hücumuna məruz qalmışdır. Təpədən Dağıstanın, həmçinin Azərbaycanın Quba və Xaçmaz rayonlarının əraziləri yaxşı görünür.

Kənddən 3 kilometr aralıdakı II Gavdişan təpəsi düzəngahda yerləşir. Burada eramızdan əvvəl I minillikdə kənd olmuşdur. Təbii fəlakətlər və yadellilərin hücumları nəticəsində yerli əhali bir neçə dəfə öz yerini dəyişmişdir. Qədim zamanlarda onların məskəni Əcəxürlə Böyük Muruq kəndləri arasındakı hündür təpənin üstündə olmuşdur. Kəndin qalıqları bu günə qədər gəlib çatmışdır. Ehtimallara görə kənd əhalisinin buradan köçməsinin səbəbi 1667-ci ildə bir-birinin ardınca baş vermiş zəlzələlər olmuşdur.

Бязи делилри 1667-йисуз ина са шумудра залзалаяр хьунихъ хуьр куьч хьайиди къалурзава. Хуьруькай Х.Рамазанован ва А.Шихсаидован "Кьиблепатан Дагъустандикай очеркар" (Магьачкъала, 1964), "Азербайжандин тарих" (Баку, 1961, I жилд), У.Мейлановадин "Лезги чIалан диалектология" (Магьачкъала, 1964) ктабра ва маса чешмейра са кьадар делилар гьатнава. Бязи авторри Манкъулидхуьруьн тIвар ислам диндихъ галаз алакъалу ийизва. Ингье им эсиллагь дуьз фикир туш. Хуьруьз Манкъули лугьудай касдин тIвар ганвайди шаксуз я.

Хуьруьн топонимрини адан тарихдикай чирвилер гузва. "КьенчIеб тахта" лугьудай чкада дегь чIаварин Лангу шегьердин гелер ама. Ина са чIиб чил эгъуьнин кумазни, накьвадикай хъенчIин куьшуьйрин, кутаррин, бекьейрин, ципIерин кIусар хкатда. Ина ва "Шабуран хвал" лугьудай чкада археологиядин къадим амукьаяр дуьшуьш жезва.

Хуьруьн гилан тIвар арадиз атуникай ихьтин веревирдер ава. Гьеле I Петр Дербентдиз къведалди Манкъули бег шегьердин наибвиле тайинарнай. I Петр Дербентдиз атайла и касди тIимил къуватралди императордин чIехи кьушундин хура акъвазун мумкин туширди кьатIанай ва гьавиляй шегьердин гимишдикай раснавай куьлегар адав вуганай. Вич икI кьабулинай императорди Манкъули бегдиз генерал-майорвилин чин ганай ва ам Дербентдин ханвиле тайинарна, вичин патай кьилди мажибни ганай.

Дагъустанда I Петравай яргъалди таб гуз хьанач. Къубадин, Муьшкуьрдин ва Ширвандин лезгияр урусрин аксина къарагьна. Муькуь патахъай, Гьажи Давуд бег Муьшкуьрвидини урусрал вегьин патал 30 агъзурдав агакьна кьушун туькIуьрнавай. Гьа ихьтин крар себеб яз I Петр 1722-йисан 29-сентябрдиз вичин кьушунарни галаз Астрахандиз хъфена. Дербентда ада 3 агъзур аскердикай ибарат гарнизон туна. Урусар хъфейдилай гуьгъуьниз Манкъули бег чапхунчийри чукIурай хуьрер арадал хкиз алахъна. Ада гилан Манкъулидхуьре кесиб хизанриз кIвалер эцигиз куьмек гана. И къайгъударвиляй агьалийри хуьруьн виликан тIвар дегишарна, адаз Манкъули бегдин тIвар гана.

Манкъулидхуьр шумудни са тарихдин вакъиайрихъ галаз алакъалу я. 1721-йисуз хуьруьн агьалияр Иран шагьдин кьушунрин хура акъвазнай. 1741-йисан зулуз Надир шагьди I Гавдишанпеле постар туькIуьрнай ва вишералди касдиз зулумар авунай. Ада Хьилерин тамара кIватI хьанвай лезги кIеретIрин аксина женг чIугваз кIан тахьайбурун вилер акъуднай, гьилер атIанай, тарагьаждай куднай. 1774-йисуз

İmamqulukənd haqqında məlumatlara "Azərbaycan tarixi (Bakı, 1961, I cild), X.Ramazanovun və A.Şixsaidovun "Cənubi Dağıstan haqqında oçerklər" (Mahaçqala, 1964) kitablarında, U.Meylanovanın "Ləzgi dilinin dialektologiyası" kitabında və başqa mənbələrdə təsadüf olunur. Bəzi müəlliflər səhvən "İmamqulukənd" adının yaranmasını islam dini ilə əlaqələndirirlər. Ləzgicə "Manquludxür" kimi səslənən, mənası "Manqulunun kəndi" olan bu adın islam dini ilə əlaqəsi yoxdur.

Kəndin toponimləri onun tarixindən xəbər verir. "KьenчIeб тахта" ("Saxsı düzü") adlanan yerdə qədim Langu şəhəri olmuşdur. Orada bir qarış torpağı qazan kimi saxsı küplərin, bardaqların, badyaların qırıntıları üzə çıxır. Burada və "Шабуран хвал" ("Şaburun arxı") deyilən yerdə qədim arxeoloji tapıntılara təsadüf olunur.

Kəndin indiki adı ilə bağlı bir neçə fikir söylənir. Onlardan biri belədir. I Pyotr Dərbəndə gəlməzdən əvvəl Manqulu bəy şəhərin naibi təyin edilmişdi. I Pyotr Dərbəndə gələndə həmin şəxs az qüvvə ilə imperatorun qoşununun hücumuna davam gətirməyin mümkün olmadığını başa düşür və şəhərin gümüş açarlarını təntənə ilə ona uzadır. Belə qarşılanmaqdan məmnun olan imperator mükafat olaraq Manqulu bəyə general-mayor rütbəsi verir, onu Dərbəndin xanı elan edir və ona məvacib təyin edir.

I Pyotr Dağıstanda çox qalmır. Quba, Müşkür və Şirvan ləzgiləri rusların əksinə qalxırlar. Digər tərəfdən Hacı Davud Müşkürvi rusların əleyhinə mübarizə aparmaq üçün 30 min nəfərlik qoşun yaradır. Bütün bunlara görə I Pyotr 1722-ci ilin sentyabrın 29-da Həştərxana gedir. Dərbənddə o, 3 min nəfər əsgərdən ibarət qarnizon saxlayır. Ruslar gedəndən sonra Manqulu bəy onların dağıtdıqları kəndləri abadlaşdırmaqla məşğul olur. O, indiki İmamqulukənddə kasıb ailələrə ev tikməyə kömək edir. Bu xeyirxahlığın müqabilində yerli əhali kəndin əvvəlki adını dəyişib, ona Manqulu bəyin adını verir. "Манкъулидхуьр" ("Manqulunun kəndi") adı belə yaranır.

İmamqulukənd bir neçə tarixi hadisənin şahididir. 1721-ci ildə kənd sakinləri İran qoşunlarının hücumuna məruz qalır. 1741-ci ilin payızında Nadir şah I Gavdişan təpəsində yüzlərlə adama zülm edir. O, Hil meşələrində toplanmış dəstələrin əleyhinə döyüşmək istəməyənlərin gözlərini çıxarır, əllərini kəsir, onları

Гавдишандин патав Эмир Гьемзедин, Къазанишедин эмир Мегьамедан, къазикъумухви Мегьамедхандин кIеретIринни Фетели хандин кьушундин арада чIехи ягъ-ягъунар кьиле фенай. И дяведа Фетели хан магълуб хьана, Саляндиз катнай. Эмир Гьемзедин кьушунди Гавдишандиз мукьва хуьрер, гьакIни Манкъулидхуьр чукIурна, Къуба шегьер кьунай.

Манкъулидхуьр кIелунал рикI алай инсанрин макан я. Гьеле 1866-йисуз Къуба уездда гьукуматди агьалийрин тIалабуналди пуд хуьре цIийи мектебар кардик кутунай - КцIара, Яргундал ва Манкъулидхуьре. 1894-йисуз манкъулидхуьруьнвийрин тIалабуналди инин мектебда урус секторни ахъа хьанай.

Карвандин рекьин къерехда кутунвай Манкъулидхуьр вичихъ фу авай, девлетлу хуьрерикай я. Са береда Куьре магьалдин суьруьяр и рекьяй Мугьандиз тухудай. Хуьруьн Макьар къуза лугьудай чкада чIехи никIер авай. Дагъустандин Макьар хуьряй атай гвен гуьдайбуру ина кIвалахиз, эвезда къуьл къахчуз хъфидай. Инин сарыбугъдадин тариф вириниз чкIанай. Патав гвай гзаф хуьрери, гьакIни Куьредин бязи хуьрерин агьалийри чпин хъуьтIуьн раж инай гьазурдай.

Гьеле XIX асирдин эвелра и хуьруьн ичин багълар, дуьгуьдин плантацияр къецепатан уьлквейризни сейли тир. 1830-йисуз Къуба аялатдин зегьметчийри гьасил авур 196 агъзур пут дуьгуьдикай 10 агъзур пут магьсул манкъулидхуьруьнвийринди тир. Им аялатда вичиз тай авачир яру дуьгуь тир. Абурухъ чIехи никIер, агъзурралди мал-къара, чIехи суьруьяр ва рамагар авай. Инин ниси гьасилдай заводди вичин магьсулар къецепатан уьлквейризни рекье твадай.

XX виш йисан кьвед лагьай паюна БАМ-дин эцигунар гатIунай йисуз и хуьрени цIийи магьле кутунай ва хуьруьнбуру адаз "БАМ" тIвар ганай. Гила ина 50-дав агакьна кIвалер ава. 1930-йисуз вичихъ 330 кIвал авай Манкъулидхуьре исятда кIвалерин кьадар 1000-далай гзаф я.

Манкъулидхуьр тIвар-ван авай шаиррикай Кесиб Абдуллагьан ва Забит Ризванован ватан я. Икрам Наврузбегов, Абдулазиз Эфендиев хьтин алимри, Сейфедин Сейфединов хьтин художникри чпин хуьр вириниз сейли авунва.

dar ağacından asır. 1774-cü ildə Gavdişan yaxınlığında Əmir Həmzənin, qazanişeli Əmir Məhəmmədin və qazıqumuqlu Məhəmmədxanın dəstələri ilə Fətəli xanın qoşunları arasında döyüş baş verir. Bu döyüşdə məğlub olan Fətəli xan Salyana qaçır. Əmir Həmzənin qoşunu Gavdişana yaxın kəndləri, o cümlədən İmamqulukəndi dağıdıb, Quba şəhərini tutur.

İmamqulukənd qədim zamanlardan məhsuldar zəmiləri olan ruzulu, bərəkətli kənddir. Karvan yolunun üstündə yerləşdiyindən Küre mahalının qoyun sürüləri bu yolla Muğana aparılardı. "Maqar quza" sahəsində geniş taxıl zəmiləri olmuşdur.

Dağıstanın Maqar kəndindən biçinçilər taxıl yığımında onlara köməyə gələr, əvəzində buğda alıb gedərdilər. Məşhur sarıbuğda sortu da məhz burada əkilərdi. Deyilənlərə görə yaxın kəndlərin və Küre mahalının bəzi kəndlərinin əhalisi qış üçün azuqəni burada yığardı.

Hələ XIX əsrin əvvəllərində buranın alma bağları və düyü plantasiyaları məşhur idi. 1830-cu ildə Quba əyaləti zəhmətkeşlərinin hasil etdikləri 196 min pud düyüdən 10 min pud məhsul imamqulukəndlilərə məxsus idi. Bu, tayı-bərabəri olmayan qırmızı düyü idi. Kəndin böyük sürüləri və ilxıları var idi. Buradakı pendir zavodunun məhsulları xarici ölkələrə də göndərilirdi.

İmamqulukənd təhsilə meylli insanların vətəni kimi də tanınıb. Hələ 1866-cı ildə Quba qəza hökuməti əhalinin tələbi ilə üç kənddə yeni məktəblər açmağa məcbur olmuşdur. Həmin kəndlər Qusar, Həzrə və İmamqulukənd idi. 1894-cü ildə İmamqulukənd məktəbində camaatın tələbi ilə rus bölməsi açılmışdır.

XX əsrin ikinci yarısında BAM-da tikintilər başlananda bu kənddə də yeni məhəllə salınmış və ona "BAM" adı verilmişdir. Orada 50-dən artıq ev ucaldılmışdır. Kənddə 1930-cu ildə 330 təsərrüfat var idisə, indi onların sayı 1000-ə yaxındır.

İmamqulukənd Kasıb Abdullah və Zabit Rizvanov kimi şairlərin vətənidir. İkram Novruzbəyov, Əbdüləziz Əfəndiyev kimi alimlər, Seyfəddin Seyfəddinov kimi rəssamlar kəndin adını hər yerdə tanıdırlar.



АГЪА ЛАКАР

Археологриз и хъуруьн чилерал IV-VIII виш йисариз талукь са шумуд яшайишдин макандин амукьаяр жагъанва. Ибур "Рушарпел", "Агъаханпел" ва "Юсуфханпел"я.

КцIар райондин чIехи ва сур хуьрерикай тир Агъа Лакарин тарихдин гелер дерин къатара ава. Ина дуьшуьш жезвай вад къадим сурари, чиликай хкатнавай хъенчIин, цурцун, ракьун затIари ва археологиядин маса амукьайри, хуьруьнвияр рахазвай чIалан кьетIенвили, зегьметдал ва кIелунал рикI алай лакарвийрин арада къадим лезги сихилрин тIварар хуьзвай хизанар гзаф хьуни Лакар адетдин хуьрерикай туширди субутзава.

РикI тIардай кар ам я хьи, бязи ксари хуьруьн къадимвилел шак гьизва. "Лакар" гафунин этимологиядикай рахадайла абуру и тIвар урусрин "лагерь" гафуникай арадиз атанвайди я лугьузва. Гуя XIX виш йисара ина КцIарин военный полкунин лагерь хьанай ва гьавиляй чкадин агьалийри урус гафуникай лезги чIалав кьадайвал менфят къачуна, хуьруьз "Легер" лагьанай. Бес урусрал къведалди хуьруьхъ гьихьтин тIвар авай? Акатайвал кхьизвай авторривай гьа и суалдиз жаваб гуз жезвач.

Урусар Къафкъаздиз къведалди шумудни са чешмейра Лакар хуьруькай малуматар гьатнава. Мисал яз, 1796-йисуз Петербургда чап хьанвай, Россиядин Военный Архивда хуьзвай "Описание Северного Дагестана" тIвар ганвай документда Къуба округдик акатзавай вири хуьрерин сиягь ганва. И

AŞAĞI LƏGƏR

Arxeoloqlar bu kəndin ərazisində IV-VIII əsrlərə aid bir neçə yaşayış yerinin qalıqlarını tapmışlar. Bunlar "Ruşarpel", "Ağaxanpel" və "Yusufxanpel"dir.

Qusar rayonunun böyük kəndlərindən olan Aşağı Ləgər qədim tarixə malikdir. Buradakı beş qədim qəbiristanlıq, yerli əhalinin təsərrüfat işləri apararkən aşkar etdiyi saxsı qablar, mis, dəmir əşyalar və digər arxeoloji tapıntılar, kənd əhalisinin danışıq dilinin özünəməxsusluğu, ləgərlilər arasında qədim ləzgi tayfalarının adlarını daşıyan ailələrin çox olması Ləgərin adi kəndlərdən olmadığını sübut edir.

Təəssüf ki, kəndin adı və tarixi ilə bağlı yanlış fikirlər də mövcuddur. Məsələn, "Lakar" sözünün etimologiyasından danışanda bəziləri bu sözün rusların "laqer" sözündən yarandığını göstərirlər. Guya XIX əsrdə burada Qusarda yerləşən hərbi polkun düşərgəsi olmuşdur və buna görə də yerli əhali rus sözündən ləzgi dilinə uyğun şəkildə istifadə edərək, kəndə "Leger" adını vermişdir. Əvvəla, kəndin adı ləzgi dilində "Leger" deyil, "Lakar"dır. Bəs ruslar gələnə kimi kəndin adı nə idi? Həmin müəlliflər bu suallara cavab verə bilmirlər.

Ləgər kəndi haqqında bir sıra mənbələrdə məlumatlar var. Məsələn, 1796-cı ildə Peterburqda çap olunmuş, Rusiyanın hərbi arxivində saxlanan "Описание Северного Дагестана" adlı sənəddə Quba qəzasına daxil olan bütün kəndlərin siyahısı verilmişdir. Bu siyahıya indiki Qusar rayonunun 46 kəndinin, o cüm-

сиягьда гилан КцIар райондин 46 хуьруьн тIварар гьатнава. Абурук Лакарни ква.

Садбуру Лакар тIвар ругъунрихъ галаз алакъалу я лугьузва. Гуя хуьре и набататдин и кьил-а кьил таквар лакар авай ва гьавиляй и чкадиз Лакар тIвар ганай. Тарихдай аквазвайвал, XVIII асирда Къуба аялатдин са шумуд лезги хуьруьхъ, гьабурукай яз Лакарихъ ругъунар, техил, емишар цазвай чIехи чилер авай. И хуьрери гьакIни пекдин ва памбагдин гьалар гьасилзавай. Идакай 1796-йисан "Выдержки из Проекта отчета о Персидской экспедиции в виде писем" тIвар алай документда гегьеншдиз кхьенва. Гьа ихьтин делилри XVIII асирда Лакар чIехи хуьрерикай тирди мад гьилера субутзава.

Хуьр лаквийри кутурди я ва гьавиляй адаз Лакар тIвар ягъанвайди я лугьузвайбурни ава. Амма и фикир субутдай са делилни авач. И хуьре дегь чIавариллай анжах лезгияр яшамиш хьайиди я ва адан тIварни чи лег тайифадин тIварцIелай къачунвайди я.

1932-йисуз райондин са шумуд хуьре, гьакIни Агъа Лакардал сад лагьай археологиядин кIвалахар кьиле тухванай. 1953-йисуз Азербайжандин археологри Лакар хуьруьн чилерал юкьван асирриз талукь са шумуд яшайишдин маканар хьайиди ашкара авунай. 1970-йисалай инихъ Азербайжандин ИАдин археологиядин экспедициядини ина гзаф сирер ачухарна.

Тарихдин илимрин доктор Жаббар Халилован регьбервилик кваз ина тухвай археологиядин ахтармишунра кцIарви алим Абидулла Оружовани мукьувай иштиракнай. Абуруз инай IV-VIII асирриз талукь са шумуд яшайишдин макандин амукьаяр жагъанай. Ибур "Рушарпел", "Агъаханпел" ва "Юсуфханпел" лугьудай чкаяр я. КцIар-Худат шегьредин къерехда авай Рушарпел IV-VIII виш йисарин аманат я. Ина хуьр 3 чIехи пелел ва абурун патав гвай гьвечIи пелерал кутунай.

Агъа Лакарин кефер-рагьакIидай пата авай Агъаханпелени ихьтин яшайишдин чка ашкара хьанва. Инайни 2 метрдин гьяркьуьвиле къванцин цларин амукьаяр, хъенчIин куьшуьяр, бекьеяр, цурцун бадияр жагъанва. Къалажух хуьруьвай кьвед-пуд километр кьван яргъа, кефер-рагъэкъечIдай пата, КцIар-Худат шегьредин Агъа Лакарихъ хкатнавай рекьин къерехда дуьшуьш жезвай Юсуфханпелел а девирдин зурба кIелейрикай сад алай.

Археологиядин материалри хьиз, тарихдин чешмейрини Лакар хуьруьн тарих лап къадимди тирди субутзава. Страбона вичин "География" эсерда Къафкъаздин Албаниядин тайифайрикай гайи малумат-

lədən Aşağı Ləgərin də adı düşmüşdür.

Bəziləri Ləgərin adını biyanla əlaqələndirirlər. Guya kənddə bu bitkinin ucu-bucağı görünməyən lələri var idi və ona görə də bu yerə ləzgicə ləklər mənasını verən "Lakar" adı verilmişdir.

Tarixdən göründüyü kimi, XVIII əsrdə Quba əyalətinin bir neçə ləzgi kəndinin, o cümlədən Ləgərin doğrudan da biyan, taxıl və meyvə əkilən böyük əraziləri var idi. Bu kəndlərin əhalisi həmçinin ipək və pambıq hasil edirdi. Bu barədə 1796-cı ilin "Выдержки из Проекта отчета о Персидской экспедиции в виде писем" adlı sənəddə geniş yazılır. Bu cür faktlar XVIII əsrdə Ləgərin böyük kəndlərdən olduğunu sübut edir.

Kəndin laklar tərəfindən salındığını və buna görə də ona Lakar adı verildiyini deyənlər də var. Lakin bu da ağlabatan fikir deyildir, çünki kənddə heç vaxt laklar yaşamayıb.

1932-ci ildə rayonun bir neçə kəndində, o cümlədən Aşağı Ləgərdə kəşfiyyat xarakterli ilk arxeoloji qazıntılar aparılmışdır. 1953-cü ildə Azərbaycan arxeoloqları bu kəndin ərazisində orta əsrlərə aid bir neçə yaşayış yerinin olduğunu aşkar etmişlər. 1970-ci ildən bəri Azərbaycan EA-nın arxeoloqlarının ekspedisiyası bəzi tarixi sirləri aşkara çıxarmışdır. Tarix elmləri doktoru, əslən Quba rayonundan olan Cabbar Xəlilovun rəhbərliyi altında burada aparılmış arxeoloji qazıntı işlərində qusarlı alim, tarix elmləri doktoru Abidulla Orucov da yaxından iştirak etmişdir. Onlar buradan IV-VIII əsrlərə aid bir neçə yaşayış yerinin qalıqlarını tapmışlar. Bunlar "Ruşarpel", "Ağaxanpel" və "Yusufxanpel" adlı ("pel" ləzgi dilində "təpə" deməkdir) yerlərdir.

Qusar-Xudat yolunun kənarındakı Ruşarpel (Qızlar təpəsi) IV-VIII əsrlərin yadigarıdır. Burada kənd üç hündür təpədə və onların yanındakı kiçik təpələrdə salınmışdır. Onlardan ən genişinin üzərində qala olmuşdur. Aşkar olunmuş daş barı, üstü naxışlı saxsı qablar, dəyirman daşları, heyvan sümükləri burada böyük feodal malikanəsinin, yaxınlıqdakı təpədə isə qulluqçuların evlərinin və məişət tikililərinin olduğunu sübut edir.

Kəndin şimal-qərbindəki Ağaxantəpədə də belə yaşayış yeri aşkar edilmişdir. Buradan da eni 2 metr olan daş hasarın qalıqları, saxsı küplər, bardaqlar, mis badyalar tapılmışdır.

Qalacıq kəndinin 4-5 kilometr şimal-qərbində, Qusar-Xudat yolundan Aşağı Ləgərə dönən yerdə təsadüf edilən "Yusufxantəpə"də qədim şəhər olduğu haqda arxeoloqlar hələ 1958-ci ildə məlumat vermişlər. 1976-cı ildə burada arxeoloji qazıntılar aparılarkən

рив гекъигайтIа, лакарвияр Кьудял ва Самур вацIарин къерехда яшамиш жезвай лег тайифадин сихилрик акатзава. КцIар районда “Лакар” тIвар алай 3 яшайишдин макан ава: Агъа Лакар, Вини Лакар, Лакар Хъишлах. Азербайжандин Лерик ва Дагъустандин Табасаран районрани Лакар тIвар алай хуьрер ава.

Лакарвийрин лакIабрикай тир “Чупазар” гафуни и хуьруьн къадим машгъулатдикай - барамачивиликай хабар гузва. Тутун тарарин багъларалди сейли тир и хуьр карвандин рекьин къерехда авайвиляй савдагарриз инай мал тухун регьят тир. Тутуниз “чупаз” лугьузвай лакарвийривай къачур кIазун гъалар РагъэкъечIдай патан уьлквейриз тухудай. Виш гектарралди багълар кутунвай Лакардал савдагаррин нафт, кьел, пекер гвай карванар къведай ва абуру ина чпин малар емишрик дегишарна хъфидай.

Советрин девирдани КцIар районда сифте яз цIийи багълар и хуьре кутунай. Сифте яз ина майваяр тадарак ийидай пункт эцигнай. Лакарвияр хъсан багъманчияр тирди виш йисара абуру чпин багълара арадал гъайи ичерин, чуьхверрин, пIинийрин, шефтелрин цIийи сортарини субутзава. Ина гъар са касдихъ вичин багъ авай. Урусатдин базарриз тонаралди майваяр тухудай абуру. Ханбуба Сеферов хьтин викIегь ксарин тIварар лагьайтIа, девлетлуйрин сиягьда гьатнай.

Совет гьукуматди хсусиятчивал терг авуна, багълар артелринни колхозрин ихтиярда вугайла КцIара сифте яз гьукуматдин багълар Лакардал арадиз гьанай. Иесияр дегиш хьанатIани, багъляриз лакарвийри гьамиша хъсандиз къуллугъ авунай. Анжах гьайиф къведай кар ам я хьи, алатай асирдин 80-йисара чи республикада цIийи багълар кутадай вахтунда лакарвийрин къадим сортар авай виш гектарралди багълар кIаняй акъудна, палмет сортарин къелемар цанай. ЯтIани 90-йисара хуьруьхъ 500 гектардилай виниз вижевай багълар авай.

1885-йисуз хуьруьн пуд девлетлу касдин - Ханбуба Сеферован, Аюб Аюбован ва Дашдемир Халилован харжидалди ЦIалагурдай и хуьруьз цин гунгаррив яд гьанай. 9 цин регъвер кардик квай Лакардал. Хуьруьн куьгьне лишанрикай мад са мисал: ина 500 касди капIдай мискIин авай. Гила адан чкIай цлар ама.

Ина дидедиз хьайи тIвар-ван авай ксар садникьвед туш. Сейлибурун сиягьда вичин чIалар элди хуралай кIелай Ашукь Ягьяни ава. Лезги ва туьрк чIаларал зурба шиирар теснифай, ашукьрин поэ-

yarım metr dərinlikdən təpəni dövrəyə almış barının qalıqları üzə çıxmışdır. Alimlərin qeyd etdikləri kimi bu, o dövrün möhtəşəm qalalarından biri olmuşdur.

Arxeologiya materialları kimi yazılı mənbələr də Ləgər kəndinin tarixinin qədim olduğunu sübut edir. Kəndin adı, heç şübhəsiz, leg tayfasının adından götürülmüşdür. Strabon özünün “Coğrafiya“ əsərində Albaniyanın tayfaları haqqında verdiyi məlumatlarda leglərin Qudyal və Samur çaylarının sahillərində yaşadığını qeyd etmişdir.

Qusar rayonunda Ləgər adlı üç yaşayış məntəqəsi vardır: Aşağı Ləgər, Yuxarı Ləgər, Ləgərqışlaq. Azərbaycanın Lerik və Dağıstanın Tabasaran rayonlarında da Ləgər adlı kəndlər vardır.

Ləgərlilərin ləqəbi olan “çupazar“ sözü (çupaz - tut deməkdir) bu kəndin əhalisinin qədim məşğuliyyətindən - baramaçılıqdan xəbər verir. Tut bağları ilə məşhur olan bu kənd karvan yolunun kənarında olduğundan tacirlər üçün buradan mal aparmaq asan idi. Onlar ləgərlilərdən aldıqları ipək sapları şərq ölkələrinə aparırdılar.

Kəndin meyvə bağları da qədim zamanlardan məşhur idi. Yüz hektarlarla bağları olan Ləgərə gələn tacirlər buraya neft, duz, pal-paltar gətirər, onları meyvəyə dəyişərdilər. Sovet dövründə də Qusar rayonunda ilk planlı bağlar burada salınmış, ilk meyvə tədarükü məntəqəsi də bu kənddə tikilmişdir. Ləgərlilərin yaxşı bağban olduqlarını onların yüz illərdən bəri burada yetişdirdikləri alma, armud, gilas, şaftalı sortları sübut edir. Rusiya bazarlarında tonlarla meyvə satan kənd əhalisinin əsas ruzisi bağlardan çıxırdı. Məşhur maarifçi, özünün xeyrxah əməlləri ilə ad-san qazanmış Xanbaba Səfərov məhz meyvə bağları hesabına dövlətli olmuşdu.

Hər yerdə olduğu kimi, Qusarda da Sovet hökuməti şəxsi mülkiyyəti ləğv edib təsərrüfatları, o cümlədən bağları artellərin və kolxozların ixtiyarına verəndə ilk dövlət bağları rayonda məhz Ləgərdə meydana gəldi. On illər boyu ləgərlilər bağçılıq ənənələrini yaşatmağa nail oldular. Təəssüf ki, XX əsrin 80-ci illərində respublikamızda intensiv bağlar salınmağa başlananda ləgərlilərin yüz hektarlarla ata-baba bağları məhv edildi, onların yerində palmet sortları əkildi. Buna baxmayaraq, 90-cı illərdə kənddə 500 hektardan çox məhsuldar bağlar var idi.

1885-ci ildə kəndin üç dövlətli adamının - Xanbaba Səfərovun, Əyyub Əyyubovun və Daşdəmir Xəlilovun vəsaiti ilə Çiləgir kəndindən buraya su gətirilmişdi. O vaxt Ləgərdə 9 su dəyirmanı işə salınmışdı. 500 müsəlmanın eyni vaxtda ibadət etdiyi böyük məscid

зиядиз цIийи нефес гьайи, вичелай вилик уьмуьр гьалай лезги ашукьрин чIалар кIватIна халкьдив агакьарай Ашукь Ягьядиз "Диван" авай. Ингье ам рагьметдиз фейила и "Диван" квахьна.

Лакар кIелунал рикI алай ксарин ватан я. 1900-йисуз ина урус-татар мектеб кардик кутунай. Мектеб ахъаюн патал хуьруьн юзбаши Ханбуба Сеферова Къуба уезддин кьиле авайбурун разивал къачуна вичин харжидалди дарамат эцигнай. Мектебдин сад лагьай муаллим Гьажи Жами эфенди хьанай.

Лакаррин мектебда са шумуд ктабдин автор тир тIвар-ван авай маарифчи Мегьамед Саид эфендидини тарсар ганай. Ина аялриз чирвилер гайи ксарин сиягьдик Азербайжандин тIвар-ван авай са шумуд къелемэгьлини акатзава. Абурукай сад "Къантемир" лакIабдалди эсерар кхьей Къафур эфенди тир. Гуьгъуьнлай ина шаир Агьмед Жавада кIвалахнай. Адахъ галаз са вахтунда муаллимвал авур Шихзада Сеферов и хуьряй сифте яз Ленинан орденциз лайихлу хьанай. Лезги халкьдин зурба шаир ва маарифчи Нуреддин Шерифовани са кьадар вахтунда и мектебда муаллимвал авунай.

Хуьруьн мектеб акьалтIайбурун арада адан тIвар кьакьан кукIушриз хкажай ксар гзаф ава. Абурукай сад лезгийрин машгьур кхьираг ва камалэгьли Забит Ризванов я. Адан эсеррин къагьриманрин прототиприн арада лакарвиярни ава. Дагъустандин халкьдин артист, лезгийрин сейли композитор Омар Аюбовани сенятдин цавариз и мектебдай лув гайиди я.

Саид Эмирован хизандай акъатай алимри - 3 илимрин докторди ва кьве илимдин кандидатди илимдик лайихлу пай кутуна. Информатикадин илимдин рекьяй вири дуьньядиз сейли тир физикадинни-математикадин илимрин доктор, профессор Камил Айдазаде Лакар хуьряй я. КцIар райондин тарихда тек са касдиз Гьукуматдин премия къачун несиб хьана. Ам Агъа Лакар хуьряй тир Зерифе Кьасумова я.

Вичин уьмуьрдин 50 йис чарарал лезги сумагрин чешнеяр яратмишуниз серф авур художник Къейбуллагь Мамедовани и мектебда кIелнай. Вичин виридалайни зурба эсер тир "Агъа Лакар" сеняткардин хайи хуьрелди дамахунин лишан я.

Са шумуд йис идалай вилик хуьруьн юкьван мектебдиз адан бине кутур Ханбуба Сеферован тIвар гана.

də o dövrün ab-havasını göstərən nişanə idi.

Ləgər öz adlı-sanlı adamları ilə tanınır. Şeirlərini çoxlarının əzbərdən dediyi Aşıq Yəhya ləzgi və türk dillərində yazıb-yaratmışdır. Aşıq poeziyasına yeni nəfəs gətirmiş, qədim ləzgi aşıqlarının yaratdıqları bəzi şeir nümunələrini toplayıb elə çatdırmış, uzun illərdən bəri məclislər yaraşığı olmuş Aşıq Yəhyanın "Divan"ı məşhur olmuşdur. Təəssüf ki, 1918-ci ildə şair vəfat etdikdən sonra onun "Divan"ı itmişdir.

Ləgərlilər oxumağa meylli insanlar kimi tanınırlar. 1900-cü ildə burada rus-tatar məktəbi istifadəyə verilmişdir. Kəndin yüzbaşısı Xanbaba Səfərov bundan ötrü Quba qəzasının rəhbərlərindən yazılı icazə istəmiş və öz vəsaiti ilə bina tikdirmişdir. Məktəbin ilk müəllimi əcəxürlü Hacı Cami əfəndi olmuşdur. Dağıstanda və Quba qəzasında din xadimi və alim kimi məşhur olan Cami əfəndinin yazdığı kitablardan o dövrdə məscid və mədrəsələrdə geniş istifadə olunmuşdur.

Həmin məktəbdə əslən Əvəcuq kəndindən olan adlı-sanlı maarifçi, bir neçə kitabın müəllifi Məhəmməd Səid əfəndi də dərs demişdir. Burada həmçinin İstanbul Universitetinin tarix fakültəsinin məzunu, "Qantəmir" təxəllüsü ilə əsərlər yazmış Qafur Əfəndi də işləmişdir. Sonralar məktəbdə məşhur şair Əhməd Cavad dərs demişdir. Onunla bir vaxtda müəllimlik etmiş ləgərli Şixzada Səfərov isə ilk dəfə olaraq Lenin ordeninə layiq görülmüşdür. Məşhur ləzgi şairi və maarifçisi Nurəddin Şərifov da bu məktəbdə dərs demişdir.

Ləgər məktəbinin məzunu olmuş yazıçı Zabit Rizvanovun əsərlərinin qəhrəmanlarının prototipləri arasında ləgərlilər çoxdur. Dağıstanın xalq artisti, ləzgilərin məşhur bəstəkarı Ömər Əyyubov da bu məktəbin yetirməsidir. Müəllim Səid Əmirovun övladları kəndin adını hər yerdə tanıtmışdır. Onlardan 3-ü elmlər doktoru, 2-si isə elmlər namizədidir. İnformatika elmi sahəsində bütün dünyada tanınan fizika-riyaziyyat elmləri doktoru Kamil Aydazadə də bu kəndin yetirməsidir.

Qusar rayonunun tarixində bircə nəfər Azərbaycanın Dövlət mükafatına layiq görülmüşdür. Bu, ləgərli Zərifə Qasımovadır. Gəncə toxuculuq kombinatının toxucusu olan həmin qadın bu ada 1987-ci ildə layiq görülmüşdür. Ömrünün 50 ilini sumaq naxışlarını yaratmağa həsr etmiş rəssam Qeybulla Məmmədov100-dən artıq əsər yaratmışdır.

Bir neçə il bundan əvvəl Ləgər kənd orta məktəbinə onun yaradıcısı Xanbaba Səfərovun adının verilməsi burada böyük sevincə səbəb olmuşdur.



ЦIУРУ ХУДАТ

И хуьруькай арабрин тарихчи Й.Гьамавиди, Азербайжандин тарихчи А.Бакиханова, лезги тарихчи Гь.Алкьвадариди, урус авторрикай С.Соловьева, И.Петрушевскийди, В.Бартольда, И.Березина марагълу малуматар ганва.

Лезгийрин сур хуьрерикай тир ЦIуру Худатиз ЦIурухтани лугьуда. И тIварцIе сад лагьай гаф авайвал амукьна, кьвед лагьай гафунай "уд" пай квахьнава, амай паюна авай эхиримжи ачух туширди вичин чка дегишарна, ачух сесинин вилик атанва: ЦIуру Худат - ЦIурухта. Азербайжан чIалал и ойконимдин сад лагьай пай таржума авуна хуьруьн тIвар "Куьгьне Худат" хьиз кхьизва.

XX виш йисарал къведалди вири чешмейра хуьруьн тIвар текдиз къалурнава: Худат. Амма адакай кхьенвай бязи ксари кьериз-цIаруз "кIеле" ва "хуьр" гафарикайни менфят къачунва: "Худат кIеле", "Худат хуьр". Гьам и делилди, гьамни чахъ мад кьве Худат - Къуба райондин КIеле Худат (азербайжан чIалалди "Къалай Худат" хьиз кхьенва) ва Хачмаз райондин Худат шегьер хьуни субутзава хьи, и тIвар дуьшуьшдай арадиз атанвайди туш, са береда адахъ вичин кутугай мана авай.

И хуьруькай арабрин тарихчи Й.Гьамавиди, Азербайжандин тарихчи А.Бакиханова, лезги тарихчи Гь.Алкьвадариди, урус авторрикай С.Соловьева, И.Петрушевскийди, В.Бартольда, И.Березина ва масабуру бязи малуматар ганва. Амма абурукай садани "Худат" гафунин этимологиядикай кхьенвач.

KÖHNƏ XUDAT

Bu kənd barəsində ərəb tarixçisi Y.Həməvi, Azərbaycan tarixçisi A.Bakıxanov, ləzgi tarixçisi H.Alqadari, rus müəllifləri S.Solovyov, İ.Petruşevski, V.Bartold, İ.Berezin maraqlı məlumatlar veriblər.

Qusar rayonunun qədim kəndlərindən olan Köhnə Xudata ləzgi dilində Suruxta da deyirlər. XX əsrə qədər bütün mənbələrdə kəndin adı Xudat kimi göstərilib. Amma bəzi müəlliflər "qala" və "kənd" sözlərindən də istifadə ediblər: Xudat qala, Xudat kəndi. Həm bu fakt, həm də Xudat adlı daha iki yaşayış məntəqəsinin mövcud olması (Quba rayonunun Qalay Xudat kəndi və Xaçmaz rayonunun Xudat şəhəri) sübut edir ki, həmin yerlərə bu adın verilməsi təsadüfi deyil və bu söz vaxtilə müəyyən məna kəsb edib.

Bu kənd barəsində ərəb tarixçisi Y.Həməvi, Azərbaycan tarixçisi A.Bakıxanov, ləzgi tarixçisi H.Alqadari, rus müəllifləri S.Solovyov, İ.Petruşevski, V.Bartold, İ.Berezin və başqaları maraqlı məlumatlar veriblər. Lakin onların heç biri "Xudat" sözünün etimologiyasını açıqlamayıb.

Bununla bağlı bir çox müasir müəlliflərin fikirləri isə faktlara əsaslanmadığına görə qəbul edilə bilməz. Məsələn, bəziləri "Xudat" sözünün eyniadlı tayfanın adından götürüldüyünü qeyd edir və onu II əsrdə Klavdi Ptolemeyin çəkdiyi xəritədə göstərilən Xadaxa ilə eyniləşdirirlər. Lakin belə bir tayfanın həqiqətən mövcud olduğu sübut edilməyib. Ptolemeyin xəritəsindəki Xadaxanın da həmin Xudat olduğu dəqiq

Идахъ галаз авсиятда алай девирдин бязи авторрин фикирар лагьайтIа, делилар авачирвиляй кьабулиз жедайбур туш. Месела, садбуру Худат ойконим тайифадин кьил тир касдин тIварцIихъ галаз алакъалу я лугьузва ва и тIвар чи эрадин II виш йисара Клавдий Птолемея вичин картада къалурнавай Хадаха шегьердин тIварцIив гекъигзава. Амма абур ихьтин тайифа ва я тайифадин кьил хьайиди субутдай тарихдин чешмеяр къалур тавуна, гиманрал бинеламиш жезва. Са гафни авачиз, чахъ Птолемея къалурнавай шегьер хьанва, им адан картадайни кьатIуниз жезва. Бес ам гьи Худат я? Авторди вичин чIалав кьадайвал кхьенвай "Хадахадин" лезги тIвар гьикI тир?

Гилан Худат шегьердихъ сур тарихар авачирди сир туш. Азербайжандин археологрикай Ж.Халилова, Къ.Къошкъарлыди ва Р.Аразовади чпин 1991-йисуз Бакуда чапдай акъудай "Кефер-РагьэкъечIдай патан Азербайжандин археологиядин амукьаяр" ктабда кхьенвайвал, ЦIуру Худатин чилерал вичин бине IX виш йисара кутунвай мескен алай.

Къуба райондик акатзавай лезгийрин КIеле Худат хуьруьн кьуд пад кьакьан рагар я. Кьудял вацIун къерехда кутунвай и хуьруьз анжах са сал жигьир физвай. Советрин девирда а жигьирдикай Хиналугьиз тухудай накьвадин рехъ авуна. Рекьин кьве патани къадим эцигунрин амукьаяр ава. Рагара, яни дагъдин хур квай кьвалара жуьреба-жуьре дагьарар ава. ЧIехи дагьаррикай садан вилик пад къванцин парудив кьунва.

И хуьруьн кIеледин амукьаяр IV виш йисариз талукьбур я. Тарихар мукьвал ятIани, Хадаха шегьер ина хьайиди лугьуз жедач. Вучиз лагьайтIа гьам вич алай чкади, гьамни археологиядин амукьайри шегьердин ваъ, дагълара хьайи кIеледин гелерикай хабар гузва.

ЦIуру Худат алай чкадални шегьер хьайиди субутдай тарихдин чешмеяр авач. ЯтIани адакай бязи веревирдер ийиз жеда. Хуьр яшайиш патал къулай чкадал - ЧIехи ипекдин рекьин къерехда кутунва.

Инай хкатнавай сур чIаварин дишегьлидин гуьмбетди, майишатдин къапари, са шумудра чкIанвай хуьр гьа са чкадал эхцигуни адан къадим тарихрикай хабар гузва.

Хуьруьн Къуба ханлухдихъ галаз гегьенш алакъаяр авай. А.Шихсаидова, Т.Айтберова ва Г.Орозаева 1993-йисуз Москвада чапдай акъудай "Дагестанские исторические сочинения" ктабда къалурнавайвал, Къубадин ханар лезгийрин X-XVI виш йисара машгьур хьайи Мацар (арабри "Маза" хьиз deyil. Bəs onda Ptolemeyin öz dilinə uyğunlaşdırıb yazdığı Xadaxa şəhərinin ləzgicə adı nədir?

Əvvəlcə Xudatlar haqqında. İndiki Xudat şəhərinin tarixinin qədim olmadığı aydındır. Azərbaycan arxeoloqlarından C.Xəlilov, Q.Qoşqarlı və R.Arazova özlərinin 1991-ci ildə Bakıda çap etdirdikləri "Şimal-Şərqi Azərbaycanın arxeoloji tapıntıları" kitabında qeyd etdikləri kimi, Köhnə Xudat kəndinin ərazisində IX əsrdə salınmış məskən olub.

Quba rayonundakı Qalay Xudat kəndinin ətrafı sal qayalardır. Qudyal çayının sahilində salınmış bu kəndə yalnız bir dar cığır uzanırdı. Sovet dövründə həmin cığırdan Xınalıq kəndinə yol çəkildi. Yolun hər iki tərəfində qədim tikililərin qalıqlarına təsadüf edilir. Qayalarda, dağ yamaclarında müxtəlif mağaralar vardır. Böyük mağaralardan birinin qarşısında daş barı ucaldılıb. Bu kəndin ərazisindəki qalanın qalıqlarının IV əsrə aid olduğu güman edilir. Tarixlər yaxın olsa da, Xadaxa şəhərinin burada mövcud olduğunu demək olmaz. Çünki həm yerləşdiyi ərazi, həm də arxeoloji tapıntılar şəhər haqqında deyil, dağlarda olmuş qala haqqında məlumat verir.

Köhnə Xudat ərazisində şəhər olduğunu sübut edən tarixi mənbələr haqqında məlumat yoxdur. Buna baxmayaraq, kənd haqqında bəzi mülahizələr irəli sürmək olar. Kənd yaşayış üçün əlverişli yerdə - Böyük ipək yolunun kənarında salınıb.

Kəndin ərazisindən tapılmış qədim dövrlərə məxsus qadın heykəli, məişət qabları və başqa əşyalar, kəndin bir neçə dəfə eyni yerdə salınması buranın zəngin tarixi keçmişindən xəbər verir.

Kəndin Quba xanlığı ilə sıx əlaqələrinin olması faktdır. Tarixi mənbələr, o cümlədən məşhur alimlər A.Şixsaidov, T.Aytberov və Q.Orozayevin 1993-cü ildə Moskvada nəşr etdirdikləri "Dağıstanın tarixi əsərləri" kitabında göstərildiyi kimi, Quba xanları ləzgilərin X-XVI əsrlərdə məşhur olmuş Matsar (ərəblər "Maza" kimi yazıblar) əmirləri nəslindən olublar. XV əsrdən Maza əmirləri Qaytağı öz əllərinə keçirirlər və həmin vaxtdan bu vilayətin usmiləri ləzgilər olurlar.

A.Bakıxanovun "Gülüstani İrəm" əsərində və H.Alqadarinin "Asari Dağıstan" əsərində qeyd edildiyi kimi, 1642-ci ildən usmilərin nəsli iki yerə ayrılır. Böyük qardaş Macalisdə, kiçik qardaş isə Yangikənddə yaşayır. Kiçik qardaş böyük qardaşın üzərinə hücum edərək, onun dəstələrini darmadağın edir. Aydabəy adlı bir nəfər böyük qardaşın oğlu Hüseyni oğurlayıb gizlədir.

кхьенва) эмиратдин эмиррин сихилдикай я. XV асирда Мацарин эмирри Къайтагъ чпин гьилик кутуна ва гьа вахтундилай и вилаятдин уцмияр лезгияр хьана.

А.Бакиханова “Гуьлуьстани Ирем” эсерда ва Гь. Алкьвадариди “Асари Дагъустан” ктабда кхьенвайвал, 1642-йисалай уцмийрин сихил кьве чкадал пай хьана. ЧIехи стха Маджалисда, гъвечIи стха Янгикентда яшамиш жезвай. Эхирни гъвечIи стхади Маджалисдал вегьена, чIехи стхадин кIеретIар кукIварна. Айдабег лугьудай са касди чIехи стхадин хизандай тир гъвечIи Гьуьсейн арадай акъудна чуьнуьхарна. Бязи чешмейра ам ТIигьиржал хуьруьз, маса чешмейра Таркидин шамхалдин патав тухвайди къалурзава.

Гуьгъуьнлай Салянда яшамиш хьайи Гьуьсейна агакьнавай гада яз Ахунд Малла Мегьамедан руш къачуна. Инай Исфагьандиз фейи Гьуьсейна кьвед лагьай паб къачуна. Ам Къажаррин несилдай тир. Гьавиляй Ирандин шагьди Гьуьсейн Саляндинни Къубадин мулкарикай арадиз гьанвай ханлухдин ханвиле тайинарна. Вичин хизанни галаз Къуба аялатдиз хтай Гьуьсейн ханди Худат хуьре кIеле эцигна, инаг ханлухдин меркездиз элкъуьрна. Сад лагьай ханди Ирандин адетрив кьадайвал ина багъ-лар кутуна. Ихьтин багълар КIеле Худата кутун мумкин тушир. Гьавиляй ханлухдин меркез ЦIуру Худат хьайиди шаксуз я.

Са вахтунда Ширван хьиз, Къуба ханлухни Гьажи Давуд Муьшкуьрвидин гьилик хьанай. Адаз къаст авурдалай гуьгъуьниз Султан Агьмедан хва Гьуьсейн Али Къубадин хан хьана. И.Петрушевскийди, Гь.Алкьвадариди ва маса тарихчийри кхьизвайвал, 1735-йисуз Гьуьсейн Али ханди меркез Худатай Къубадиз куьчарна. А.Бакиханова вучиз ятIани и вакъиа 1748-йисуз кьиле фейиди къалурнава. Бязи тарихчийри ЦIуру Худат кIеле 1711-йисуз, муькуьбуру 1721-йисуз гайи басрухрикай чкIайди къалурнава.

Чкадин тIварцIел гьалтайла машгьур лезги алим Ражидин Гьайдарова и тIвар КьепIиррин хуьруьн дередал алай Хурдат тIварцIив гекъигзава. Ада фагьумзавайвал, “и тIварарихъ сад хьтин мана хьунухь мумкин я. Са делилди и гиман са кьадар гужлу ийизва. КьепIиррин нугъат, рахунар, гзаф гафар патав гвай хуьрерин рахунрилай тафаватлу я. Ам Къуба патан лезгийрин нугъатдиз мукьва я. И кьетIенвили чун ихьтин фикирдал гьизва: Чапхунчийри къадим Худат шегьер чукIурайла, сагъ амай агъалийри гьам куьгьне шегьер хьайи чкадал, гьамни Къубадин ва Кьурагьрин чилерал цIийи хуьрерин бине

Bəzi mənbələr onun Tahircala, başqa mənbələr isə Tarki şamxalının yanına aparıldığını göstərir. Sonralar bir müddət Salyanda yaşamış Hüseyn Axund Molla Məhəmmədin qızı ilə evlənir. Buradan İsfahana gedən Hüseyn ikinci dəfə qacar nəslindən olan qızla evlənir. Buna görə İran şahı onu Salyan və Qubanın mülkləri əsasında yaradılmış xanlığın sahibi təyin edir. Ailəsi ilə Quba əyalətinə qayıdan Hüseyn xan Xudat kəndində qala tikdirir və buranı xanlığın mərkəzinə çevirir. O, burada İran üslubunda bağlar saldırır. Qalay Xudatda belə bağlar salmaq mümkün deyildi. Ona görə də xanlığın mərkəzinin məhz Köhnə Xudat olması şəksizdir.

Bir vaxtlar Şirvan kimi Quba xanlığı da Hacı Davudun tabeliyinə keçir. Ona sui-qəsd edildikdən sonra Sultan Əhmədin oğlu Hüseyn Quba xanı təyin olunur. İ.Petruşevskinin, H.Alqadarinin və başqa tarixçilərin yazdıqlarına görə, 1735-ci ildə Hüseyn Əli xan mərkəzi Xudatdan Qubaya köçürür. A.Bakıxanov nədənsə həmin tarixi 1748-ci il kimi göstərir. Bəzi tarixçilər Köhnə Xudat qalasının 1711-ci ildə, digərləri isə 1721-ci ildə hücumlardan dağıldığını qeyd edirlər.

Yerin adına gəldikdə, filologiya elmləri doktoru Raciddin Heydərov onu Cənubi Dağıstanın Qepir kəndinin dərəsindəki Xurdat ilə müqayisə edir. O, hər iki adın eyni məna daşıdığını istisna etmir. Qepirin əhalisinin danışıq dili ətraf kəndlərdən seçilir. Bu kənd ləzgi dilinin Quba ləhcəsində danışır, bu isə belə bir fikrə gətirib çıxarır ki, işğalçılar qədim Xudatı dağıdanda onun əhalisi köhnə şəhərin yerində, Quba əyaləti ərazisində və Qepirdə yenidən məskən salır.

Daha bir dəlil. Küre vilayətində qədim Qudqat kəndi olub. Ləzgilərin rəqəmlərdən və relyefi əks etdirən sözlərdən yaranmış çoxlu toponimləri vardır. Məsələn, КьакьанкъатвацI (кьакьан+къат+вацI), Кьуьчхуьр (кьуд+хуьр), ЦIухуьр (цIуд+хуьр), Вадан (vad “beş” deməkdir, beş kənddən yaranmış), Кьудял (кьуд+ял).



кутуна жеди“.

Мад са делил: Куьредин чилерал къадим Кьудкъат хуьр хьанай. Чахъ рекъемрикайни рельефдин гьалар къалурзавай гафарикай туькIуьр хьанвай шумудни са топонимар ава. Месела: Кьакьанкъатвацl (кьакьан+къат+вацI), Кьуьчхуьр (кьуд+хуьр), ЦIухур (цIуд+хуьр), Вадан (вад хуьруькай туькIуьрнавай хуьр), Кьакьар (кьакьанар), Кьудял (кьуд+ял) ва мсб.

И фикир асасдиз къачуртIа, “Худат” тIвар “кьуд” ва “къат” гафарикайни арадиз атун мумкин я лугьуз жеда. Виш йисара фонетикадин дегишвилер кьиле фена Кьудкъат-Кьудат-Худат хьун тIебии кар я. И веревирд КIеле Худат хуьруьн агьалийрин гафарини тестикьарзава. Абуру чпин хуьр кьуд патахъай кьакьан рагари хуьзвай, кьуд къат кIеви кIеле я лугьуда.

ЦIуру Худат хуьруь са вахтунда меркездин роль къугьвайди Урусатдин Къецепатан Сиясатдин Архивдин материалрайни малум жезва. И материалрай акквазвайвал, XIX асирдин 40-йисара ЦIуру Худатай Къазикъумухдиз 140 километрдин рехъ акъуднай. Урусатдай Ширвандиз физвай савдагарри ина ял ядай, чпин ватандиз хъфидайла и хуьруьн майваяр, халичаяр ва сумагар тухудай. А вахтунда хуьре багъманчивал гзаф вилик фенвай.

Чкадин агьалийрин къецепатан уьлквейрихъ галаз алакъайрикай хабар гузвай делилар мадни ава. Месела, XIX асирда басма хьайи “Астрахандин тарих” ктабда Къафкъаздай иниз атай алимрин арада ЦIуру Худатай тир Мевланан Магьмудакайни кхьенва. Магьмуд зурба математик тир ва адахъ са шумуд илимдин эсер авай.

Юкьван виш йисарин араб тарихчи Абу Йусуф Йакъут ал-Гьамавиди вичикай кхьей Муса бин Гьасан Лезгини Худатай тир. Адахъ араб чIалалди кхьенвай са шумуд ктаб авай. Мегьмет Тагьир-эл Бурсевидин 1914-йисуз Истанбулда басма хьайи “Османли муьэллифлери” ктабдани ЦIуру Худатай тир са алимдин тIвар гьатнава. Ам Уьмер Хулуси я. Дагъустанда араб чIалалди чирвилер къачур Уьмер Хулуси 1887-йисуз Туьркиядиз атанай. Ина кIелун давамарай, вичихъ чIехи алакьунар авай и кас чIехи са округдин судьявиле тайинарнай. Гуьгъуьнлай Уьмер Хулуси Иззет пашадин кабинетда Шейхуьислам хьанай.



Bu fikri əsas götürsək, “Xudat” sözü kьud (dörd) və kъat (qat) sözlərindən yarana bilər. Yüz illər boyu fonetik dəyişikliyə uğrayaraq “Kьudkъat” sözü "Kьudat-Xudat” formasını almışdır. Bu ehtimal Qala Xudat kənd əhalisinin fikri ilə üst-üstə düşür. Qalaxudatlılar onların kəndinin dörd tərəfdən qayalarla əhatə olunmuş qala olduğunu qeyd edirlər.

Köhnə Xudatın bir vaxtlar mərkəz rolunu oynadığını Rusiya Xarici Siyasət Arxivinin materialları da təsdiq edir. Həmin materiallardan göründüyü kimi, XIX əsrin 40-cı illərində Köhnə Xudatdan Qazıqumuğa 140 kilometrlik yol çəkilmişdi. Rusiyadan Şirvana gedən tacirlər burada dincələr, vətənlərinə yola düşəndə buradan meyvə, xalça və sumaq apararardılar. O vaxtlar burada bağçılıq inkişaf etmişdi.

Yerli əhalinin xarici ölkələrlə əlaqələrindən XIX əsrdə rusca işıq üzü görmüş “Həştərxanın tarixi” kitabında da məlumat verilir. Həmin kitabda Qafqazdan buraya gəlmiş alimlər arasında Köhnə Xudatdan olan Mahmud Mevlanan adlı bir nəfərdən də söhbət açılır. Mahmud məşhur riyaziyyatçı və bir neçə əsərin müəllifi idi. Orta əsrlər ərəb tarixçisi Abu Yusuf Yaqut əl-Həməvinin haqqında söhbət açdığı Musa bin Həsən Ləzgi də xudatlı idi. O, ərəbcə bir neçə kitab yazmışdı.

Mehmət Tahir-əl Bursəvinin 1914-cü ildə İstanbulda çap etdirdiyi “Osmanlı müəllifləri” kitabında əslən Köhnə Xudatdan olan bir alimin adı göstərilir. Bu, Ömər Xulusidir. Dağıstanda ərəbcə təhsil almış Ömər 1887-ci ildə Türkiyəyə gedib orada təhsilini davam etdirmişdir. Çox savadlı və bacarıqlı insan olduğuna görə onu bir vilayətin hakimi təyin edirlər. Sonralar o, İzzət paşanın kabinetində Şeyxülislam olur.



ЭЧIЕХУЬР

VIII виш йисан тарихчи Моисей КьакьанкъатвацIвиди (Каланкатуйски) вичин "Алупандин тарих" ктабда ЭчIехуьруьн тIвар кьунва. И хуьрьукай малуматар X асирдин "Абумуьслуьман тарих" ктабдани гьатнава.

Азербайжанви тарихчи Тофикъ Агьмедова вичин "Азербайжандин топонимикадин асасар" ктабда "ЭчIехуьр" ойконим "гьажи" гафунихъ галаз алакъалу тирди къалурзава. Ада лугьузвайвал, хуьруьн сифте тIвар Гьажихуьр тир кьван. Анжах ада арабри чи чилериз басрух гудалди и хуьр авайди ва адан тIвар тарихдин чешмейра масакIа гьатнавайди рикIелай ракъурзава.

Чи тIвар-ван авай шаир Лезги Нямета и тIвар лезгийрин "эчIе гваз фин" адетдихъ, яни мехъерин юкъуз мехъерин паяр гваз азарлу ва ялгъуз ксарин кьилив финин адетдихъ галаз алакъалу тирди кхьенай. Хуьруьн кьуьзуьбурун фикирдалди, "эчIе" гафунихъ "кьакьан" лугьудай манани ава. ЭчIехуьр кьакьандал алай хуьр лагьай чIал я. Чи чIала "гьилер эчIез ягъун" хьтин ибарани ава. Кхьираг-алим Фейруз Беделахтула ЭчIехуьр "эчIен" гафуникай арадиз атанвайди я, кIанер эчIенвай кьвалан винел алай хуьр лагьай чIал я лугьузва. ТIигьира ихьтин ЭчIеган, ЭчIенпел тIварар алай пелер ава. "ЭчI" гафуни гьакIни "юкьван" мана гузва. Муьзеффер Меликмамедова кхьизвайвал, ЭчIехуьруьн сифте тIвар "КьетIенхуьр" тир. Им а чилерал алай вири-

ƏCƏXÜR

VIII əsrin tarixçisi Moisey Qaqanqatvasi (Kalankatuylu) "Alban tarixi" kitabında Əcəxürün adını çəkir. Bu kənd haqqında X əsrin dəyərli tarixi mənbələrindən olan "Abumüslümün tarixi"ndə də maraqlı məlumatlar verilir.

Azərbaycan tarixçisi Tofiq Əhmədov özünün "Azərbaycan toponimikasının əsasları" kitabında "Əcəxür" oykonimi haqqında danışaraq, bu adın "hacı" sözü ilə əlaqəli olduğunu bildirir. Onun dediyinə görə, guya kəndin ilkin adı Hacıxür olmuşdur. Lakin əslində bu kənd ərəblərin torpaqlarımıza hücumundan əvvəl mövcud idi və onun adı tarixi mənbələrə bir neçə cür düşmüşdür.

Adlı-sanlı ləzgi şairi Ləzgi Nemət bu adın ləzgilərin "eçe qvaz fin" adəti, yəni toy günü toy sovqatı ilə xəstə və kimsəsiz adamların yanına getmək adəti ilə bağlı olduğunu qeyd etmişdir. Kənd qocalarının sözlərinə görə, "eçe" sözünün uca, hündür kimi mənası da vardır. Ləzgi dilində "əlləri eçə qoymaq" ("əlləri belə qoymaq") kimi ifadə də vardır.

Yazıçı-alim Feyruz Bedelaxtul Əcəxür adının "eçen" sözündən əmələ gəldiyini deyir. Bu, altı ovulmuş qayanın üstündəki kənd mənasını verir. Onun sözlərinə görə, "eç" sözü "orta" mənasını da verir. Düztahirdə Eçeqan, Eçenpel adlı təpələr vardır. Müzəffər Məlikməmmədovun yazdığına görə isə, kəndin ilkin adı Ketenxür olmuşdur. Bu

далайни чIехи ва кьилин хуьр манадив кьазвай гаф я. Тарихдин чешмейрив гекъигайла а хуьр гилан ЭчIехуьр алай чкадал алайди ашкара жезва.

XIX асирда ина кIеле ва сенгерар туькIуьрна, Самур дередин хуьрер гуьзчивилик хвейи урусрин генералри ЭчIехуьруьз "ГъвечIи Тифлис" лагьанай. А.Ф.Десимона вичин "Исторические сведения о бывших вольных общинах Кубинской провинции, составляющих ныне Самурский округ" макъалада эчIехуьруьнвийри урус пачагьдин кьушунрин аксина чIугур женгерикай кхьенва ва эчIехуьруьнвияр мерд, душманриз муьтIуьгъ тежедай, эхирдал кьван женг чIугвадай ксар тирди къалурнава.

VII-VIII виш йисарин чешмейра хуьруьн тIвар "ЭчIенхуьр", "ЭчIехуьр" хьиз гьатнава. Вичин патарив маса хуьрерни пайда хьайи адаз гуьгъуьнлай "ЭчIен хуьр", яни "юкьван хуьр" лагьанай. VIII виш йисан тарихчи Моисей КьакьанкъатвацIвиди (Каланкатуйски) вичин "Алупандин тарих" ктабда ЭчIехуьруьн тIвар кьунва. Амма и эсер урус ва азербайжан чIалариз элкъуьрдайла хуьруьн тIвар "Адехер" хьиз кхьенва. И хуьруькай са кьадар малуматар араб чIалалди къелемдиз къачунвай "Абумуьслуьман тарих" ктабда гьатнава. И чешмеда X виш йисан лезги хуьрерин, гьабурукай яз ЭчIехуьруьн ва Уьнуьгърин тIварар кьунва. "Абумуьслуьман сихилдикай тир Халида ЭчIехуьре, Рамалдана лагьайтIа Уьнуьгьа бине кутунай" *(Рамазанов Х.Х., Шихсаидов А.Р. Кьиблепатан Дагъустандин тарихдай очеркар (урус чIалал). Магьачкъала, 1964-йис, 38-чин).*

ТIебиатдин ва гьакIни чапхунчийрин басрухар себеб яз хуьруьн чка са шумудра дегиш хьанай. Хуьруьнвийри гагь вацIун чапла кьере авай "Вини тахта" лугьудай чкада, гагьни "Четкуьн вир" лугьудай чкада бине кутунай. Кьуд пад гьапа авайди хьиз аквазвай и хуьре Къафкъаздин Албаниядиз ва

da onun həmin ərazidə ən böyük və baş kənd olduğuna işarədir. Tarixi mənbələrə əsaslansaq, həmin kənd indiki Əcəxürün yerləşdiyi ərazidə olmuşdur.

XIX əsrdə burada qala və səngərlər tikib, Samur dərəsinin kəndlərinə nəzarət etmiş rus generalları Əcəxürə "kiçik Tiflis" adını vermişlər. A.F.Desimon özünün "Исторические сведения о бывших вольных общинах Кубинской провинции, составляющих ныне Самурский округ" adlı məqaləsində əcəxürlülərin rus qoşunları ilə mübarizəsindən yazarkən onların mərd, düşmənə əyilməyən, axıra qədər mübarizə aparan insanlar olduğunu göstərmişdir.

VII-VIII əsrlərə aid mənbələrdə kəndin adı "ЭчIен хуьр", "ЭчIехуьр" kimi göstərilir. Yanında başqa kəndlərin də meydana gəldiyi yerə "ЭчIен хуьр" ("orta kənd") adı verildi. Kəndi dövrəyə almış qədim qəbiristanlıq da bunu sübut edir. VIII əsrin tarixçisi Moisey Qaqanqatvasi (Kalankatuylu) "Alban tarixi" kitabında bu kəndin adını çəkir. Lakin həmin əsər rus və Azərbaycan dillərinə tərcümə olunanda kəndin adı "Adexer" kimi gedib.

Bu kənd haqqında X əsrin dəyərli tarixi mənbələrindən olan "Abumüslümün tarixi"ndə deyilir: "Abumüslümün nəslindən olan Xalid Əcəxürdə, Ramaldan isə Ünüğdə məskən saldı".

Təbii fəlakətlər və yadellilərin hücumları kəndin öz yerini bir neçə dəfə dəyişməsinə gətirib çıxarmışdır. Əcəxürlülər çayın sağ sahilindəki "Vini taxta", sonradan isə "Çetkün vir" deyilən yerlərdə məskən salmışlar.

Həmin ərazidə daş dövrünə aid yaşayış yerləri, daşdan hörülmüş evlərin divarlarının qalıqları, daş, dəmir və saxsı qabların qırıqları təsadüf olunur. "Qulla təpəsi" deyilən ərazidən saxsı küplərdə basdırılmış qəbirlər tapılmışdır.



адалай виликан девирриз талукь сурар ава.

“Къулладин пел” лугьудай чкадай са шумудра куьшуьйра кучукнавай инсанрин амукьаяр жагъанва. 2003-йисуз “Къулладин пел” лугьудай чкадиз машиндин рехъ акъуддайла, инай пуд метрдин дериндай ракъинин шикил алай къван жагъанва. И къванци ЭчIехуьр чи эрадал къведалди кутунвай хуьрерикай тирди фагьумдай мумкинвал гузва. ЭчIехуьре къванцин девирдиз талукь яшайишдин чкаяр, къванцин кIвалерин цларин амукьаяр, ракьун, хъенчIин къапарин кIусар дуьшуьш жеда. Алатай асирдин 50-йисаралди Абдуллагъ бубадин пIирел къванцин девирдилай амай нажах алай. ЦIай атайбур и пIирел тухудай ва нажахдин тIеквендай яд цуз абурув хъваз тадай. Ахпа нажах квахьна.



XVII-XVIII виш йисара ЭчIехуьр Къуба аялатдин диндин меркезрикай сад яз гьисабзавай. Иниз диндин рекьяй чирвилер къачун патал анжах къунши хуьрерай ваъ, гьакIни Къубадай, Муьшкуьрдай, Ахцегъай, Кьурагъай ва маса чкайрай инсанар къведай. И делилди ЭчIехуьр а девирдин чIехи хуьрерикай тирди субутзава. XIX виш йисуз Зекерия эфендидин медреседа вишералди лезгиди кIелзавай. Адан хци Жами эфендиди вичин бубадин рехъ гьакъисагъвилелди давамарнай. И алим касди ЭчIехуьре вичин харжидалди мектеб ахъайнай ва илимдал рикI алай кесибрив ина кIелиз тунай. Самур поселкадин патав эчIехуьруьнвийри вичихъ 50-далай виниз кIвалер авай ЭчIехуьрубадин ва гьелелиг вичихъ 7 кIвал авай ЭчIехуьр Паласадин бинени кутунва.

2003-cü ildə həmin yerə maşın yolu çəkiləndə 3 metr dərinlikdən üzərində günəş əksi olan daş tapılmışdır. Həmin daş Əcəxürün eramızdan əvvəl salındığını deməyə əsas verir. Ötən əsrin 50-ci illərinə kimi Abdullah baba pirinin üstündə daş dövründən yadigar balta var idi. Qızılcaya tutulan adamlar baltanın deşiyindən su içən kimi sağalardı. Sonralar balta buradan yoxa çıxdı.

XVII-XVIII əsrlərdə Əcəxür Quba əyalətinin dini mərkəzlərindən biri idi. Burada oxumağa Quba, Müşkür, Axtı, Qurah və başqa yerlərdən adamlar gəlirdi. Kənddə çoxlu qonaq qəbul edə bilən karvansara və böyük dükanlar var idi. XIX əsrdə Zəkəriyyə əfəndinin mədrəsəsində yüzlərlə ləzgi təhsil alırdı. Dövrünün savadlı və geniş dünyagörüşlü ziyalılarından olan Zəkəriyyə əfəndinin mədrəsəsində islam dini ilə yanaşı təbii elmlər də tədris olunurdu.

Sonralar onun oğlu Cami əfəndi atasının işini davam etdirir. O, Əcəxürdə öz vəsaiti hesabına məktəb açıb, kasıblara dərs deyir. İslam dinini dərindən bilən Cami əfəndinin “Şəriətül-islam” kitabından o dövrün məktəb və mədrəsələrində istifadə olunurdu. İslam qanunlarını və dini adətləri öyrədən bu kitab 1913-cü ildə çap edilmiş və oxucuların xahişi ilə həmin il ikinci dəfə təkrar nəşr olunmuşdur.

Samur qəsəbəsinin yanında əcəxürlülər 50 evdən ibarət Əcəxür obanın və hələlik 7 evi olan Əcəxür Palasanın bünövrəsini qoyublar.





ЧЕТКУЬН

Гьеле 1832-йисуз урусрин алим Ф.А.Шитникова лезгийрин Четкуьн ва ЧIакIар хуьрерикай малуматар ганай.

Алимди кхьенай: "Уьнуьгъ дереда, КцIар вацIун яхада чпихъ булахар авай Четкуьн ва ЧIакIар хуьрер экIя хьанва" *(Дагестан. География-этнография. Москва, 1956, чин. 333).*

Археологиядин амукьайри Четкуьн лап къадим хуьрерикай тирди субутзава. 1976-йисуз археологри хуьруьвай 500 метр яргъа тир тепедал (аниз ЦIурухев лугьуда) къадим хуьруьн амукьаяр ашкара авуна. Ацахьнавай пирамидадиз ухшар и чкадай цурцун ва хъенчIин къапар акъатна. IX-XI виш йисара инал чIехи хуьр алай. 1977-йисуз гилан хуьр алай чкадал мад са археологиядин гуьмбет ашкара хьана. Вичин майдан 7200 квадратметр, кьакьанвал 8-12 метр тир Шуранпеляй къванцин кьватияр хьтин сурар хкатна. Яргъивал 1,9, гьяркьуьвал 1 м тир сад лагьай сура къвалак акъвазнавай скелет, кутар, буьруьнждин цам, хтарар, ракьун чукIулдин къакъар авай. 1,75 м яргъи ва 1 м гьяркьуь тир кьвед лагьай къванцин сурай чин винелна къатканвай скелет, чIулав рангунин кутар, жуьреба-жуьре рангарин хтарар, чукIулдиз ухшар хци къванер, буьруьнждин безекдин затIар, чIулун тукъа акъатна. Ина чиликай хкатнавай 1,3 м кьакьанвиле ва 40 см гьяркьуьвиле къванцин паруярни ашкара хьана. Шуранпелел дегь чIавара кIеле ва хуьр алай. IV-VIII виш йисара им гзаф чIехи кIеле тир.

ÇƏTKÜN

Hələ 1832-ci ildə rus alimi F.A.Şitnikov ləzgilərin Çətkün və Cağar kəndləri haqqında məlumat vermişdir.

Alim yazmışdır: "Əniğ dərəsində, Qusar çayının yaxasında bulaq suları ilə bol olan Çətkün və Cağar kəndləri yerləşir" *(Дагестан. География-этнография. Москва, 1956, səh. 333).*

Arxeoloji qazıntılar Çətkünün qədim kəndlərdən olduğunu sübut edir. 1976-cı ildə arxeoloqlar kənddən 500 metr aralıdakı təpədə (oraya "ЦIурухев" - "Köhnə təpə" deyilir) qədim yaşayış məskəninin qalıqlarını aşkar etmişlər. Çökmüş piramidanı xatırladan bu təpədən mis və saxsı qablar tapılmışdır. IX-XI əsrlərdə burada böyük kənd mövcud idi. 1977-ci ildə indiki kəndin ərazisində daha bir arxeoloji abidə üzə çıxarılmışdır. Ərazisi 7200 kvadratmetr, hündürlüyü 8-12 metr olan Şoranpel təpəsindən daş qutulardan ibarət qəbirlər tapılmışdır. Uzunluğu 1,9 metr, eni 1 metr olan birinci qəbirdə böyrü üstə qoyulmuş skelet, səhəng, bürünc qolbaq, boyunbağı, dəmir bıçaq qını aşkar edilmişdir. Uzunluğu 1,75 metr, eni 1 metr olan ikinci qəbirdən üzüqoylu skelet, qara səhəng, rəngbərəng boyunbağı, bıçaq kimi itilənmiş daşlar, bürüncdən düzəldilmiş zinyət əşyaları, kəmər toqqası tapılmışdır.

Təpədə 1,3 metr hündürlükdə və 40 sm enlikdə daş divarlar aşkar edilmişdir. Bu, qədim dövrlərdə Şoranpeldə qala və kənd olduğundan xəbər verir. IV-VIII əsrlərdə Şoranpel böyük qala kəndi idi.



СТIУР

Гъуьлуьвай 1820 метр кьакьанда авай и хьуруьн тIвар XII виш йисан зурба шаир СтIур Далагъа сейли авуна.

СтIур хуьр и тIвар алай дагъларин цIиргъинин рагъэкъечIдай пата экIя хьанва. Инин яйлахар, иллаки Силибирдин яйлах дегь чIаварилай вириниз сейли я. СтIурай Шагьдагъдин кукIушдал кьван 12 км-дин рехъ я. Инин чарчарар ва дагьарар дегь чIаварилай машгьур я. СтIурихъ вичин штатар - куьлуь хуьрер акатзава. Ибур СтIур, Къутургъан, ТIакIар, Элихъ, Сув, Яргъикек, Гъенерваци, Гуьне, Арчан, Санайуба ва масабур я.

Вичихъ къадим тарихар авай СтIур юкьван виш йисара вилик фенвай хуьруьн майишатдалди ва халичачивилин сенятдалди сейли тир. Хуьруьн тIварцихъ авсиятда са шумуд риваят ава. Са риваятдай малум жезвайвал, адан тIвар лезги пачагь ЦIатурахъ галаз алакъалу я. Чапхунчийрин аксина женгер чIугур ам вичел залан хирер хьана, и хуьруьз гъанай. Хуьруьн лукьманри яйлахрин набататрин куьмекдалди пачагь кIвачел акьалдарнай. Чапхунчияр кукIварайдалай гуьгъуьниз ЦIатура ина бине кутунай ва гъа чIавалай хуьруьз пачагьдин тIвар ягъанай. Гуьгъуьнлай “ЦIатур” гафуникай “СтIур” хьанай.

Филологиядин илимрин доктор Р.Гьайдароваи фикирдалди, СтIур-сутIар (фигураяр) лагьай чIал я. Ада вичин 2005-йисуз Магьачкъалада чап хьайи “Лезги чIалан этимологиядиз гьахьун” ктабда кхьенвайвал, майишатдин жуьреба-жуьре кIвалахар кьиле тухудай вахтунда вядеяр тайинарун паталди хуь-

SUDUR

Dəniz səviyyəsindən 1820 metr yüksəklikdə yerləşən bu kəndin adını XII əsrin məşhur ləzgi şairi Sudur Dalah məşhurlaşdırdı.

Sudur kəndi eyniadlı dağ silsiləsinin şərq yamacında yerləşir. Onun çiçəkli yaylaqları qədim zamanlardan məşhurdur. Onunla Şahdağın zirvəsi arasındakı məsafə 12 km-dir. Sudur dərəsi şəlalələri və qədim mağaraları ilə məşhurdur. Sudur, Quturğan, Takar, Elix, Suv, Yarğikek, Qənərçay, Qüne, Arçan, Sanayoba və s. Sudurun şatları sayılır.

Sudur kəndinin adı ilə bağlı bir neçə rəvayət var. Bir rəvayətə görə bu oykonim ləzgi hökmdarı Saturun adından yaranıb. Guya yadellilərə qarşı döyüşdə ağır yaralanan Saturu bu kəndə gətirirlər. Buranın tanınmış loğmanları yaylaq otlarından hazırlanmış məlhəmlərlə hökmdarı müalicə edib ayağa qaldırırlar. Yadelliləri qovduqdan sonra Satur həmin kəndə qayıdıb burada məskən salır və kənd də onun adı ilə adlandırılır. Sonralar “Satur” sözü dəyişərək “Sudur” şəklinə düşür.

Ləzgi alimi, filologiya elmləri doktoru R.Heydərovun fikrincə, “Stur” əslində “sutar” (fiqurlar) deməkdir. O, 2005-ci ildə Mahaçqalada nəşr etdirdiyi “Ləzgi dilinin etimologiyasına giriş” kitabında qeyd edir ki, qədim zamanlarda ləzgilər bir sıra kənd təsərrüfatı işlərini görərkən vaxtı təyin etmək məqsədilə kəndin günbatan hissəsində hündür bir yerdə daşlardan müxtəlif fiqurlar düzəldərdilər. Daş fiqura “sut” deyirdilər. Həmin söz cəm halında “stur” kimi işlənirdi.

“Sudur” adının yaranması ilə bağlı tədqiqatçı Müzəffər Məlikməmmədovun fikri də maraqlıdır. O,

руьн рагъакIидай патан синел къванерикай гьар жуьредин кIалубар авай хараяр (фигураяр) эцигдай. Къванцин фигурадиз "сутI" лугьудай. Гьа и гафунин гзафвилин кьадардикай "СтIур" тIвар арадиз атанва.

ТIвар арадиз атуникай маса фикирарни ава. Муьзеффер Меликмамедова "Самур" газетда (2007-йисан 24-февраль) чапдай акъудай "СтIур" макъалада къейд ийизвайвал, хуьруьн къадим тIвар "СтIу" тир. И тIварцIе гзафвилин кьадардин ***-яр*** эхир дегиш хьанва ва маса эхир ***-ур*** ишлемишнава.

Хуьруьн тIвар XII-XIII виш йисарин чешмейра, гьакIни Мегьамед Рафидин XV-XVI виш йисара туькIуьрнавай хроникада гьатнава. Гьа чешмейрай малум жезвайвал, и хуьр вичин халичайралди машгьур тир. "СтIу" ("СтIур") халичаяр къецепатан уьлквейрин савдагарри гьевесдалди къачудай. 1913-йисуз Къубадай Берлиндин выставкадиз ракъурай халичайрин арада "СтIур" халичани авай. СтIурин халичайрикай сейли лезги алим, тарихдин илимрин доктор Сария Агьашириновади гегьеншдиз кхьенва. Ада 1991-йисан 23-мартдиз Магьачкъалада "Коммунист" (гилан "Лезги газет") газетда чапдай акъудай вичин "Чи девлетлу меденият" макъалада икI кхьенва: "Садра чун дагъларай яна СтIуриз фенай. Ана 100 йис хьанвай са къаридин кIвале авай гамариз чун килигиз амукьнай. НацIадай янавай шукIуь иер гьаларикай хранвай а сумаг хизанда аманат яз хуьзвай дидеди рушаз, адани вичин рушаз тазвай". Маса авторрини СтIурин гамар тешпигь авачир инжияр тирди къейд ийизва.

Тарихдин чешмейрай малум жезвайвал, стIурвийри арабрин чапхунчийрихъ, Надир шагьдин кьушунрихъ, XIX асирда урус чапхунчийрихъ галаз женгера чIехи къагьриманвилер къалурнай. 1839-йисуз Къуба уезддин Кьилагь, Хуьлуьхъ, Вини Калунхуьр, ЭчIехуьр, ЦIехуьл хуьрер цIай яна кайи генерал Фезедин аскерривай СтIуриз гьахьиз хьаначир.

Къадим СтIур XII виш йисан шаир Далагьан, XVI виш йисан машгьур алим, Къафкъаздин сад лагьай эфенди хьайи Шихим эфендидин, XVIII асирда Османлу империяда чIехи къуллугъар кьилиз акъудай, Гьелеб, Шам ва Мекке шегьеррин къазивиле (судьявиле) кIвалахай, диндиз талукь са шумуд эсер кхьей Ибрагьим эфендидин, 1837-йисан Къубадин бунтара урус пачагьдин кьушунрин аксина кьегьалвилелди женг чIугур Мегьамед эфендидин ва маса къагьриманрин, Дагъустандин халкьдин шаир Байрам Салимован, Азербайжандин тIварван авай шаир Келентер Келентерлидин ва маса сейли ксарин ватан я.

"Samur qəzetində çap etdirdiyi məqaləsində (24 fevral 2007-ci il) qeyd edir ki, kəndin qədim adı "Stu" olmuşdur. Bu sözün cəm halının şəkilçisi ***"yar"*** dəyişilərək ***"ur"*** halına düşmüşdür.

Kəndin adı XII-XVI əsrlərə aid tarixi mənbələrə və Məhəmməd Rafinin XV- XVI əsrlərdə tərtib etdiyi salnaməyə düşmüşdür. Həmin mənbələrdən məlum olduğu kimi, kənd öz xalçaları ilə məşhur idi. "Stu" ("Sudur") xalçalarını xarici ölkələrin tacirləri həvəslə alırdılar. 1913-cü ildə Qubadan Berlin sərgisinə göndərilmiş xalçalar arasında "Sudur" xalçası da var idi.

Sudur xalçaları haqqında tarix elmləri doktoru Sariya Ağaşirinova 1991-ci ilin martın 23-də Dağıstanda nəşr olunan "Kommunist" (indiki "Lezqi qazet") qəzetində yazmışdır: "Bir dəfə biz dağlardan Sudura yollandıq. Orada 100 yaşlı bir qarının xalçalarına tamaşa etdik. Zərif, gözəl saplardan toxunmuş sumağları nənə qızına əmanət edirdi, o da öz növbəsində öz qızına hədiyyə edəcəkdi".

Bir sıra başqa müəlliflər də Sudur xalçalarının gözəlliyindən söhbət açmışlar.

Tarixi mənbələrdən göründüyü kimi, sudurlular ərəb istilaçılarına, Nadir şahın qoşunlarına, XIX əsrdə isə rus işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüşlər. 1839-cu ildə Quba qəzasının Qilah, Xuluq, Yuxarı Kalunxür, Əcəxür, Zuxul kəndlərini od vurub yandırmış general Fezenin əsgərləri Sudura girə bilməmişlər.

Qədim Sudur XII əsr şairi Dalahın, Qafqazın ilk əfəndisi Şixim əfəndinin, XVIII əsrdə Osmanlı imperiyasında qulluq etmiş, Hələb, Şam və Məkkə şəhərlərində qazı işləmiş, dinə dair bir sıra əsərlər yazmış İbrahim əfəndinin, 1837-ci ilin Quba üsyanı zamanı rus çarının qoşunlarına qarşı qəhrəmanlıqla vuruşmuş Məhəmməd əfəndinin və başqa qəhrəmanların, Dağıstanın xalq şairi Bayram Səlimovun, Azərbaycanın tanınmış şairi Kələntər Kələntərlinin vətənidir.



СтIур хуьр ***Sudur kəndi***



ХУЬЛУЬХЪ

Сифте Хуьлуьхъ хуьр вацIун яхадал алай. Вичин харапIаяр амай и чкадиз "ЧIуру хуьр" лугьуда. Кьакьан пелел бине кутуниз гьар гатфариз вацIуз атай селлери хуьруьз басрухар гун себеб хьанай.

Шагь дагъдин ценерив гвай, тамари элкъуьрна багьа къаш хьиз юкьва тунвай, вичихъ дигай тIебиат авай и хуьруь инсанар гьамиша вичихъ ялда. Гатфариз кIамари, цуькверив дигай яйлахри гьуьлуь хьиз лепе гуда ина. Гаталай зулалди мублагъ чилери инсанриз булвилелди няметар бахшда. КцIарин къадим тарихдин гелер хуьзвай хуьрерин сиягьдик акатзава и хуьр - Хуьлуьхъар.

Нежеф вацIун чапла пата, кьуд пад тамари кьунвай кьакьан пелел экIя хьанвай Хуьлуьхърин накьвади гьар камуна сур чIаварин тарихрикай хабар гузва. Кьуд чкадал гьалтзавай къадим сурарин кьилин къванери Алупан девирдилай инихъ шумудни са виш йисарин кхьинар хвенва. И сурарин патав гвай къадим яшайишдин чкайрин амукьайри хуьруь вичин чка са шумудра дегишарайдакай шагьидвалзава.

И чилерал вегьейбурни гзаф тир: гьезерар, монголар, арабар, фарсар, урусар... ЯтIани чапхунчийриз муьтIуьгъ хьанач хуьр, тарихда гьатна адан тIвар. Вичин генг яйлахралди сейли тир Хуьлуьхъа дегь чIаварилай малдарвал вилик фенвай. Хуьруьн патарив са чIиб чил эгъуьнайтIа, хъенчIин къапар, гун-

XULUQ

Əvvəllər Xuluq kəndi çayın hövzəsində yerləşirdi. Xarabalıqları bu günə qədər qalmış həmin yer "Dagılmış kənd" adlanır. Kənd əhalisi buradan təpənin üstünə çaydakı sellərdən qurtulmaq üçün köçmüşdür.

Şahdağın ətəklərində yerləşən, meşələrin üzük qaşı kimi əhatə etdiyi, füsunkar təbiəti ilə seçilən bu kənd insanları özünə cəzb edir. Yazda buranın dərələri, ucsuz-bucaqsız yaylaqları çiçək dənizinə qərq olur. Yay, payız fəsillərində bu bərəkətli torpaq insanlara öz nemətlərini səxavətlə bağışlayır. Xuluq Qusarın qədim kəndlərindəndir.

Nəcəf çayının sağ sahilində, mənzərəli yerdə, hündür təpənin üstündə yerləşən Xuluq kəndinin hər qarış torpağı qədim tarixlərdən xəbər verir. Kəndin bir neçə yerindəki qədim qəbiristanlıqlarda təsadüf olunan qəbir daşları Qafqaz Albaniyası dövründən soraq verir. Qəbiristanlıqların yanındakı qədim yaşayış yerlərinin qalıqları kəndin öz yerini bir neçə dəfə dəyişdiyini göstərir.

Ayrı-ayrı dövrlərdə buraya xəzərlər, monqollar, ərəblər, farslar, ruslar hücum çəksələr də, Xuluqun adı tarixə işğalçılara tabe olmayan kənd kimi düşüb. Çiçəkli yaylaqları ilə məşhur olan Xuluqda qədim zamanlardan maldarlıq inkişaf etmişdir. Kəndin qocaları bir vaxtlar saxsı borularla yaylaqlardan kəndə süd gətirildiyi barədə maraqlı söhbətlər edirlər.

Bəzi alimlər kəndin adını XI əsrdə bu torpaqlara

гарар хкатда. Инин кьуьзуьбуру са береда чпин чIехи бубайри и гунгаррив яйлахрай хуьруьз нек гьидай лугьуз марагълу ихтилатар ийида.

Хуьруьн тIвар са бязи алимри XI виш йисара чи чилерал вегьей хулагийрихъ галаз алакъалу ийизва. Анжах им дуьз фикир туш. Вучиз лагьайтIа монголри басрух гудалди ина хуьр авай ва адални кутугай тIвар алай.

Неинки КцIара ва Азербайжанда, гьакIни вири Къафкъазда машгьур тир, яшар миллион йисарив гекъигиз жедай лап къадим тамар Хуьлуьхъа гьалтзава. 1885-йисуз ина хьайи машгьур натуралист алим Г.Раддеди Хуьлуьхърин тамара Къафкъазда кьеризцIаруз гьалтзавай верхьи тарарин са шумуд жинс ашкара авунай ва и гьакъиндай вичин макъалайра гегьеншдиз малумат ганай. Гьа чIавалай и тарариз "Раддедин верхьи тарар" лугьузва.

Алимди ина авай аскIан (лилипут) пипин ва наратдин тарарикайни чирвилер ганай. Мегьуьн, пипин, гийин, къавахдин тарарин и къалин тамар гьакIни ичер, чуьхверар, хутар, шуьмягьар, чумалар хьтин майвайралди, мертIералди, жикIийралди, кицикралди ва маса няметралди бул тирди къалурнай.

Хуьлуьхъ 1837-йисан Къубадин бунтуниз регьбервал гайи, хайи чилер хуьн патал гьиле яракь кьуна, урус чапхунчийрин аксина женг чIугур Гьажи Мегьамедан ватан я. Ина илимдал рикI алай инсанарни яшамиш жезвай. Гьавиляй XIX асирдин эхирра Къуба пата ахъа хьайи тIебиатдин илимрай тарсар гузвай сифте мектебрин сиягьдик Хуьлуьхърин мектебни акатнай. Къуба патан девлетлу ва савадлу, тIвар-ван авай нуфузлу ксарикай тир, Мекедиз фена хтай хуьлуьхъви Гьажи Жавада 1907-1908-йисара хайи хуьре вичин харжидалди мектеб эцигнай. Куьруь вахтунда и мектебдин хъсан суракьар вири Къуба уезддиз чкIанай. 1916-1918-йисара ина кардик кутур педагогикадин курсар акьалтIарай цIудралди жегьилри уезддин чара-чара хуьрера муаллимвал авунай.

Хуьлуьхъ 1880-йисуз дидедиз хьайи, сифте хайи хуьре, гуьгъуьнлай лезгийрин сейли алим Гьасан Алкьвадаридин Куьреда авай медресада чирвилер къачур, лезги, туьрк, араб ва фарс чIалар, гьакIни Рагъэкъечlдай патан поэзия дериндай чирай, лезги ва Азербайжан чIаларал иер шиирар теснифай Абдулжелил эфендидин ватан я. Адахъ галаз санал Азербайжандин зурба шаир Агьмед Жавадани кIвалахнай. Хуьлуьхъ Азербайжандин сейли кхьираг Эмир Мустафаеванни хуьр я.

hücum çəkmiş xulagilərlə əlaqələndirirlər. Lakin bu, düzgün fikir deyil, çünki monqolların hücumuna qədər də burada kənd var idi və o, adsız deyildi. Nəinki Qusarda və Azərbaycanda, eləcə də bütün Qafqazda məşhur olan, yaşı milyon illərə çatan qədim meşələr Xuluq ərazisindədir.

1885-ci ildə burada olmuş məşhur naturalist alim Q.Radde öz məqalələrində Xuluq meşələrində Qafqazda nadir hallarda təsadüf olunan ağcaqayın ağaclarının bir neçə növünün bitdiyi haqqında məlumat vermişdir. O vaxtdan yerli əhali həmin ağaclara "Raddenin ağcaqayınları" adını vermişdir. Alim həmçinin burada bitən liliput palıdlardan, vələslərdən, o cümlədən palıd, qovaq, fısdıq ağacları ilə zəngin, qoynunda hər cür cır meyvələr yetişən bu füsunkar məkan haqqında heyranlıqla yazmışdır.

Xuluq kəndi 1837-ci il Quba üsyanının rəhbəri olmuş Hacı Məhəmmədin vətənidir. Bir vaxtlar savadlı adamları ilə məşhur olan bu kənddə XIX əsrin sonlarında Quba qəzasının təbii elmləri tədris edən ilk məktəbi açılmışdır. Sonralar 1907-1908-ci illərdə Quba qəzasının dövlətli və savadlı şəxslərindən olan, Məkkədə həcc ziyarətində olub geri qayıdan Hacı Cavad öz vəsaiti ilə kənddə məktəb ucaltmışdır. Qısa müddətdə həmin məktəb bütün Quba qəzasında məşhurlaşmışdır. 1916-1918-ci illərdə burada təşkil olunmuş pedaqoji kursları bitirən onlarca gənc qəzanın müxtəlif kəndlərində müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

Xuluq 1880-ci ildə anadan olmuş, əvvəl bu kənddə, sonradan ləzgilərin tanınmış alimi Həsən Alqadarinin Küredəki mədrəsəsində təhsil almış, ləzgi, türk, ərəb və fars dillərini, o cümlədən Şərq poeziyasını dərindən öyrənmiş, ləzgi və Azərbaycan dillərində gözəl şeirlər yazmış Abdulcəlil əfəndinin və Azərbaycanın adlı-sanlı yazıçısı Əmir Mustafayevin vətənidir.

Dövrünün tanınmış maarifçilərindən olan Abdulcəlil əfəndi, həmin illərdə müəllim işləmiş Mircəfər Bağırov, Əhməd Cavad kimi məşhur insanlarla dostluq edirdi. 1937-ci ildə "xalq düşməni" kimi həbs edilən o, bir daha geri qayıtmır. Xuluq kəndində doğulmuş tanınmış yazıçı Əmir Mustafayev "Qurd ürəyi" romanında XX əsrin əvvəllərində bu ləzgi kəndində baş vermiş hadisələri qələmə almışdır. Bu əsərində o, Abdulcəlil əfəndinin və xalqın qayğısına qalmış, lakin nəsibi sürgün həyatı olmuş digər qusarlıların da obrazlarını yaratmışdır.



КУЗУН

Чи эрадин II асирда Птолемея туькIуьрай картада къалурнавай Касан шегьер са бязи алимри лугьузвайвал, гилан Кузун хьуруьз мукьва чилерал кутунвай. Туьркверин тарихчи Жамал Гуькчеди Касан хуьруьн тIварцIиз "кас" гафунин куьмекдалди баян гузва.

Дагълари элкъуьрна юкьва тунвай, йифиз-юкъуз КцIар вацIу вичиз верцIи манияр лугьузвай, тIебиатдин гзафни-гзаф иер пипIерикай тир Кузун лезгийрин дегь хуьрерикай я. Генг яйлахрин макан я инаг.

Гилан Кузун хуьруьн яшар 500 йисалай виниз я. Сифте хуьруьн бине гилан хуьруьвай са кьадар яргъал, чиливай 150 метр кьван кьакьан тир "ЧIуру хуьр" лугьудай чкада кутунай. Ана 10 гектардин чилерал къадим сурар экIя хьанва. Садбуру иниз "ЦIуру хуьр" лугьуда. Кьуьзуьбурун ихтилатрай, гьакIни фольклордин материалрай аквазвайвал, хуьруьн кьилел чIехи мусибатар атанай. Им гьам тIебиатдин басрухрихъ, гьамни хуьрел вегьей чапхунчийрихъ галаз алакъалу я. Ина куьгьне хуьруьн амукьаяр къени дуьшуьш жезва. Са чIиб чил эгъуьнин кумазни, накьвадикай хъенчIин къапарин кIусар хкатда. 10 гектардин чка кьунвай къадим сурари са береда ина гзаф чIехи хуьр хьайидан шагьидвалзава.

Вилик чна къейд авурвал, "Кузун" ойконим Кас тайифадин тIварцIихъ галаз алакъалу я. Са бязи алимри лугьузвайвал, къадим картайра къалурна-

KUZUN

Eramızın II əsrində Ptolemeyin tərtib etdiyi xəritədə göstərilən Kasan şəhəri, bəzi alimlərin fikinə görə, indiki Kuzun kəndinə yaxın ərazidə yerləşirdi. Məşhur türk tarixçisi Camal Göyçə Kasan kəndinin adını "kas" sözünün köməyi ilə izah edir.

Dağların əhatə etdiyi, Qusar çayının gecə-gündüz layla çaldığı, təbiətin gözəl məkanlarından biri olan Kuzun ləzgilərin qədim kəndlərindəndir. Bura geniş yaylaqları ilə məşhurdur.

İndiki Kuzun kəndinin yaşı 500 ildən artıqdır. Əvvəl kənd indiki ərazidən bir qədər aralıda, 150 metr yüksəklikdə olan "ЧIуру хуьр" ("Dağılmış kənd", bəziləri ona "ЦIуру хуьр" ("Köhnə kənd") də deyirlər) adlı yerdə yerləşirdi.

Kənd qocalarının söhbətlərindən, eləcə də folklor materiallarından göründüyü kimi, kəndin başına böyük müsibətlər gəlmişdir. Bu, həm təbii fəlakətlər, həm də yadellilərin hücumları ilə əlaqədar olmuşdur. Burada köhnə kəndin qalıqlarına bu gün də təsadüf olunur. Bir qarış torpağı qazan kimi oradan saxsıdan hazırlanmış məişət əşyalarının qalıqları tapılır. Kəndin 10 hektar ərazisini tutan qədim qəbiristanlıq bir vaxtlar burada böyük bir yaşayış məntəqəsinin olduğunu sübut edir.

Qeyd etdiyimiz kimi, "Kuzun" oykonimi ləzgilərin Kas tayfasının adı ilə əlaqədardır. Bəzi alimlər qədim xəritələrdə göstərilən Kasan şəhərinin indiki Kuzun

вай Касан шегьер гилан Кузун хуьруьз мукьва чкадал кутунай. Алай вахтунда чпин хуьруьз “Кызын”, чпиз “кызынвияр” лугьуда абуру. И хуьруьн агьалийрал “юкьва мукIватI авай кузунвияр” лакIаб ала. Са береда абур хъсан чамарчияр ва гьуьрчехъанар хьиз сейли тир.

Дегь чIаварилай и хуьруьн фу хпехъанвиляй акъатайди я. И кар хуьре акьван вилик фенвай хьи, 100 хпелай 150 кIел дул къачун ина гьунардай гьисабдачир. Гьавиляй садбуру зарафатдалди чпин хуьруьн тIвар “кIелер хуьдай чка” мана гузвай “куз” гафуникай арадиз атанвайди я лугьуда.

Хуьруьн тIвар вириниз сейли авур кьегьалар садни кьвед туш. Мисал яз вичин тIвар XX виш йисан кьегьал лезгийрин сиягьда гьатай Муьгьуьбали эфенди къалуриз жеда. 1868-йисуз Кузуна дидедиз хьайи Муьгьуьбалиди ина чIехи мектеб эцигиз тунай. Ада Къуба уездда кьве медреса ачухнай ва са шумуд мискIин гуьнгуьна хтунай, Гьатем агъадихъ галаз санал Азербайжан Жуьмгьурият хуьн патал Яру кьушундин аксина женг чIугунай. Абурун яракьлу кIеретIри 7 вацра Аладашда яру аскеррин рехъ атIанай ва большевикар Азербайжандиз ахъайначир. Ада гьакIни большевикрин ва эрмени дашнакрин аксина къати женгер чIугунай. Совет гьукумат гьалиб атайдалай гуьгъуьнизни большевикрин аксина женг чIугур Муьгьуьбали эфендидиз гьукуматдин патай къаст авунай ва 1928-йисуз ам яна кьенай.

Кузун булахрин макан я. Шияр булахдихъ, Дуьруьдин ва Тамачан булахрихъ авсиятда гзаф марагълу риваятар рахада кузунвийри. Хуьре са шумуд пIир ава. Абурукай пудан кьилив инсанар ара датIана къведа. Хуьруьн юкьва авай “Сейдидин пIир” мурадрин пIир хьиз сейли я. Сухван тIал атIудай ва тIурар сагъардай пIирерал къунши хуьрерай, гьакIни КцIарай инсанар къведа.

kəndi yaxınlığında salındığını göstərirlər. Kuzunluların özlərinə məxsus ləhcəsi var və onlar kəndlərinə “Kızın”, özlərinə isə “kızınviyar (kızınlılar) deyirlər. Kəndin ləqəblərindən biri “beli kəndirli kuzunlu”dur. Bir vaxtlar yaxşı at sürmələri və ovçuluqları ilə məşhur olan kuzunlular böyük ustalıqla bellərindəki kəndirin köməyi ilə vəhşi heyvanları ovlayardılar.

Qədim vaxtlardan kəndin əsas məşğuliyyəti qoyunçuluq olub. Burada 100 qoyundan 150 quzu almaq adi hal sayılıb. Bəziləri kəndin adının “kuz” (quzu yatağı) sözündən yarandığını qeyd edir.

Kənddən çoxlu qəhrəmanlar çıxıb. Onlardan biri Möhübəli əfəndidir. 1868-ci ildə burada anadan olmuş Möhübəli kənddə məktəb tikdirmişdir. O, Quba qəzasında daha iki mədrəsə və bir məscid ucaltmışdır. Möhübəli əfəndi haqqında 1903-cü ildə Bakıda çap olunmuş “Ежегодник” jurnalında məlumat verilib.

Türkiyədə dini təhsil alıb vətənə qayıdan, böyük ləzgi alimi Həsən Alqadari ilə dostluq edən Möhübəli əfəndi dinə dair bir neçə kitabın müəllifidir. Kuzunda məktəb açıb burada müəllimlik edən Möhübəli əfəndi Hatəm ağa Cağarvi ilə birlikdə Azərbaycan Demokratik Cümhuriyyətini qorumaq üçün Qızıl Ordu əleyhinə mübarizəyə qalxmışdır. Onların silahlı dəstələri 7 ay Aladaş düzündə bolşeviklərin qarşısını kəsərək, onları Azərbaycana buraxmamışdır. Möhübəli əfəndi erməni daşnaklarına qarşı da qəhrəmancasına döyüşmüşdür. Sovet hökuməti Möhübəli əfəndini 1928-ci ildə sui-qəsd etməklə qətlə yetirmişdir.

Kuzun kəndi özünün bulaqları ilə də tanınır. Buradakı Şiyar bulağı, Dürü və Tamaç bulaqları ilə əlaqədar xalq maraqlı rəvayətlər danışır. Kənddə bir neçə pir vardır. Onun mərkəzindəki Seydi pirinə, buradakı diş ağrısını kəsən və yaraları sağaldan pirlərin ziyarətinə qonşu kəndlərdən və Qusardan da adamlar gəlir.



Кузунрин “пирамидаяр” ***Kuzun “piramidaları”***



Хуьруьн акунар ***Kəndin görünüşü***



ГАДАЦIИЙИХУЬР

Юкьван виш йисара арадал атай ГадацIийихуьруькай XIII виш йисан араб тарихчи Закария ал-Къазвиниди вичин "Асарул Билат ва Агьваруьл ибад" эсерда малумат ганва.

Тамарин юкьва авай, карвандин рекьин мукьув экIя хьанвай и хуьруьн агъалияр виликан хуьр чкIайдалай гуьгъуьниз иниз куьч хьанай. И малуматди къадим Гадархуьр чи рикIел хкизва. А хуьр араб чапхунчийрикай Гьарун ар-Рашида IX виш йисан эвелра чи чилерал 30 агъзур низарияр куьчарай чIавуз чукIурнай.

Моисей КьакьанкъатвацIвиди вичин "Агъвандин тарих" ктабда кхьизвайвал, гьа береда Гьарун ар-Рашида Албаниядин агъалийриз гзаф зулумар авунай, абурал залан харжар эцигнай. Гьавиляй лезгияр кIвачел къарагьнай. Абурун бунт къаткурдайла арабри чи цIудралди хуьрер, гьакIни Гадархуьр чукIурнай. ЧукIурай хуьрерикай кьвед гилан ГадацIийихуьруьн чилерал алай. И делил археологиядин амукьайрини субутзава. А хуьрерикай Азербайжандин алимар Ж.Халилова, Къ.Къошкъарлыди ва Р.Аразовади 1991-йисуз Бакуда урус чIалал чапдай акъудай "Кефер-РагъэкъечIдай Азербайжандин археологиядин амукьаяр" ктабда малумат ганва.

Сад лагьай хуьр гилан Вердиханпел лугьузвай чкадал, ГадацIийихуьруьвай 1 километр яргъа, адан кьибле пата хьанай. И пелел кутур хуьруьн амукьаяр алатай асирдин 50-йисаралди амай. Археологри фагьумзавайвал, хуьр VIII асирда чкIанва. Кьвед

GƏDƏZEYXÜR

Bünövrəsi orta əsrlərdə qoyulmuş bu kənd haqqında ilk dəfə XIII əsrin ərəb tarixçisi Zəkəriyyə əl-Qəzvini özünün "Asarul Bilat və Ahvarül ibad" əsərində məlumat vermişdir.

Meşələrin qoynunda, karvan yolunun kənarında salınmış bu böyük kəndin əhalisi buraya köhnə yaşayış yeri dağıldığına görə köçmüşdü. Bu məlumat qədim Gadarxürü yada salır. Bu kəndi ərəb istilaçılarından Harun ər-Rəşid IX əsrin əvvəllərində həmin ərazilərə 30 min nizarini köçürəndə dağıtmışdı.

Moisey Qaqanqatvasinin yazdığına görə o vaxt Harun ər-Rəşid Albaniyanın əhalisinə olmazın zülmlər verərək, son dərəcə ağır bac-xərac qoyduğuna görə ləzgilər ayağa qalxır. Ərəblər bu hərəkatı yatırdarkən onlarca kəndi dağıdır. Onların arasında Gadarxür də var idi. Tarixi mənbələrlə yanaşı arxeoloji qazıntılar da bunu sübut edir. Bu kəndlər haqqında Azərbaycan alimlərindən C.Xəlilov, Q.Qoşqarlı və R.Arazova 1991-ci ildə Bakıda rusca nəşr etdirdikləri "Şimal-şərqi Azərbaycanın arxeoloji qazıntıları" kitabında məlumat vermişlər.

Birinci kənd indiki Verdixanpel adlı təpədə, kənddən bir kilometr aralıda olub. Həmin kəndin qalıqları, dağılmış divarları ötən əsrin 50-ci illərinə kimi salamat qalmışdı. Arxeoloqlar buradan üstü naxışlı müxtəlif saxsı qablar tapmışlar. Alimlər kəndin VIII əsrdə dağıldığını qeyd edirlər.

İkinci kənd indiki Qazixanpel adlı yerdə olub. Sa-

лагъай хуьр гилан Къазиханпел лугьудай чкадал, ГадацIийихуьруьн кьибле-рагъэкъечIдай пата ава. Къадим хуьр алай пелен майдан 1100 квадратметр я. Ам чиливай 3-6 метр кьван кьакьанда кутунай. IV асирда вичин бине кутур и хуьр абуру VIII асирда чкIайди тестикьарзава.

Идалай гъейри ГадацIийихуьруьн чилерал мадни кьве хуьр хьанай. Абурукай сад гилан Магьмудапеле кутунай. Хуьруьвай са километр кьван яргъа тир къадим хуьруьн амукьайри адан тарих IV-VIII виш йисариз талукь тирди субутзава. Чиливай 7-9 метр хкаж хьанвай Магьмудапелен чин 1600 квадратметр я. Ина юкьан виш йисариз талукь кIеле хьанай. Кьуд лагъай хуьруьн амукьаяр ГадацIийихуьруьн кефер-рагъэкъечIдай пата, Шамилапеле жагъанва. Чиливай 8-15 метр кьван хкаж хьанвай и пелен майдан 2000 квадратметр я. Археологиядин амукьайри субутзавайвал, инал генани къадим хуьр хьанай ва адан бине IV-VI виш йисара кутунай.

Тарихдин чешмейра винидихъ чна тIварар кьур къунши хуьрерин агъалийри гилан ГадацIийихуьр алай чкадал цIийи хуьр кутурди тестикьардай са делилни авач. Гадархуьруьн агъалийри лагъайтIа, кьведра цIийи хуьр кутунай, амма къулай шартIар авачирвиляй а хуьрер гадарнай. Эхирни абуру XII виш йисан эвелра гилан ГадацIийихуьр алай пелерал хуьр кутунай. Абуру иниз виликан хуьруьн - Гадаррин тIвар ганай. ЦIийи Гадархуьруьн тIвар гуьгъуьнлай ГадарцIийихуьр ва (р) сес аватна ГадацIийихуьр хьанай. Илимдин рекьелди "ГадацIийихуьр" гафуниз икI баян гуз жеда.

Риваятар асасдиз къачуртIа, и хуьр са гадади кутурди я ва гьавиляй ада кутур цIийи хуьруьз ГадацIийихуьр тIвар гайиди я лугьузва. Бязи авторри хуьруьн тIвар "гада" тайифадин тIварцIихъ галаз алакъалу я лугьузва. Амма тарихдин чешмейра чи чилерал ихьтин тайифа яшамиш хьайиди субутдай делилар авач.

И хуьруьн агъалийри гьам Надир шагьдин, гьамни урус пачагьдин кьушунрин аксина кьиле фейи женгера мукьувай иштиракнай. ГадацIийихуьруьнвияр 1837 ва 1877-йисарин бунтара, 1918-йисуз эрмени дашнакрихъ галаз ягъ-ягъунра чешнелу хьанай. Урусрин машгьур кхьираг Владимир Дала гьахъ патал женг чIугур гадацIийихуьруьнви къачагъ Гьасанакай "Лезги Гьасан" тIвар алай повесть кхьенай. Маарифчи Малла Гьажи эфенди гьам Къуба, гьамни Куьре магьалриз машгьур тир. Ада сифте яз хайи хуьре кьилди мектеб ачухарнай ва кесибрин аялриз тарсар ганай. XIX виш йисан сейли шаир Саяд Пери Рагьимхановадин шиирар исятдани халкьдин меце ама.

həsi 1100 kvadratmetr, hündürlüyü 3-6 metr olan təpəlikdə salınıb. Buradan saxsı qablarla yanaşı, yastı çay daşları da tapılıb. Həmin kənd də XVIII əsrdə dağıdılmışdır.

Gədəzeyxürün ərazisində daha iki kənd olub. Onlardan biri Mahmudanpel təpəsində yerləşmişdi. İndiki kənddən bir kilometr aralıda salınmış həmin kəndin tarixi IV-VIII əsrləri əhatə edir. Burada arxeoloqlar qədim qablarla yanaşı divar qalıqları da üzə çıxarıblar. 7-9 metr hündürlükdə yerləşən Mahmudapelin (Mahmud təpəsinin) sahəsi 1600 kvadratmetr olub, burada orta əsrlərə aid qala yüksəlmişdir.

Dördüncü kəndin qalıqları Şamilanpel (Şamil təpəsi) adlı yerdə aşkar edilmişdir. Yerdən 8-15 metr hündürlükdə olan bu yerin sahəsi 2000 kvadratmetrdir. Buradan tapılmış əl dəyirmanı və məişət əşyaları Şamil təpəsində IV-VI əsrlərdə yaşayışın olduğunu sübut edir.

Yuxarıda adlarını çəkdiyimiz kəndlərin əhalisinin Gədəzeyxürün ərazisində yeni kənd saldıqları barədə tarixi mənbələrdə məlumat yoxdur. Gadarxürün ("xür" kənd deməkdir) əhalisi isə iki dəfə yeni yerdə məskən salmış, lakin həmin yerlərdə yaşayış üçün vacib şərtlər olmadığına görə oranı tərk etmişdir. Nəhayət, XII əsrin əvvəllərində onlar indiki Gədəzeyxür olan yerdə - təpədə kənd salmış, buraya əvvəlki kəndin - Gadarın adını vermişlər. Yeni kəndin adı sonradan "ГадарцIийихуьр" (Gadaryenikənd) olmuş və sonradan (-r) səsi düşüb "ГадацIийихуьр" formasını almışdır.

Bəzi rəvayətlərə görə kənd guya bir qada (oğlan) tərəfindən salınmış və ona görə də kəndin adı ГадацIийихуьр (yəni oğlanın yeni saldığı kənd) olub. Bəzən isə kəndin adını qada adlı tayfa ilə əlaqələndirirlər. Lakin tarixi mənbələr bu ərazidə belə bir tayfanın yaşadığını təsdiqləmir.

Əhalisinin sayına görə rayonun ən böyük kəndlərindən sayılan Gədəzeyxürün tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Kəndin əhalisi Nadir şahın və rus çarının qoşunlarına qarşı qəhrəmanlıqla döyüşmüşdür. Onlar 1837 və 1877-ci illər üsyanlarında və 1918-ci il erməni daşnaklarına qarşı mübarizədə də fərqlənmişlər. Rus yazıçısı Vladimir Dal ədalət uğrunda mübarizə aparmış gədəzeyxürlü qaçaq Həsən haqqında "Ləzgi Həsən" adlı povest yazmışdır.

Gədəzeyxürdən tanınmış adamlar çox çıxıb. Maarifçi Molla Hacı əfəndi həm Quba, həm də Küre mahalında məşhur idi. O, kənddə məktəb açıb yoxsul uşaqlarına dərs demişdir. XIX əsrin məşhur şairi Sayad Pəri bu kəndin adını hər yanda tanıtmışdır.



ХУРАЙ

Дегь чIавара "Чирагъар", "Маралюрт" лугьудай чкайра бине кутур хурайвийри 500 йис вилик гилан хуьр алай, вичихъ берекатлу чилер ва серин булахар авай и чка хкянай.

Уьнуьгъ дереда экIя хьанвай, къацу дагъларин синел кьил эцигнавай Хурайди вичин акунралди иниз атайбур гьейранарда. Хуьруьн къадимвал ина авай сур девиррин сурари, майишатдин крар кьиле тухудайла чиликай хкатзавай хъенчIин къапари, цин гунгаррин кIарари ва маса затIарини субутзава.

TIвар-ван авай тарихчи, вич Къубадай тир М.М.Ихилова вичин "Лезги халкьарин десте" ктабда КцIарин Хурай, Суважал, Агъа Лакар ва маса хуьрерикай марагълу малуматар ганва.

Хуьруьн тIварцIиз жемятди са шумуд жуьреда баянар гузва. Ам монголрин, фарсарин басрухрихъ, хуьрремийрин гьерекатдихъ галаз алакъалу ийизвайбурни ава. Гзафбуру и тIвар лезгийрин "хьурай" гафуникай ("хуьр инал хьурай") туькIур хьанвайди я лугьуда. Садбуру хуьруьн тIвар лезги чIалан "хур" гафуникай арадиз атанвайди я лугьузва. Дагъдин хурал алай хуьруьн тIвар дегь чIавара Хур хьун мумкин я. Вучиз лагьайтIа гилан тIварцIин дибда авайди "хур" гаф я. Фонетикадин дегишвал кьиле фена "Хур"дикай "Хурай" (гьинай?) хьун лезги чIала дуьшуьшдин кар туш. Чун ихьтин хиялдал гьайибурукай садни Хурайдин тIвар-ван авай инсанрикай тир рагьметлу Эледдин Мерданов тир.

Са кар шаксуз я хьи, Хурай - хурал ахъа хьанвай цуьк хьиз иер ва тикрарсуз я. Адахъ зегьмет-

XURAY

Qədim dövrlərdə "Çıraqlar", "Maralyurd" kimi yurd yerlərində məskən salmış yerli əhali təxminən 500 il əvvəl indiki yerə - bərəkətli torpaqları və bol sulu bulaqları olan yamaca köçmüşdür.

Qusarçayın sol sahilində, Əniğ dərəsində yerləşən, meşəli dağların sinəsinə sığınan Xuray kəndi bənzərsiz təbiəti ilə bura gələnləri heyran edir. Kəndin qədimliyini buranı dörd tərəfdən əhatə edən köhnə qəbiristanlıqlar da sübut edir. Təsərrüfat işləri görülərkən yerin altından çıxan məişət qablarının, bəzək əşyalarının qalıqları, saxsıdan hazırlanmış su borularının hissələri və sairə bir zamanlar burada gur həyat qaynayan böyük yaşayış yeri olduğundan xəbər verir. Təbii fəlakətlərdən, yadellilərin hücumlarından qurtulmaq üçün xuraylılar qədim məskənlərini yeni yurd yeri ilə əvəz etməli olmuşlar.

Tanınmış tarixçi, əslən Qubadan olan M.M.İxilov özünün "Ləzgi qrupu xalqları" adlı kitabında Qusarın Xuray, Suvacal, Aşağı ləgər və başqa kəndləri haqqında maraqlı məlumatlar vermişdir.

Халкьдин шаир Самед Вургъунни Иляс Илясов чIехи дустар тир. С.Вургъунахъ КцIара гзаф дустар авайтIани, ада "Илясан дехмеда йиф акъудун, Мислиматан фу нен" багьаз кьадай. И кьве касдин дуствал чIехи синагърай акъатнавайди мад са карди субутнай. 1937-йисан зулун йикъарикай садаз радиодай "Халкьдин душманрин" нубатдин сиягь кIелдайла, анай Иляс Илясован тIвар ван хьайи Самед Вургъун гьасятда КцIариз рекье гьатнай.

Гьа йифиз вич дустагьиз атана кIанзавайбур гуьзлемишзавай И.Илясоваз кьуланфериз ракIарихъ С.Вургъун акурла пагь атIана амукьнай. И гуьруьшди И.Илясов кьиникьикай куьтягьнай. Ингье И.Илясов вили къачузвачирбуру Ватандин ЧIехи дяве къарагьайла и гьахъ ва адалат вине кьадай касдилай кьисас къахчунай.

Иляс Илясован 17 яшар хьанвай хцикай - пуд вахан са стха тир Масудакай кьакьан буйдин, гьяркьуь къуьнерин кьегьал хьанвай. Ингье районди чав чкIанвай хьи, гуя Иляс Илясова чIехи къуллугъдал алаз вичин хва дяведикай хвенва кьван. И суьгьбе-

İLYAS İLYASOV

Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin ilk məzunlarından biri respublikamızın adlı-sanlı maarifçisi İlyas İlyasov olmuşdur.

İlyas Aydabəy oğlu İlyasov 1900-cü ildə Quba qəzasının Piral kəndində anadan olmuşdur. Burada ibtidai məktəbi bitirib, Həzrə kəndində orta təhsil almışdır. Elmə, təhsilə böyük həvəsi olan İlyas İlyasov 1919-cu ildə Bakıda Azərbaycan Dövlət Universitetinin açılması xəbərini eşidəndə Piraldan paytaxta yola düşmüşdür. Müvəffəqiyyətlə imtahan verib, universitetin tələbəsi olmuşdur. Savadı ilə müəllimlərinin rəğbətini qazanan İ.İlyasov universiteti qırmızı diplomla başa vurduqdan sonra Azərbaycan Xalq Maarif Komissarlığında orta məktəblər idarəsinin rəisi vəzifəsinə təyin olunmuşdur. Uzun illər məsul vəzifələrdə çalışmış İ.İlyasov Qusar rayonunda çıxan "Sosializm tempi" qəzetinin redaktoru, Qusar Aqropedtexnikumunun, Quba Müəllimlər İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Bir neçə il Qusar RXMŞ-nin müdiri, Qusarda orta məktəb direktoru işləmiş İ.İlyasovun rayonda xalq maarifinin inkişafında böyük xidmətləri olmuşdur.

Xalq şairi Səməd Vurğunla İlyas İlyasovu uzun illərin dostluğu birləşdirmişdir. Şairin Qusar rayonunda çoxlu dostlarının olmasına baxmayaraq, o, özünün dediyi kimi, "İlyasın daxmasında gecələməyi, Mislimatın çörəyini yeməyi" üstün tutardı. Bu iki ziyalının dostluğu sınaqlardan çıxmış dostluq idi. 1937-ci ilin payız günlərindən birində radio ilə "Xalq düşmənlərinin" növbəti siyahısı oxunanda İlyas İlyasovun adını eşidən Səməd Vurğun gecə yarısı Qusara gəlib çıxmışdı.

Həmin gecə həbs olunacağı dəqiqələri həyəcanla gözləyən İlyas İlyasov qapıda dostu Səməd Vurğunu görüb heyrətə gəlmişdi. Bu görüş onun taleyini həll etdi. Lakin İlyası gözü götürməyənlər Böyük Vətən müharibəsi başlananda bu haqqı və ədaləti uca tutan adamdan başqa yolla intiqam aldılar.

Namuslu və təvazökar insan olan İlyas İlyasovun oğlu, üç bacının yeganə qardaşı olan Məsud İlyasov 17 yaşına çatanda ucaboy, enlikürək gənc olmuşdu. Lakin rayonda şayiələr gəzməyə başladı ki, guya İlyas müəllim vəzifədə olduğuna görə oğlunu cəbhədən yayındırır. Bu söhbətlərin yüksək səviyyələrdə getdiyini

тар везифалу ксарин арадани къекъвезвай. Эхирни касди вичин 17 яшинда авай хва дяведиз ракъурна. Масуд кьегьалвилелди женгина гьелек хьана.

Вичин уьмуьр халкьдин маарифдиз серф авур Иляс Илясов 1967-йисуз гьафилдай гьелек хьана.

ГУЬЛЛУЬ ШАГЬМЕРДАНОВА

Гуьллуьди Горидин муаллимрин семинария акьалтIарна, КцIара муаллимвал авур вичин буба Жемилан рехъ давамарнай.



(1900-1986)

КцIара халкьдин мектебар ва бахчаяр арадиз гьуник пай кутур сейли маарифчи Гуьллуь Шагьмерданова 1900-йисуз дидедиз хьана. Ада 1920-йисалай вичин уьмуьрдин эхирдалди КцIарин 1-нумрадин мектебда муаллимвал авунай.

1921-йисуз КцIара кардик кутур сад лагьай бахчадиз и дишегьлиди регьбервал ганай. Гьа йисуз КцIариз атай Нариман Нариманов бахчадиз фенай ва ам и жегьил дишегьлидин алакьунрал гьейран хьанай. Ина тербия къачузвай кесиб аялрин кукIвар хьанвай кIвачин къапар акур Н.Нариманова Бакудай абуруз 30 жуьт кух квай кIвачинкъапар ракъурнай.

Райондин дишегьлияр цIийи уьмуьрдиз желб авунин карда тафаватлу хьайи Гуьллуь Шагьмерданова дин, Мерям Шерифовадин, Зарбике Меликовадин, Къедри Жавадан рушан, Саби Агьедан рушан, Гьуькме Ибрагьимовадин, Бетура Алиевадин, Лена Черкесовадин, Гуьлсултан Мамедовадин ва масабурун алахъунар ва къайгъударвал себеб яз 1925-йисуз КцIара дишегьлийрин клуб ахъа хьанай. И клуб тешкилай дишегьлийри дагъдин хуьрериз физ, дишегьлияр саваддин курсариз желб ийизвай.

1931-йисуз Гуьллуь Шагьмерданова райондин Дишегьлийрин Советдин седривиле хкянай. Ада дишегьлияр гьукуматдин кIвалахрив агудун патал чIехи алахъунар авунай, гуьгъуьнлай савадсузвал терг авунин кардикни вичин пай кутунай.

Г.Шагьмерданова 1946-йисуз "Зегьметдин игитвиляй" медалдиз, 1949-йисуз Ленинан ордендиз лайихлу хьанай. 1958-йисуз адаз "Азербайжан ССРдин лайихлу муаллим" гьуьрметдин тIвар ганай. Г.Шагьмерданова 1986-йисуз рагьметдиз фена.

görən ağsaqqal nəhayət, məcbur olub 17 yaşlı övladını Böyük Vətən müharibəsi cəbhəsinə yola salır. Məsud cəbhədə qəhrəmancasına həlak olur.

Ömrünü xalqın maariflənməsinə sərf edən İlyas İlyasov 1967-ci ildə faciəli şəkildə həlak olmuşdur.

GÜLLÜ ŞAHMƏRDANOVA

Güllü Qori müəllimlər seminariyasını bitirib ömrünü xalq maarifinə həsr etmiş atası Cəmilin yolunu davam etdirmişdir.

Qusarda xalq məktəblərinin, uşaq bağçalarının yaradılmasında böyük xidmətləri olmuş Güllü Şahmərdanova 1900-cü ildə Qusarda anadan olmuşdur.

O, 1920-ci ildən taleyini Qusardakı 1 saylı məktəblə bağlamış, uzun illər burada müəllim vəzifəsində çalışmışdır .

1921-ci ildə Qusarda yaradılmış ilk uşaq bağçasına rəhbərlik etmək bu qadına nəsib olmuşdur. Həmin il Qusara gəlmiş Nəriman Nərimanov bu bağçada olarkən zəhmətkeş balalarının tərbiyəsi ilə məşğul olan gənc qadının fədakar əməyindən razı qaldığını bildirmişdir. Buradakı uşaqların nimdaş geyimlərini görüb mütəəssir olan N.Nərimanov Bakıya qayıdan kimi onlara hədiyyə olaraq 30 cüt uzunboğaz çəkmə göndərmişdir.

Rayon qadınlarının ictimai həyata cəlb olunmasında fəal iştirak etmiş Güllü Şahmərdanovanın səyi nəticəsində 1925-ci ildə Qusarda qadınlar klubu yaradılmışdır. O, Məryəm Şərifova, Zarbikə Məlikova, Qədri Cavad qızı, Sabi Əhəd qızı, Hökmə İbrahimova, Bəturə Əliyeva, Lena Çərkəzova, Gülsultan Məmmədova və başqa fəallarla bir yerdə rayon mərkəzində və ucqar kəndlərdə geniş mədəni- kütləvi tədbirlər aparmış, qadınları savad kurslarına cəlb etmişdir.

1931-ci ildə Rayon Qadınlar Şurasının sədri seçilmiş G.Şahmərdanova qadınların ictimai həyata cəlb olunmasından ötrü uzun illər səylə çalışmış, sonralar savadsızlığı ləğv etmə kampaniyasında da fəallıq göstərmişdir.

G. Şahmərdanova 1946-cı ildə "Əmək rəşadətinə görə" medalı ilə, 1949-cu ildə isə Lenin ordeni ilə təltif olunmuşdur. 1958-ci ildə ona "Azərbaycan SSR əməkdar müəllimi" fəxri adı verilmişdir.

САРА ШАГЪМЕРДАНОВА

Гуьллуь Шагьмердановадин руша Сарадиви чин дидедин рехъ лайихлудаказ давамарна.



(1917-2002)

Сара Абакаран руш Шагьмерданова 1917-йисуз КцІара дидедиз хьана. Ина юкьван мектеб акьалтІарна, ам Азербайжандин Гьукуматдин Педагогикадин Институтдин химиядин факультетдик экечІна. 1938-йисуз институт кьилиз акъудай жегьил муаллимди Хьилерин хуьре муаллимвал авуна.

1942-йисуз КцІарин 1-нумрадин юкьван мектебдиз ракъурай Сарадиви чин уьмуьрдин эхирдалди ина кІвалахна. 30 йисалай гзаф вахтунда и мектебдиз регьбервал гайи Сара Шагьмерданова Ленинан ордендиз ва "Азербайжан Республикадин лайихлу муаллим" гьуьрметдин тІварцІиз лайихлу хьана.

SARA ŞAHMƏRDANOVA

Güllü Şahmərdanovanın qızı Sara anasının şərəfli yolunu layiqincə davam etdirmişdir.

Sara Abakar qızı Şahmərdanova 1917-ci ildə Qusarda anadan olmuşdur. Burada orta məktəbi bitirib, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kimya fakültəsinə daxil olmuşdur. 1938-ci ildə buranı başa vuran gənc mütəxəssis Hil kənd orta məktəbində əmək fəaliyyətinə başlamışdır.

1942-ci ildə Qusar şəhər 1 saylı orta məktəbinə göndərilən Sara ömrünün sonuna kimi burada işləmiş, 30 ildən artıq müddətdə məktəbə rəhbərlik etmişdir. Qüsursuz fəaliyyətinə görə Sara Şahmərdanova Lenin ordeni ilə təltif olunmuş, "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür.

АЛИ МУЬЖРУЬМ ТАГЪИЗАДЕ
(1891-1975)

Баркалладин эвездай вичиз дустагьвал несиб хьайи А.М.Тагьизадеди вичин амай уьмуьр къадим ктабар кІватІуниз серф авунай.

Адаз лезги, туьрк, урус, араб ва фарс чІалар дериндай чидай. Къуьран хуралай кІелдай ада суьрейрин манаяр лезгидалди инсанрив агакьардай. Ада духтурривай чара ийиз тахьай шумудни са начагъ инсанар къадим ктабрикай менфят къачуна сагьарнай. Адав Абу Али Ибн Синадин гьилин хатІаралди кхьенвай "Къанун", Несиреддин Тусидин "География", Исмаил бег Къуткъашынлыдин "Сефернаме" ктабар гвай. И кІватІалар, гьакІни "Бустан" ва "Гуьл" эсеррин Туьркияда авунвай таржумаяр, лезги шаиррин шумудни са ктабар ада Азербайжандин Гьилин ХатІарин Фондуниз вуганай.

"Терки жагьан" ва "Накам" лакІабралди "Молла Несреддин" журналдин чинриз вичин макъалаяр акъудай, "Коммунист" ва "Кендли" газетра мухбирвал авур и кас Али Муьжруьм Тагьизаде тир. 1891-йисуз Дагъустандин Ахцегь райондин Ялцугърин хуьре кесиб лежбердин хизанда дидедиз хьайи Али

ƏLİ MÜCRÜM TAĞIZADƏ
(1891-1975)

Mükafat əvəzinə qismətinə məhbəs divarları düşən Ə.M.Tağızadə ömrünün son illərini qədim və qiymətli kitablar toplamağa sərf etmişdir.

Ləzgi, türk, rus, ərəb və fars dillərinin mükəmməl bilicisi, Quranı əzbər bilən, yeri gəldikcə onun surə və ayələrindən misallar gətirərək ləzgi və türk dillərində onların şərhini verən Əli Mücrüm Tağızadə tibbə aid qədim kitablardan bəhrələnərək, həkimlərin çarə edə bilmədikləri xəstələri müalicə edib sağaldardı.

Ə.Tağızadə Əbu Əli İbn Sinanın "Qanun", N.Tusinin "Coğrafiya", İ.Qutqaşınlının "Səfərnamə" kitablarının əlyazmalarını, "Bustan" və "Gül" əsərlərinin türk tərcümələrini, bir neçə ləzgi şairinin kitablarını Azərbaycan Dövlət Əlyazmaları Fonduna təhvil vermişdi.

"Molla Nəsrəddin" jurnalında "Tərki-cahan", "Nakam" imzaları ilə çıxış etmiş, "Kommunist" və "Kəndli" qəzetlərində müxbir kimi çalışmışdır. 1891-ci ildə Dağıstanın Axtı rayonunun Yalsuğ kəndində anadan olmuş Əli Mücrüm Tağızadənin Azərbaycan maari-

Муьжруьм Тагьизадедин тIвар Азербайжандин маарифдин тарихда гьатнава.

Вичин са йис хьайила адан буба рагьметдиз фенай ва Ибрагьим имиди Алини адан диде вичин хизандиз кьабулнай. Бакудин нафтIадин мяденра, Дашкесендин рудадин мяденра, Лекидин биядин заводда кIвалахай имиди адаз бубавал авунай. Алидин зигьинлувал акур Ибрагьима ам Агьдашда Гьажи Усман эфендидин медресадиз ракъурнай. Гьажи Усман эфендиди ахъайнавай медресадиз муаллимар Туьркиядай гьанвай. "Эгьмедиййа" мектеб, Жуьмя мискIин, гьакIни яргьарай кIелиз атанвайбур патал кIвалер вири са гьаятда авай.

Медреса ва "Эгьмедиййа" мектеб акьалтIарай Али Муьжруьма 1911-йисалай Къусарчайда, Нуьгедида азербайжан чIалан мектебар ахъайна ва ина тарсар гана. 1918-йисуз ада КцIара варзни зуран муаллимрин курсар ахъайна анаг акьалтIарай 86 кас муаллимвал авун патал чара-чара хуьреriз ракъурна. А чIавуз ам Къуба уезддин образованидин идарадин кьил тир. 1920-1925-йисара А.М.Тагьизадеди Агьдаш шегьерда муаллимвал авуна. 1926-1928-йисара Дагъустандин Самур уезддин образованидин идарадиз регьбервал гана.

1929-йисуз Азербайжандиз хтай А.Тагьызадеди Ширван уезддин районра мектебар ахъайна, иниз кесибрин аялар желб авуна. 1930-йисуз ада Гуьйчайдин педмектебда ва райондин чара-чара юкьван мектебра тарс гана. Азербайжандин Педагогикадин Институтдин филологиядин факультет акьалтIарай Али Муьжруьма муаллимвал давамар хъувуна. Са шумуд йисуз ада гьакIни Хьилерин хуьруьн юкьван мектебда муаллимвал авуна, 1946-1948-йисара Дербентдин педучилищеда кIвалахна.

Вичин уьмуьр халкь савадлу авуниз серф авур и инсан буьгьтен себеб яз 1949-йисуз дустагъ авунай. Вич тахсирсуз тирди субутиз алахъай агъсакъал 7 йисалай дустагъдай азад авунай. Рехи муаллимди вичин амай уьмуьр къадим ктабар кIватIуниз, гьакIни халкьдин чарайралди азарлу инсанар сагъаруниз серф авунай.

А.М.Тагьизаде 1975-йисуз Дагъустандин Мегьарамдхуьр райондин Советский хуьре рагьметдиз фена ва гьана кучукна.

finin inkişafında misilsiz xidmətləri var.

Əlinin bir yaşı tamam olanda onun atası vəfat edir. Əmisi İbrahim onu və anasını öz himayəsinə götürür. Bakının neft mədənlərində, Daşkəsən filiz yataqlarında, Ağdaş rayonunun Ləki stansiyasındakı biyan zavodunda işləyən İbrahim ona ata qayğısı göstərir. Əlinin fitri istedanını görüb onu Ağdaşda Hacı Osman əfəndinin mədrəsəsinə qoyur. Hacı Osman əfəndi mədrəsədən başqa "Əhmədiyyə" məktəbi açmış, uzaqdan oxumağa gələnlər üçün yataqxana da təşkil etmişdi. Hacı Osman əfəndi burada dərs demək üçün müəllimləri Türkiyədən dəvət etmişdi.

Mədrəsəni və "Əhmədiyyə" məktəbini bitirən Əli Mücrüm 1911-ci ildə Qusarçayda və Nügədidə Azərbaycan məktəbləri açıb, dərs deməyə başlayır. 1918-ci ildə Quba qəzasının təhsil şöbəsinin müdiri işləyən Ə.M.Tağızadə Qusarda ay yarımlıq pedaqoji kurslar təşkil edir. Buranı bitirən 86 müəllim müxtəlif kəndlərə müəllim işləməyə göndərilir. 1920-1925-ci illərdə Əli Mücrüm Tağızadə Ağdaş şəhərində müəllim kimi fəaliyyət göstərir. 1926-1928-ci illərdə onu Dağıstan Respublikası Samur Qəzasının Təhsil Şöbəsinin müdiri təyin edirlər.

1929-cu ildə Azərbaycana qayıdan Ə.M.Tağızadə Şirvan qəzasının rayonlarında məktəblər açıb, kasıb uşaqlarının təhsilə cəlb olunmasına səy göstərir. 1930-cu ildə o, Göyçay pedaqoji məktəbində və rayonun bir neçə orta məktəbində dərs deyir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirən Əli Mücrüm Tağızadə müəllimlik fəaliyyətini davam etdirir. Qusar rayonunun Hil kəndində, Dərbənd pedaqoji məktəbində müəllim işləyir.

Ömrünü xalqın maarifləmməsinə həsr edən ziyalı böhtan nəticəsində 1949-cu ildə dustaq edilir. Öz günahsızlığını sübut etməkdən ötrü yeddi il mübarizə aparan Ə.M.Tağızadə, nəhayət, 1956-cı ildə bəraət qazanaraq, azadlığa buraxılır. Gördüyü haqsızlıqlardan sarsılan Ə.M.Tağızadə ömrünün qalan hissəsini qədim və qiymətli kitablar toplamağa, xalq təbabətinin köməyi ilə insanları müalicə etməyə sərf edir.

Əli Mücrüm Tağızadə 1975-ci ildə Dağıstanın Məhərrəmkənd rayonunun Sovetski kəndində vəfat edir və orada basdırılır.

ИСМАИЛ ПИРИМОВ

1944-1955-йисара КцIарин детдомдин директорвиле кIвалахай Исмаил Пиримова ина тербия къачузвай аялриз бубавалнай.



(1903-1956)

Ина кутунвай багъдин, бустандин емишар гъамиша аялрин суфрадал жедай. Исмаил муаллимди гьар юкъуз аялрив нек хъваз тадай, абур начагъ хьайила регьятвал квадардай. Уьмуьрдин шегьредиз кам къачур жегьилар институтрикни техникумрик экечIун, кIвалахрал акъвазун патал вири алахъунар ийидай ада.

Агъа Лаккарин хуьре дидедиз хьана, ина юкьван мектеб акьалтIарай И.Пиримов Азербайжандин Гьукуматдин Университетдик экечIнай. Университет акьалтIарайдалай гуьгъуьниз са шумуд йисуз Девечидин Айгуьнлуь хуьре, гуьгъуьнлай вичин уьмуьрдин эхирдалди КцIар райондин чара-чара мектебра муаллимвал авунай.

1936-1940-йисара И.Пиримова Кузунрин хуьруьн мектебдин директорвиле кIвалахдайла адан регьбервилик кваз хуьруьнбуру мел авуна, мектеб патал цIийи дарамат эцигнай. 1941-1944-йисара ада Уьнуьгърин мектебдиз регьбервал ганай. Кузун Хъишлах хуьруьн мектебдин директорвиле кIвалахдайла ина пата-къерехдай атай муаллимар патал 3 утагъдин кIвал эцигиз тунай. ЧIакIаррин мектебдиз регьбервал гайи вахтунда И.Пиримован регьбервилик кваз хуьруьнбуру цIийи мектеб эцигна, иниз рехъ акъудна, багъ кутунай.

Эцигунрал рикI алай Исмаил Пиримов "Зегьметдин Яру Пайдах" ордендиз, "Зегьметдин игитвиляй" медалдиз ва "Азербайжан Республикадин лайихлу муаллим" гьуьрметдин тIварцIиз лайихлу хьанай.

İSMAYIL PİRİMOV

1944-1956-cı illərdə Qusardakı uşaq evinə rəhbərlik etmiş İsmayıl Pirimov kimsəsiz uşaqlara əsl atalıq qayğısı göstərmişdir.

Uşaq evinin həyətində onun rəhbərliyi ilə salınmış bağın məhsulları daim uşaqların süfrəsində olardı. İsmayıl müəllim uşaqlara hər gün təzə sağılmış süd içirdərdi. Onlar xəstələnəndə çarpayılarının yanında özü keşik çəkərdi. Yeniyetmələrin texnikum və institutlara daxil olmasından ötrü əlindən gələni edərdi. Yüzlərlə uşaq üçün o, ata əvəzi idi.

Aşağı Ləgər kəndində anadan olmuş, burada orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetində təhsil almış İ.Pirimov Dəvəçinin Aygünlü kəndində və Qusar rayonunun müxtəlif kəndlərində müəllim işləmişdir. O, qurub-yaradan, qayğıkeş və təəssübkeş ziyalı idi. 1936-1940-cı illərdə Kuzun kənd məktəbinin direktoru işlədiyi müddətdə burada kənd camaatını iməciliyə cəlb edərək, məktəb binası tikdirmişdi.

1941-1944-cü illərdə Əniğ kənd orta məktəbinə rəhbərlik edərkən o, buraya ətraf kəndlərdən gələn müəllimlər üçün üçotaqlı bina tikdirməyə nail olmuşdu. Cağar kənd orta məktəbində direktor işlədiyi vaxt onun təşəbbüsü ilə yeni məktəb binası inşa edilmiş, məktəbin ətrafında bağ salınmışdı.

Məktəb tikintilərinə göstərdiyi qayğıya görə İsmayıl Pirimov "Qırmızı Əmək Bayrağı" ordeninə, "Əmək igidliyinə görə" medalına və "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüşdü.

Hansı vəzifədə işləməsindən asılı olmayaraq o, həmişə bütün varlığı ilə xalq maarifinə, ölkənin gələcək vətəndaşlarının savadlı və mənəviyyatlı insanlar kimi yetişməsinə çalışmışdır.

ГЬУЬСЕЙН МУСАЕВ

КцIариз атана инин хуьрера мектебар эцигай Гьуьсейн Мусаева 1911-1921-йисара и рекьяй гзаф агалкьунар къазанмишнай.

Вич Шамахидай тир Гьуьсейн Мусаеван тIвар кцIарвийрин рикIел хъсандиз алама. Ада 1911-йисуз сифте яз КIуррин хуьре 2 синифдин мектеб патал са акьван чIехи тушир дарамат эцигиз тунай. И карда чкадин агьалийрини адаз куьмек

HÜSEYN MUSAYEV

Qusara gəlib buranın kəndlərində məktəblər açdırmış Hüseyn Musayev 1911-1921-ci illərdə bu sahədə böyük işlər görmüşdür.

Xalqın savadlanmasından ötrü böyük işlər görmüş şamaxılı Hüseyn Musayevin adı bu gün də qusarlıların xatirəsində yaşayır. Hüseyn Musayev ötən əsrin əvvəllərində Qusarın bir sıra kəndlərində məktəblər açdırmışdır. 1911-ci ildə yerli əha-

ганай. Мектеб кардик кутурдалай гуьгъуьниз ам Яргундал ихьтин мектеб ахъайдай къарардал атанай.

А йисара Яргундал са шумуд муаллимди аялриз араб ва лезги чIаларалди кIел-кхьин чирзавай, амма ина мектеб патал эцигнавай кьилди дарамат авачир. Гьуьсейн Мусаеван ихьтин дарамат эцигунихъ галаз алакъалу теклифдиз яргунвийри къуват гана ва эхирни ина 2 синиф патал дарамат эцигна, мектеб кардик кутуна. Гь.Мусаева КцIарин педучилище гуьнгуьна хтуна ва ина савадсузвал тергдай курсар тешкилна. И курсара ва педучилищеда Гь.Мусаевахъ галаз санал Алимамед Мустафаева, Агьмед Жавада тарсар гузвай. 1921-1924-йисара Гьусейн Мусаева Къуба уезддин халкьдин образованидин отделдиз регьбервал гана. И йисара ада уезддин хуьрера гзаф цIийи мектебар кардик кутуна, савадсузвал терг авун патал курсар арадиз гьана. 1921-йисуз Къубадай В.И.Ленинан кьилив фейи делегациядик Гь.Мусаевни квай.

1925-1928-йисара Гьуьсейн Мусаева Нахчивандин маарифдин комиссарвиле ва Нахчивандин Халкьдин Комиссаррин Советдин седривиле, 1928-1930-йисара АПИ-дин директорвиле кIвалахнай. 1937-йисуз репрессиядик акатай, 1943-йисуз дустагъдай акъатай Гьуьсейн Мусаева вичин уьмуьрдин эхирдалди халкьдиз мадни рикIин сидкьидай къуллугъ авунай.



(1879-1956)

linin köməyi ilə Ukur kəndində iki sinifli məktəb binası tikdirmiş, buraya müəllim və şagirdlər cəlb etmişdir.

Həmin illərdə Həzrədə bir neçə müəllim uşaqlara ləzgi və ərəb dillərində yazıb-oxumağı öyrətsə də, məktəblər şəxsi evlərdə yerləşirdi. Hüseyn Musayev burada ayrıca iki sinifli məktəb tikmək qərarına gələndə yerli əhali ona yaxından kömək göstərmişdir.

H.Musayev Qusarda pedməktəbin açılmasına da səy göstərmişdir. Pedməktəbdə və savadsızlığı ləğvetmə kurslarında Hüseyn Musayevlə birgə Əliməmməd Mustafayev və Əhməd Cavad da dərs deyirdilər.

1921-1924-cü illərdə Hüseyn Musayev Quba Qəzası Xalq Təhsili Şöbəsinə rəhbərlik etmişdir. Həmin illərdə o, qəzanın kəndlərində xeyli məktəblərin, savadsızlığı ləğvetmə kurslarının açılmasına səy göstərmişdir. 1921-ci ildə Qubadan V.İ.Leninin yanına gedən nümayəndə heyətinin tərkibində H.Musayev də var idi.

1925-1928-ci illərdə Hüseyn Musayev Naxçıvanın təhsil komissarı və Naxçıvan Xalq Komissarları Sovetinin sədri vəzifələrində çalışmış, 1928-1930-cu illərdə APİ-nin direktoru olmuşdur. Bu mübariz maarifçi 1937-ci ildə repressiyaya məruz qalmışdır. 1943-cü ildə azadlığa buraxılan H.Musayev ömrünün sonuna kimi xalqına xidmət etmişdir.

САИД ЭМИРОВ

Тахсиркар тушиз 1937-йисан репрессиядик акатай, вич гуьлле гана кьейи Осман Эмирован туькуьл кьисметдин дад адан хизанди, иллаки хци Саида гьисснай.



(1899-1962)

КцIар райондиз алимрин хизан хьиз сейли тир Эмировар Агъа Лакардин тIвар-ван авай несилрикай я. Абурукай сада - вичихъ девирдив кьадай чирвилер ва дуьньякьатIунар авай динэгьли Османа яргъал йисара хуьруьн мискIиндин кьилин фекьивал авунай. Адахъ халкьдин патай чIехи гьуьрмет ва нуфуз авай. Ингье адал "халкьдин душман" тIвар илитIнай.

Вири мал-девлет - чилер, мал-къара, халичаяр гьиляй акъатай Эмироври илимдиз майилвал къа-

SƏİD ƏMİROV

1937-ci ildə təqsirsiz olduğu halda repressiyaya məruz qalaraq güllələnən Osman Əmirovun acı taleyi onun ölümündən sonra da doğmalarına ağrı-acılar vermişdir.

Qusar rayonunda alimlər ailəsi kimi tanınan Əmirovlar Aşağı Ləgər kəndinin adlı-sanlı nəsillərindəndir. Kəndin maariflənməsində bu ailənin üzvlərinin böyük rolu olmuşdur. Onlardan biri, dövrünün savadlı və ziyalı ruhanilərindən olmuş Osman uzun illər kənd məscidinin axundu kimi camaat arasında hörmət və nüfuz qazanmışdır. Lakin ona "xalq düşməni" damğası vurulur. Osmanın ailəsinin, ələlxüsus, oğlu Səidin həyatında bu hadisə böyük iz buraxmışdır.

лурнай. Азербайжандин Гьукуматдин Педагогикадин Институтдин филологиядин факультет акьалтIарай Саид Амирова хуьре муаллимвиле, мектебдин директорвиле кIвалахнай. Ингъе "халкьдин душмандин хва" тIамгъа ягъана адав гьалалвилелди ризкьи къазанмишиз тазвачир.

Эхирни ам хайи хуьряй акъатна, Къубада яшамишиз мажбур хьанай. Бубадин тIвар михьидиз акъудун патал гзаф алахъунар авур ам вахтсуз рагьметдиз фейи са шумуд вацралай адан буба Осман тахсиркар туширди тестикь хьанай. Саида вичин вири веледрин рикIе илимдин чирагъ куькIуьрнай. Исамеддина, Назима ва Зейнеддина илимдин докторвилин, Эмирбубадини Гьежера илимдин кандидатвилин тIварар къачуна.

АЗИЗ ГЬАЖИЕВ

Яргъал йисара Азербайжан Республикадин Образованидин Советдик хьайи 15 касдикай сад кцIарви муаллим Азиз Гьажиев тир.



(1930-2002)

Адалди неинки яргунвийри, гьакI вири кцIарвийри дамахдай. Хайи хуьре юкьван мектеб куьтягьна, 1949-йисуз Къубадин Гьукуматдин Муаллимрин Институт акьалтIарай ада Уьзденуба ва Хуьрел хуьрера муаллимвал авунай. 1959-йисуз АПИ-дин филологиядин факультет акьалтIарай Азиз Мавлудан хва Гьажиева Яргунрин хуьре муаллимвал давамарнай.

Азиз муаллимди ва адан папа Месуме муаллимди - и кьве филологди хуьре азербайжан чIалайни литературадай тарсар гузвай. Умун къилихрин инсанар тир абуру хуьруьз цIийи гьава гьанай. Абуру регьбервал гайи драмкружок вириниз сейли хьанай. Азиз муаллимдиз гьуьрметдай, адавай чирдай инсанри.

Адан гзаф сортарин къизилгуьлер цанвай багъдин суракьар яргъариз чкIанвай. Инай гьар йисуз Азербайжандин чара-чара районра яшамиш жезвай адан дустари, танишри шитилар тухудай. Исятда адан гьаятда вишералди цуькверин сортар ама. 1972-йисуз Азиз Гьажиеваз "Азербайжан ССР-дин кIвенкIвечи маарифчи" гьуьрметдин тIвар ганай. 2000-йисуз ам "Азербайжан Республикадин лайихлу муаллим" гьуьрметдин тIварцIиз лайихлу хьанай.

Bütün var-dövləti - torpaq sahələri, mal-qarası, xalça-palazı əllərindən alınmış Əmirovlar üçün çıxış yolu elm, təhsil idi.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirib doğma kəndində müəllim, məktəb direktoru vəzifələrində çalışmış haqq, ədalət tərəfdarı olan Səid Əmirov "xalq düşməninin oğlu" kimi incidilmiş, nəhayət, kənddən köçüb Qubada yaşamağa məcbur edilmişdir. Atası Osmanın adını təmizə çıxarmaq üçün uzun illər səy göstərmiş Səid onun bəraətinə bir neçə ay qalmış vəfat etmişdir. Səidin 6 övladının 5-i həyatlarını elmə həsr etmişdir. Onlardan İsaməddin, Nazim və Zeynəddin elmlər doktoru, Əmirbaba və Həcər isə elmlər namizədidir.

ƏZİZ HACIYEV

Uzun illər ərzində Azərbaycan Respublikası Təhsil Şurasının 15 üzvündən biri qusarlı müəllim Əziz Hacıyev olmuşdur.

Ləzgi ziyalılarının ən yaxşı nümayəndələrindən idi o. Böyük mədəniyyət və nüfuz sahibi olan Əziz müəllim doğma Həzrə kəndində əvəzsiz adam idi. Kənd məktəbini başa vurub, Quba Müəllimlər İnstitutunda təhsil aldıqdan sonra Qusar rayonunun Üzdənoba və Xürel kəndlərində müəllim işləmişdi. 1958-ci ildə APİ-nin filologiya fakültəsini bitirərək, ömrünün axırınadək doğma kəndində müəllimlik etmişdi. Ona hörmət edir, ondan öyrənirdilər.

Həyat yoldaşı və həmkarı - filoloq Məsumə müəllimlə o, kəndə yeni nəfəs, yaradıcılıq əhval-ruhiyyəsi, həyat eşqi gətirmişdi. Hər ikisi məktəbdə Azərbaycan dili və ədəbiyyatı fənnlərini tədris edirdi. Onların rəhbərlik etdiyi məktəb dram dərnəyi bütün rayonda tanınırdı.

Əziz müəllimin çoxlu qızılgül növü yetişdirdiyi bağdan hər il Azərbaycanın müxtəlif yerlərindəki dostları, tanışları şitil aparırdılar. Onun yetişdirdiyi qızılgül tingləri bu gün yüzlərlə həyəti bəzəyir. Bacarıqlı pedaqoq Əziz Mövlud oğlu Hacıyev 1972-ci ildə "Azərbaycan SSR qabaqcıl maarif xadimi" adına layiq görülmüş, 2000-ci ildə isə ona "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adı verilmişdir.

ЭНВЕР ГЪАСАНОВ



(1936-2001)

Азербайжан ва француз чIаларин пешекар Энвер Гъасанова урус, лезги ва араб чIаларин курсарни акъалтIарнай.

ЯхцIур йисуз ара датIана КцIара муаллимвал авур Энвер Рамазанан хва Гъасанов КIур хуьре дидедиз хьана. Яргун хуьруьн юкьван мектеб куьтягьай ада гуьгъуьнлай М.Ф.Ахундован тIварунихъ галай АПИ акъалтIарна. КIур ва Мучугъ хуьрера муаллимвал авур Э.Гъасанов француз ва азербайжан чIаларин муаллим тир ва ада тарсар пешекарвилелди гудай. Энвер муаллимди урус, лезги ва араб чIаларин курсарни акъалтIарнай. Поэзиядал рикI алай, хуралай шиирар кIелдай Энвер муаллимди лезги ва Азербайжан чIаларал шиирар кхьизвай.

Вичин хуьрелни хуьруьнбурал дамахдай Энвер муаллимди жемятдин куьмекдалди хуьруьз булахдин яд гьанай. Ада гьакIни вичин харжидалди сурара ял ядай чка эцигиз тунай. Э.Гъасанован теклифдалди хуьре колхоз туькIуьрнай ва кьве йисуз ада колхоздиз регъбервални ганай.

Э.Гъасанова 1995-йисалай вичин уьмуьрдин эхирдалди КIуррин хуьруьн мектебдин директорвиле кIвалахнай. 1912-йисуз эцигнавай и мектебдин дарамат адан тIалабуналди гуьнгуьна хтунай. 1998-йисуз директордин теклифдалди мектебдин гьаятда кIурви генерал Магьмуд Абилован гуьмбет эцигнай.

ƏNVƏR HƏSƏNOV

Azərbaycan dili və ədəbiyyatı, fransız dili dərslərini peşəkarlıqla deyən Ənvər Həsənov rus, ləzgi və ərəb dili kurslarını da bitirmişdi.

Qırx il fasiləsiz olaraq pedaqoji fəaliyyətlə məşğul olmuş, Qusarın qabaqcıl müəllimlərindən biri kimi tanınmış Ənvər Ramazan oğlu Həsənov Ukur kəndində anadan olmuşdur. Həzrə kəndində orta məktəbi bitirdikdən sonra o, M.F.Axundov adına APİ-nin fransız-azərbaycan dilləri fakültəsində təhsil almışdır. Ukur və Mucuq kəndlərində müəllim işləmişdir. Rus, ərəb və ləzgi dilləri kurslarını da bitirmiş bu insan ləzgi və Azərbaycan dillərində gözəl şeirlər yazırdı.

Doğma kəndinə ürəkdən bağlı olan Ənvər Həsənov camaatın içməli sudan korluq çəkdiyini görəndə, buraya su kəməri çəkdirməyin təşəbbüsçüsü və təşkilatçısı olmuşdu. O, kənd qəbiristanlığında talvar düzəltdirmişdi. Ukurda kolxoz yaradılmasının təşəbbüsçüsü olmuş və camaatın xahişi ilə 2 il təsərrüfata rəhbərlik etmişdi.

1995-ci ildən ömrünün sonuna kimi Ukur kənd məktəbinin direktoru vəzifəsində çalışmış Ənvər müəllim 1912-ci ildə tikilmiş, lakin o vaxtdan bəri təmir olunmamış məktəb binasını əsaslı təmir etdirmişdi. Onun təşəbbüsü ilə 1988-ci ildə kənd məktəbinin həyətində general Mahmud Əbilovun büstü qoyulmuşdur.

АБДУЛГЪАШИМ МЕЖИДОВ



Шагь дагьдин ценце, кьакьан пелел экIя хьанвай и хуьруьхъ 25 кIвал ава. ГьакI ятIани Четкуьна гьеле 1930-йисуз мектеб эцигнай.

Икардик кьил кутурди Абдулгъашим муаллим тир. И савадлу ва инсанперес кас кьиле аваз хуьруьнбуру чIехи мел авуна са шумуд йикъан къене эцигунар кьилиз акъуднай. Вич хуьруьн тIвар-ван авай муаллим яз А.Межидов мектебдин директорвиле тайинарнай. Аялриз кьве нубатда тарс гузвай ада мектеб кьвед лагьай кIвал я, ам михьиз хуьн герек я лугьудай. Аялрини чилиз сумагар экIянавай утагъар михьиз хуьдай. Хуьруьнвийрин куьмекдалди кутунвай мектебдин багъда гьар

ABDULHAŞIM MƏCİDOV

Şahdağın ətəyində yerləşən bu kənddə cəmi 25 ev var. Kiçik yaşayış məntəqəsi olsa da, Çətkündə hələ 1930-cu ildə məktəb binası tikilib.

Bu işin təşəbbüskarı o vaxt kəndin yeganə müəllimi olan Abdulhaşım Məcidov idi. Bu savadlı və insanpərvər ziyalının rəhbərliyi ilə iməcilik edən kənd camaatı məktəb binasını birlikdə ucaldır. Tələbkar direktor ilk gündən məktəbdə xüsusi səliqə və nizam-intizam yaradır. Palazlar döşənmiş dərs otaqlarını uşaqlar həmişə təmiz saxlayırdılar. Kənd camaatının köməyi ilə məktəbin ətrafında meyvə bağı salınmışdı.

Çətkün kəndində aparılmış bir sıra abadlıq işləri

жуьредин емишар авай.

Четкуьнрин гзаф абадвилер адан тІварцихъ галаз алакъалу я. 500 метрдин мензилдай хуьруьз булахдин яд гъиз тунай ада. Четкуьнай Кузуниз фин патал вацІалай элячІдай куднавай муьгьни адан регьбервилик кваз арадиз гьанай. 50 йисалай виниз я жемятди и муькъуькай менфят къачуз. Ам хуьруьн рекьерни гуьнгуьна хутаз алахъдай. Адакай вил кягъиз хуьруьнбуру чпин кІвалер ва гьенерни михьиз хуьдай. Абдулгъашим Межидов 1998-йисуз рагьметдиз фена.

ЗАЛ ЗАЛОВ

Зал Залова яргъал йисара Чпирин юкьван мектебдиз регьбервал ганай, ам райондин кІвенкІвечи мектебдиз элкъуьрнай.

КцІар райондин Чпир хуьре мектеб 1920-йисуз кардик кутунай. Ам сифте яз акьалтІарайбурукай сад Залов Зал Жанагъадин хва тир. Гуьгъуьнлай ада КцІарин педмектебда кІелнай. Сифте Пирал хуьре муаллимвал авур гадади 47 йисуз ара датІана мектебда кІвалахнай. 1938-йисуз АПИ-дин химиядинни биологиядин факультет акьалтІарай З.Залова Яргундал муаллимвал авунай. Гуьгъуьнлай ам Чпиррин мектебдин директорвиле тайинарнай.

Ватандин ЧІехи дяве къарагъайла, ам гъиле яракь кьуна Ватан хуьз рекье гьатнай. 1942-йисуз вичел залан хирер хьана хуьруьз хтай З.Залова Чпирдал, Ясабдал, ТІигьира, Яргундал, ЦІийихуьре мектебдин директорвиле кІвалахнай.

1960-йисуз вичин тІалабуналди хайи хуьруьз хтай Зал Залова уьмуьрдин эхирдалди и мектебдиз регьбервал ганай. Ада вичин вири алакьунар хайи хуьр вилик тухуниз, маарифдиз серф авунай. З.Залован регьбервилик кваз хуьруьн жемятди мел авуна, мектебдин цІийи дарамат эцигнай. Ада гьакІни хайи хуьре клуб, регьв эцигунин, иниз автобусдин маршруг ахъаюнин карда чІехи зегьметар чІугунай.

И агьсакъалди кутур са гектардин багъди гилани бегьер гузва. А чІавуз мектебдихъ хперин, къуьрерин, верчерин ферма, гьакІни чІехи бустан авай. Инай жезвай пулар директорди мектебдин игьтияжар таъминарун патал серфдай.

Зал Залов “Маарифдин кІвенкІвечи” гьуьрметдин тІварцІиз, “Зегьметда тафаватлу хьунай” медалдиз лайихлу хьанай. 1978-йисуз адаз “Азербайжандин лайихлу муаллим” гьуьрметдин тІвар ганай.



(1915-1996)

də A.Məcidovun adı ilə bağlıdır. O, 500 metr məsafədən kəndə bulaq çəkdirib. Çətkündən Kuzuna gedən asma körpü də onun təşəbbüsü ilə tikilib. 50 ildən çoxdur ki, əhali həmin körpüdən istifadə edir. A.Məcidovun bilavasitə rəhbərliyi ilə kənd yolları bir neçə dəfə təmir olunub.

Abdulhaşım Məcidov çətkünlülər üçün əvəzsiz insan, böyük ağsaqqal idi. Ona hörmət edər, ondan çəkinərdilər. El üçün yanan qayğıkeş insan, kəndin fəxri Abdulhaşım Məcidov 1998-ci ildə vəfat edib.

ZAL ZALOV

Zal Zalov uzun illər Cibir kənd orta məktəbinə rəhbərlik etmiş, onu rayonun qabaqcıl məktəblərindən birinə çevirmişdir.

Qusar rayonunun Cibir kəndində 1920-ci ildə açılmış məktəbin ilk məzunlarından biri Zalov Zal Canağa oğlu idi. Qusar Pedaqoji Məktəbini bitirib, Piral kənd məktəbində pedaqoji fəaliyyətə başlayan Zal 47 il fasiləsiz olaraq xalq maarifi sahəsində çalışmışdır.

Z.Zalov 1938-ci ildə APİ-nin kimya-biologiya fakültəsini bitirdikdən sonra Həzrə kənd məktəbinə müəllim, sonradan isə Cibir kənd məktəbinə direktor vəzifəsinə göndərilmişdir.

Böyük Vətən müharibəsi başlananda cəbhəyə gedən gənc 1942-ci ildə ağır yaralanaraq, ordudan tərxis olunmuş, Cibir, Düztahir, Yasab, Həzrə və Zeyxür kəndlərində məktəb direktoru işləmişdir.

1960-cı ildə öz xahişi ilə doğma kəndinə qayıdaraq, ömrünün sonuna kimi burada məktəb direktoru vəzifəsində işləmiş Zal Zalov bütün qüvvə və bacarığını doğma kəndinin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə sərf etmişdir. Onun rəhbərliyi ilə kənd camaatı iməcilik yolu ilə məktəb ucaltmışdır. O, həmçinin kənddə klub, dəyirman tikilməsinin, buraya avtobus marşrutu açılmasının təşəbbüsçüsü olmuşdur.

Bu ağsaqqalın dövründə salınmış bir hektar meyvə bağı bu gün də məhsul verir. O, məktəbin yardımçı təsərrüfatında qoyunçuluq, quşçuluq və dovşançılıq fermalarının yaradılmasına səy göstərmiş, böyük bostan saldırmışdı. Buradan əldə olunan vəsait məktəbin ehtiyaclarının ödənilməsinə sərf olunurdu.

“Qabaqcıl maarif xadimi” adına layiq görülən, “Əmək igidliyinə görə” medalı ilə təltif olunan müəllimə 1978-ci ildə “Azərbaycanın əməkdar müəllimi” fəxri adı verilmişdir.

НЯМЕТ НЯМЕТОВ



(1923-1996)

"Зегьметда тафаватлувиляй" медалдиз лайихлу хьайи Нямет Няметов вичин сенятдал кьару кас тир.

Няметов Нямет Къужадин хва 1923-йисуз КцIар райондин Уьнуьгъ хуьре дидедиз хьана. Хуьруьн мектеб куьтягьай ада 1939-йисуз КцIарин Педтехникум, 1951-йисуз Азербайжандин Гьукуматдин Педагогикадин Институт акьалтIарна.

Къунахкент районда муаллимвал авур ада яргъал йисара КцIар райондин Хурай, Вурвар, Уьнуьгъ хуьрерин мектебрин завучвиле, Уьнуьгъ ва Хьил хуьрерин юкьван мектебрин, шегьердин 7 синифдин, 8 синифдин мектебрин, гьакIни 3-нумрадин ва заочный юкьван мектебрин директорвиле, РОНО-да инспекторвиле кIвалахна.

1974-йисуз Н.Няметова "Мектебда литература тарихдихъ галаз алакъалу чирун" темадай диссертация хвена, педагогикадин илимрин кандидатвилин тIвар къачуна. Ада Нурмет Зекиевахъ галаз санал Азербайжан чIалал "Уьнуьгъ хуьруькай рикIел хкунар" ктаб кхьена, чапдай акъудна.

NEMƏT NEMƏTOV

Maaarif sahəsindəki qüsursuz fəaliyyətinə görə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuş Nemət Nemətov sənətinə vurğun insan idi.

Nemətov Nemət Qoca oğlu 1923-cü ildə Qusar rayonunun Əniğ kəndində anadan olmuşdur. Əniğ kənd məktəbini, 1939-cu ildə Qusar Pedaqoji Texnikumunu, 1951-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir.

Qonaqkənd rayonunun Muçu kəndində müəllim kimi əmək fəaliyyətinə başlamış, müxtəlif illərdə Xuray, Urva, Əniğ kənd, Qusar şəhər yeddillik məktəblərində dərs hissə müdiri, direktor müavini, Qusar şəhər internat məktəbində baş tərbiyəçi, Əniğ, Hil kənd orta məktəblərində, Qusar şəhər səkkizillik, 3 saylı orta, qiyabi orta məktəblərində direktor, Qusar rayon xalq maarif şöbəsində inspektor vəzifələrində çalışmışdır.

1974-cü ildə N.Nemətov "Ədəbiyyatın tarixlə əlaqəli tədrisi" mövzusunda dissertasiya müdafiə edərək, pedaqoji elmlər namizədi elmi dərəcəsini almışdır. Nurmət Zəkiyevlə birgə yazdığı "Əniğ kəndi haqqında xatirə" kitabının müəllifidir.

ХУЬЗЕММЕД КЪАДИМОВ



(1923-1993)

XX виш йисан эвелра Чигалиди вичин кIвале мектеб ачухарнай. Вичин хци Хуьземмедав ва маса аялрив кIелиз тун адан мурад тир.

Икардикай вичихъ хъел акатай юзбашиди адан кIвализ гьахьна касдиз гуьлле ганай. Вичел залан хирер хьайи Чигали хайибуру са гужалди векьерив-кьаларив сагъар хъувунай. Лезги намусда гьатай Чигалиди кIвачел ахкьалтун кумазни, ЦIуру Худатай хуьруьз муаллим гваз хтанай. А муаллим Чигалидин накьвадин дехмеда аялриз тарсар гуз эгечIнай.

Совет гьукуматдин сифте вахтара Чигалиди хуьре кьилди мектеб кардик кутун патал галайвал авунай. И мектеб куьтягьайбурукай садни адан хва Хуьземмед тир. Вичихъ чIехи алакьунар авай Хуьзем-

XÜZƏMMƏD QƏDİMOV

XX əsrin əvvəllərində Çigali öz evində məktəb açdırmışdı. Oğlu Xüzəmmədin və kəndin digər uşaqlarının savadlanması onun böyük arzusu idi.

Bundan qəzəblənən kəndxuda Çigalinin üstünə silah çəkmişdi. Doğmaları onu güc-bəla ilə müalicə edib, ayağa qaldırmışdılar. Tərsliyə düşən Çigali sağalan kimi, Köhnə Xudat kəndinə gedib oradan müəllimlə geri qayıtmışdı. Həmin müəllim Çigalinin daxmasında uşaqlara dərs deməyə başlamışdı.

Sovet hakimiyyəti qurulan ilk illərdə Çigalinin səyi ilə kənddə dövlət məktəbi yaradıldı. Bu məktəbin ilk məzunlarından biri onun oğlu Xüzəmməd idi. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirən gəncin bacarığını görən müəllimlər ona aspiranturaya

мед Азербайжандин Гьукуматдин Университетдин тарихдин факультетдик экечIнай. Жегьилдин алакьунар акур муаллимри адаз аспирантурада кIелун давамарун теклифнай. Жегьил кIвалахиз-кIвалахиз илимдив машгъул жез эгечIнай. Анжах адан диссертация гьазур хьайила, дяве къарагънай. Хуьземмед ватан хуьн патал дяведиз фенай. Адан кIвалах хуьруьн рушарикай сифте яз мектебдиз фейи ва гуьгъуьнлай муаллимвал авур Перистана давамарнай.

Дяведай хъуьчIуьк кIекIецар кваз хтай Хуьземмед са береда вичин бубади кардик кутур мектебдин директорвиле тайинарнай. Гзаф савадлу, къени къилихрин инсан тир Хуьземмед Къадимов. Дяведин йисара къалурай гьунаррай адаз "Яру гьед" орден ганай. Вичин уьмуьрдин эхирдалди гьакъисагъвилелди хайи хуьруьн мектебда кIвалахай ам Ленинан ордендиз ва "Зегьметдин яру пайдах" ордендиз лайихлу хьанай.

girməyi təklif etdilər. Lakin o, aspiranturanın qiyabi şöbəsinə daxil olaraq, doğma kəndində müəllimlik fəaliyyətinə başladı. Dissertasiyası hazır olanda Böyük Vətən müharibəsi başlandı və Xüzəmməd cəbhəyə yola düşdü. Onun işini, kənd qızları arasından birinci olaraq məktəbə getmiş və sonralar Xüzəmməd müəllimin köməyi ilə müəllimlik peşəsinə yiyələnmiş Peristan davam etdirdi.

Müharibədən əlil ağacları ilə qayıdan Xüzəmməd müəllim bir vaxtlar atasının yaratdığı məktəbə direktor göndərilir. Savadlı və təvazökar insan olan Xüzəmməd Qədimova cəbhədə verilmiş "Qırmızı ulduz" ordeni müharibədən sonra təqdim olunur. Ömrünün axırına kimi doğma kənd məktəbində direktor vəzifəsində çalışmış bu zəhmətkeş insan nümunəvi pedaqoji fəaliyyətinə görə Lenin ordeni və "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmişdir.

УМУЯТ САМЕДОВА

КцIарви жегьилри яргъал йисара Умуят муаллимдилай чешне къачунай. Ам вичин сенятдал кьару, халкьдин аялар кIвачел акьалдарун патал гзафни-гзаф зегьметар чIугур пешекар муаллим тир.



(1920-2004)

Исмаил Самедован пуд веледдикай тIвар-ван авай муаллимар хьана. Сейфеддин Самедова 28 йисуз Къуба райондин Хужбала хуьруьн юкьван мектебдин директорвиле кIвалахна. Исятда и мектебдал адан тIвар ала. Муьгьйеддин Самедова КцIара ва Хачмаза муаллимвал авуна.

Умуят Самедовади АПИ-дин филологиядин факультет яру дипломдалди акьалтIарна Ясабрин ва Хьилерин мектебра, гуьгъуьнлай КцIарин 1-нумрадин юкьван мектебда муаллимвал авуна. Эвленмиш хьана 10 йисуз Нахчиванда яшамиш хьайи Умуят эхирни 4 аял гваз КцIариз хтана. 1956-йисалай ада вичин рикI алай сенят давамар хъувуна.

У.Самедовадиз 1982-йисуз "Азербайжан Республикадин лайихлу муаллим" гьуьрметдин тIвар ганай. Са шумуд ордендизни медалдиз лайихлу хьайи, гьалал зегьметдални намуслувилелди кьил хвейи, вичин уьмуьрдин 40 йис мектебдизни аялриз серф авур, даим такабурлувал хвейи У.Самедова 2004-йисуз, 84 йиса аваз рагьметдиз фена.

UMUYAT SƏMƏDOVA

Umuyat müəllimə uzun illər qusarlı yeniyetmələr üçün ziyalılıq nümunəsi olmuşdur. O, peşəsinə vurğun, onu dərindən bilən, xalqın övladlarını savadlandırmaqdan ötrü əlindən gələni edən bacarıqlı müəllim idi.

İsmayıl Səmədovun üç övladı adlısanlı müəllimlər olmuşdur. Seyfəddin Səmədov 28 il fasiləsiz olaraq Quba rayonunun Xucbala kənd məktəbinə rəhbərlik etmişdir. Hazırda bu məktəb onun adını daşıyır. Mühyəddin Səmədov uzun illər Qusarda və Xaçmazda müəllimlik etmişdir.

Umuyat Səmədova Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsini qırmızı diplomla bitirib, Qusarın Yasab və Hil kəndlərində, sonradan Qusar şəhər 1 saylı orta məktəbində çalışmışdır. Ailə qurub 10 il Naxçıvanın Şahbuz və Noraşen rayonlarında yaşamış Umuyat müəllimə 1956-cı ildə dörd övladı ilə birlikdə Qusara qayıtmış və burada müəllimlik fəaliyyətini davam etdirmişdir.

1982-ci ildə Umuyat Səmədova "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına layiq görülmüşdür. Dövlət tərəfindən əməyi bir neçə orden və medalla qiymətləndirilmiş U.Səmədova ömrünün 40 ilini xalq maarifinə həsr etmiş, şərəfli bir ömür yaşamışdır. O, 2004-cü ildə 84 yaşında vəfat etmişdir.

СЕБРИ БАБАЕВ

60 йисуз ара датIана педагогвал авур Себри Бабаев "КцIар 60 йисуз" ва "КцIара халкьдин маариф вилик финикай" ктабрин автор я.



(1923-2003)

КцIар райондин Хуьлуьхъ хуьре 1923-йисуз дидедиз хьайи Себри Абдулмежидан хва Бабаева 1938-йисуз КцIарин педтехникум куьтягьна, АПИ-да кIелун давамарна. ТIигьиржалдин ва Калунхуьруьн юкьван мектебра муаллимвиле ва директорвиле кIвалахна.

С.Бабаева 15 йисуз ара датIана профсоюздин райондин комитетдиз регьбервал гана. Самур поселокдин ва КцIар шегьердин мектебра директорвиле кIвалахна. 1960-йисуз адаз "Азербайжан Республикадин лайихлу муаллим" гьуьрметдин тIвар гана.

Гуьгъуьнлай Себри Бабаева Азербайжандин Гьукуматдин Университет, гьакIни Педагогикадин Институтдин аспирантура акьалтIарнай, географиядай диссертация кхьенай, амма хвеначир.

SƏBRİ BABAYEV

60 il fasiləsiz pedaqoji fəaliyyətlə məşğul olmuş Səbri Babayev "Qusar 60 ildə" və "Qusarda xalq maarifinin inkişafı" kitablarının müəllifidir.

Qusar rayonunun Xuluq kəndində anadan olmuş Səbri Abdulməcid oğlu Babayev 1938-ci ildə Qusar Pedaqoji Texnikumunu bitirmiş, təhsilini APİ-də davam etdirmişdir. Qusar rayonunun Tahircal və Kalunxür kəndlərində müəllim, direktor işləmişdir.

Qusar rayon XTŞ-də inspektor-metodist, 15 il fasiləsiz Respublika Həmkarlar İttifaqı Qusar Rayon Komitəsinin sədri olmuşdur. Camur qəsəbəsində və Qusar şəhərində məktəb direktoru vəzifəsində işləmişdir. 1960-cı ildə ona "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adı verilmişdir.

Sonradan ADU-nu, Pedaqogika İnstitutunun aspiranturasını bitirmiş, coğrafiyadan dissertasiya yazmış, lakin müdafiə etməmişdir.

ЯФЕЗ АГЬМЕДОВ

Азербайжандин юкьван мектебра лезги чIал чирзавайбуруз "Дидед чIал" (I-II синифар патал) учебникар гьазурна чапдай акъудай авторрикай сад Яфез Агьмедов я.



(1942-2001)

Яфез Шемседдинан хва Агьмедов 1942-йисуз КцIар райондин Эвежугъ хуьре дидедиз хьана. КцIар шегьерда юкьван мектеб куьтягьна, М.Ф.Ахундован тIварунихъ галай урус чIалалланни литературадин институтдик экечIай Яфеза 1960-йисуз анаг акьалтIарна. 4 йисуз хайи хуьре муаллимвал авур жегьилди 1968-йисалай вичин уьмуьрдин эхирдалди АПИ-да кIвалахна.

Педагогикадин илимрин кандидат тир ада докторвилин диссертациядин винел кIвалахзавай. Лезги, азербайжан ва урус чIалар хъсандиз чидай и касдихъ хайи чIал вилик тухунихъ авсиятда хъсан ниятар авай. Ада са шумуд автордихъ галаз санал III синифдин аялар патал "Дидед чIал" учебник чапдиз гьазурнай. Ингье алимдин мурад кьилиз акъатнач. 2001-йисуз ада 59-йиса аваз вичин дуьнья де-

YAFƏZ ƏHMƏDOV

Azərbaycanın orta məktəblərində ləzgi dilini öyrənən uşaqlar üçün "Ana dili" (I-II siniflər üçün) dərsliklərinin hazırlanıb çap edilməsində Yafəz Əhmədovun böyük əməyi olmuşdur.

Yafəz Şəmsəddin oğlu Əhmədov 1942-ci ildə Qusar rayonunun Əvəcuq kəndində anadan olmuşdur. Qusar şəhərində orta məktəbi bitirib, M.F.Axundov adına Xarici Dillər İnstitutuna daxil olmuşdur. 1960-cı ildə İnstitutu bitirib, dörd il doğma kənddə müəllimlik edən gənc 1968-ci ildən ömrünün sonuna kimi məzunu olduğu ali məktəbdə çalışmışdır.

Pedaqogika elmləri namizədi Y.Əhmədov doktorluq dissertasiyası üzərində işləyirdi. Ləzgi, Azərbaycan və rus dillərini mükəmməl bilən istedadlı alimin orta məktəblərdə ləzgi dilinin tədrisinin yaxşılaşdırılması ilə bağlı böyük arzuları var idi. O, III sinif şagirdləri üçün də belə dərslik hazırlamışdı. Digər müəlliflərlə birgə yenidən işləyib hazırladığı həmin dərsliyi çap etdirmək ona nəsib olmadı. Amansız ölüm 2001-ci ildə 59 yaşlı alimi aramızdan apardı.

гишарна.

МУЬГЬЙЕДДИН ВЕЛИХАНОВ

Диндин рекьяй дерин чирвилер къачур, вич Дагъустандин Кара Куьре хуьряй тир Муьгьйеддин Гьемзедин хва Велиханова Азербайжандин маарифдик зурба пай кутунай.



Къурьан хуралай чидай, азербайжан, урус ва араб чIалар ал сересдиз рахадай и жегьилдиз халкьдин арада чIехи гьуьрмет авай. ЭчIехуьруьнви Фаиза Жанмирзедин рушал эвленмиш хьайидалай кьулухъ ада даим КцIарихъ ялдай.

Совет гьукуматдин сифте йисара Муьгьйеддин Велиханов Азербайжандин Педагогикадин Институтдин химиядин факультетдик экечIнай. Инаг тафаватлувилелди акьалтIарна, 1926-1929-йисара Къубадин РОНО-диз регьбервал ганай. 1930-1934-йисара ам КцIарин педмектебдин директорвиле тайинарнай.

Ватандин ЧIехи дяведин йисара ада Азербайжандин Маарифдин Министерствода кьилин пешекарвиле кIвалахнай. Са кьадар вахтунда ам Азербайжандин КП ЦК-дин Хачмаз, Къуба ва КцIар районра векил хьанай. 1942-йисуз М.Велиханов КцIар райондин РОНО-дин регьбервиле тайинарнай. Гуьгъуьнлай Худатин етимханадиз, Яламадин сельсоветдиз, Макьсудхуьруьн мектебдиз регьбервал гайи ада вичин уьмуьрдин эхиримжи йисара Яламадин мектебда муаллимвал авуна. Савадлу ва вичин гафунилай элячI тийир Муьгьйеддин Велиханова вичин 7 веледни зегьметдал рикI алаз тербия авуна.

Адан чIехи хци Фикрет Велиханова яргъал йисара КцIарин РПК-дин III секретарвиле, Астара ва Жебраил районрин партиядин комитетрин I секретарвиле, техилдин магьсулрин министрдин заместителвиле кIвалахна. Ленинграддин Гимияр Расдай Институт акьалтIарай Закира и рекьяй Дагъустандин Каспийск шегьерда кIвалахзава. Магьачкъалада Педагогикадин Институт акьалтIарай Куьбрани Сима гьа и шегьерда яшамиш жезва. Азербайжандин НафтIадинни Химиядин Институт куьтягьай Фаик Бакудин тIвар-ван авай инженер-энергетик я. Одессадин Технологиядин Институтда кIелай Солмаз экономикадин илимрин кандидат я. Роза Бакудин Кардиологиядин Институтдин кардиолог я.

MÜHYƏDDİN VƏLİXANOV

Ruhani seminariyasında təhsil almış, əslən Dağıstanın Kara Küre kəndindən olan Mühyəddin Həmzə oğlu Vəlixanovun Azərbaycan maarifinin inkişafında böyük xidmətləri olmuşdur.

Quranı əzbərdən bilən, Azərbaycan, rus və ərəb dillərini doğma ləzgi dili kimi mükəmməl öyrənmiş bu gəncin xalq arasında böyük nüfuzu var idi. Əcəxür kəndinin sakini Faizə Canmirzə qızı ilə ailə həyatı qurandan sonra o, Qusara daha da bağlanmışdı.

Sovet hökumətinin ilk illərində M.Vəlixanov Azərbaycan Pedaqoji İnstitutunun kimya fakültəsinə daxil olur. Buranı fərqlənmə diplomu ilə bitirdikdən sonra 1926-1929-cu illərdə o, Quba Rayon Maarif Şöbəsinin müdiri vəzifəsində çalışır. Bacarığı və savadı ilə seçilən M.Vəlixanov 1930-1934-cü illərdə Qusar pedməktəbinin direktoru vəzifəsində çalışır.

Böyük Vətən müharibəsi illərində o, Respublika Maarif Nazirliyində aparıcı mütəxəssis vəzifəsində çalışır. Bir müddət isə Azərbaycan KP MK-nın Xaçmaz, Quba və Qusar rayonlarında nümayəndəsi kimi fəaliyyət göstərir. 1942-ci ildə M.Vəlixanov Qusar Rayon Xalq Maarifi Şöbəsinin müdiri təyin olunur. Sonralar Xudat uşaq evinin direktoru, Yalama kənd sovetinin sədri, Maqsudkənd orta məktəbinin direktoru vəzifələrində çalışan M.Vəlixanov ömrünün son illərində Yalama kənd orta məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. Savadlı və prinsipial adam olan Mühyəddin Vəlixanov 7 övladını da bu ruhda tərbiyə etmişdir.

Onun ilk övladı Fikrət Vəlixanov Qusar RPK-nın III katibi, Astara və Cəbrayıl rayon partiya komitələrinin I katibi, respublika taxıl məhsulları nazirinin müavini olmuşdur. Leninqrad Gəmiqayırma İnstitutunu bitirmiş Zakir Dağıstanın Kaspiysk şəhərində öz ixtisası üzrə işləyir. Mahaçqala Dövlət Pedaqoji İnstitutunun məzunları olan kimyaçı Kübra və filoloq Sima Mahaçqalada yaşayırlar. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun məzunu olan Faiq tanınmış mühəndis-energetikdir. Odessa Texnologiya İnstitutunu fərqlənmə diplomu ilə başa vuran Solmaz iqtisad elmləri namizədidir. Roza Azərbaycan Respublikası Kardiologiya İnstitutunun adlı-sanlı həkimlərindəndir.

МААРИФДИН ГЕЛЕРА

КЦIАРИН КОЛОНИЯ

Виш йис инлай вилик КцIар майвайрин сортарин музейдиз элкъвенай. Къуба патан багъларин ярашух тир ичерин ва чуьхверрин сортар сифте яз КцIарин багълара цанай ва инай Азербайжандизни Дагъустандиз чкIанай.

КцIар шегьердин гилан интернат алай чкадал алатай асирда кцIарвийри лугьузвайвал, "калун" алай. Им 1898-1903-йисара император III Александран тIварунихъ галай Бакудин ксарин гимназиядин КцIара кардик кутур хуьруьн майишатдин колония тир. Колонияди хуьруьн майишатдин рекьяй зурба агалкьунар къазанмишнай. А девирдин гзаф газетри ва журналри адакай марагълу материалар чапнай. Колонияди КцIара майвайрин цIийи багълар кутуна, гьакIни къецепатан уьлквейрай гьанвай ичерин, чуьхверрин ва маса емишрин цIийи сортар синагъдай акъудна.

1901-йисуз ина ичерин зулун сортарикай Бордорф, Бисмарк, Графенштейн, Кузино, Баумандин ренет, Орлеандин ренет, Касселдин ренет, Лансберг, ананас ичер, Синоп, Коксан ренет, гьакIни антоновка, апорт, император Александр, Титовка, Абердин ренет цанай. Гатун сортарин арада лацу ичер, яру тавдинбур, Харламов, фад жедай Гервист авай.

Ибурулай гъейри ичерин мад 10, чуьхверрин 12, шурван пIинийрин 11, хутарин 17 сортар цанай. А йисара КцIарин багълара гьам чкадин, гьамни къецепатан ичерин 80, чуьхверрин 50, хутарин 30, пIинийрин 30, шурван пIинийрин 18, куьлуь емишрин 40 кьван сортар авай. Колониядин чимиханайра хъуьтIуьзни къацу набататар жезвай. Инин цуьквери бахчайра 300 жуьредин цуьквер авай. Са анжах марвард цуькверин жуьреяр 60-далай гзаф тир. Колонияда агъзур кьван уьрдекар, къазар ва верчер хуьзвай.

Колонияди къазанмишай агалкьунар себеб яз майваяр, къушран як ва маса недай-хъвадай затIар бул хьанвайвиляй КцIарин базар а береда Къафкъаздин виридалайни ужуз базар яз гьисабзавай.



Колониядин акунар. 1901.

Koloniyanın ümumi görünüşü. 1901.

MAARİF YOLLARINDA

QUSAR KOLONİYASI

100 il əvvəl Qusar meyvə sortları muzeyinə dönmüşdü. Bu günə kimi Quba-Qusar bağlarının yaraşığı olan bir çox alma və armud sortları ilk dəfə Qusar bağlarında əkilmiş və buradan Azərbaycana və Dağıstana yayılmışdır.

